Xalqın qəzeti!

# Xalq qəzeti

№ 217 (30333) 6 oktyabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Beynəlxalq ictimaiyyətin fəal üzvü kimi Azərbaycan çoxsaylı siyasi, iqtisadi və regional inkişaf layihələrində iştirak edir. Dördüncü ildir ki, biz BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisata – Qoşulmama Hərəkatına sədrlik edirik. Bu, həqiqətən də Azərbaycanın geniş beynəlxalq dəstəyə malik olmasının göstəricisidir.**

# Heç kim Azərbaycanı yolundan döndərə bilməz

## İordaniya ilə ölkəmizin münasibətləri dostluq və qardaşlığa əsaslanır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir, ilk növbədə, İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.

Azərbaycan ilə İordaniyanın dost və qardaş, zəngin tarixə malik ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu dedi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birini dəstəklədiyini məmnunluqla qeyd etdi.

Siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev gələcəkdə iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Ömər Bərəkət əl-Nahar paytaxtımızda gedən böyük inkişaf proseslərinin və insanların firavanlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycan haqqında söylədiyi xoş sözlərə görə səfirə minnətdarlığını bildirdi və ona fəaliyyətində uğurlar arzuladı.

Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

# Almaniya region ölkələrinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir

**Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Telefon danışığı əsnasında regional məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Olaf Şolts region ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə Almaniyanın dəstəyini ifadə edib. O vurğulayıb ki, ölkəsi Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin rəhbərliyi ilə aparılan Brüssel prosesini dəstəkləyir. Almaniya Kansleri BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici missiyasının Azərbaycanın Xankəndi şəhərinə səfərinin müsbət bir addım olduğunu deyərək bunu yüksək qiymətləndirib.

Dövlətimizin başçısı Azərbaycanın regional sülh gündəliyinə sadiqliyini və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə aparılan Brüssel prosesini yaxından dəstəklədiyini vurğulayıb.

Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağın erməni sakinlərinə göstərilən humanitar yardımları qeyd edib, miqrasiya, sosial müdafiə sahələri ilə bağlı yerində erməni sakinlərə xidmətlər göstərildiyini deyib, müvafiq qeydiyyat proseslərinin başladığını və bunun üçün də ayrıca portalın müəyyən edildiyini bildirib.

Dövlətimizin başçısı Azərbaycanın bu sahədə təmin etdiyi şəffaflığın nümayişi olaraq, BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici ofisinin və BMT-nin ixtisaslaşmış təsisatlarının nümayəndələrindən ibarət qrupun əraziyə səfər etdiklərini bildirib, onların da mülki əhaliyə və mülki-ictimai infrastruktura heç bir ziyanın qeydə alınmadığı ilə bağlı müvafiq bəyanatla çıxış etdiklərini diqqətə çatdırıb.

***Prezidentin Mətbuat Xidməti***

# Avropa Parlamentinin xalqımıza qərəzi və ermənipərəstliyi səngimək bilmir

## *Qətnamə, yoxsa illüziya üçün lakmus kağızı?*

**Ermənistanın Avropa İttifaqındakı səfiri Tiqran Balayan deyəndə ki, Azərbaycana Qarabağı işğal etdiyi üçün sanksiya tətbiq etmək lazımdır – düşündük ki, ermənidir, ağzına gələni danışmaq bunların qanındadır. Ancaq sonra gördük ki, Avropanın öz "erməniləri" də var imiş. Yazımızda belələrinin avantürist baxışlarındakı bir məqam, daha doğrusu, Azərbaycana qarşı cəfəng iddia haqqında söz açacağıq.**



Əvvəlcə bildirək ki, T.Balayanın "sanksiya məntiqinə" Azərbaycanın Aİ ölkələrinə satdığı neft və qazın qiymətini məhdudlaşdırmaq və qurumun Bakı ilə daha sıx münasibətlərə dair danışıqlarının dayandırılması daxil idi. O, "Reuters"ə müsahibəsində başqa bir çox məsələlərdən də danışmış və sözünü ona gətirmişdi ki, Azərbaycan "Qarabağın işğalını başa çatdırıb", indi növbə Ermənistanındır.

Bəli, Avropanın öz "erməniləri"nin olduğunu təsadüfən vurğulamadıq. Ona görə belə dedik ki, onlar həyasızlıqları ilə erməni qanını daşıyanlardan fərqlənmirlər. Belələri üçün beynəlxalq hüquq prinsipləri heç nədir. Bu zehniyyət sahiblərinin yarımçıq təfəkkürlərinə dövlətlərin ərazi bütövlüyü məsələsinin fundamentallığı yaddır. Nəhayət, bu gerizəkalılar bütün bəşəri dəyərlərdən, hətta əxlaq normalarından uzaqdırlar. Görünür, belələrinin bir yerə toplaşdıqları qurumun elə Avropa Parlamenti olmasında da bir məntiq var. Əlbəttə, AP-də Cənubi Qafqaz bölgəsində baş verən proseslərdən xəbərdar olan, Azərbaycana ədalətli münasibət bəsləyən sağlam qüvvələr də mövcuddur. Təəssüf ki, çox vaxt onların səsi eşidilmir, yaxud olduqca zəif eşidirlər.

**(ardı 3-cü səhifədə)**



# Paris zamanı və məkanı səhv salıb

**Cənubi Qafqaz bölgəsindən min kilometrlərlə uzaqda yerləşən dövlətlərin Ermənistan–Azərbaycan münasibətlərinə müdaxiləsi davam edir. Görünür, onlar özlərini dünyanın ağası hesab edərək, hər məsələyə burun soxmağı özlərinə rəva görürlər. Belə dövlətlərdən biri də Fransadır. Rəsmi Parisin ermənipərəstliyi lap əndazəni aşıb. Fransa xarici işlər naziri Katrin Kolonnanın bugünlərdə İrəvana səfəri zamanı verdiyi bəyanatlar bunun daha bir təsdiqidir.**

Yeri gəlmişkən qeyd edək ki, bu, onun cari ildə Ermənistana ikinci səfəridir. Bundan öncə xanım Kolonna aprelin 28-də İrəvanda olmuşdu. Fransız nazirin səfərindən 5 gün əvvəl – aprelin 23-də isə Azərbaycan Ermənistanla şərti sərhəddə "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsini yaradaraq özünün sərhədlərinə sahib çıxmışdı. Prezident İlham Əliyev avqustun 26-da Laçın şəhərində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində çıxış edərkən bu barədə demişdi: "Bildiyiniz kimi, bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik. Bizə nə qədər təzyiqlər, nə qədər hədə-qorxular oldu. Bu gün də davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz. 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq".

**(ardı 4-cü səhifədə)**

# Azərbaycan Asiya üçün də önəmli ölkədir

Səhifə ⇨ 7

# Yeni Füzulinin ilk məktəbi onun sabahını nurlandırır



Səhifə ⇨ 11




# Bütün enerji növlərinə qlobal tələbat artır

**2045-ci ilədək dünyada bütün növ enerji növlərinə qlobal tələbatın 25 faiz artacağı proqnozlaşdırılır. Bunu Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qays deyib.**

**(ardı 7-ci səhifədə)**

# "Odlar yurdu"nu dünyada tanıdan opera rejissoru



Səhifə ⇨ 10

# Səudiyyə Ərəbistanı ilə əlaqələrin yüksək səviyyəsi məmnunluq doğurur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin və ölkə rəhbərləri ilə arasında dostluq münasibətlərinin olduğunu qeyd edən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı bütün dövrlərdə - həm işğal zamanı, həm də torpaqlarımızın işğaldan azad olunmasından sonrakı dövrdə Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası məsələlərində Səudiyyə Ərəbistanı Krallığının birmənalı şəkildə göstərdiyi mənəvi və siyasi dəstəyi bir daha yüksək qiymətləndirdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyinin ənənəvi xarakter aldığını məmnunluqla qeyd etdi.

İqtisadi əməkdaşlığa toxunan dövlətimizin başçısı enerji sahəsində yaxşı nümunələrin olduğunu bildirərək, Səudiyyə Ərəbistanı şirkətinin Azərbaycanda bu sahəyə böyük sərmayə qoymasının önəmini vurğuladı. Dövlətimizin başçısı bütün digər sahələrdə də əlaqələrimizin yüksək səviyyədə olduğunu dedi.

Səfir İssam bin Saleh əl-Cuteyli, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Kral Salman bin Əbdüləziz Al Səudun və Vəliəhd, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İki Müqəddəs Ocağın Xadiminə və Vəliəhdə çatdırmağı xahiş etdi.

Ölkəmizə səfir təyin olunmasından böyük şərəf hissi duyduğunu deyən İssam bin Saleh əl-Cuteyli Azərbaycanın Səudiyyə Ərəbistanı üçün dost və qardaş ölkə olduğunu vurğulayaraq, müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı konkret təlimatlar aldığını bildirdi.

# Azərbaycan Ermənistanla sülh danışıqlarından imtina etməyib

**"Azərbaycan Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelinin iştirakı ilə aparılan Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında olan üçtərəfli Brüssel prosesini və regional sülh gündəliyini dəstəkləyir və bu mənada sülh müqaviləsi daxil olmaqla, bir çox sülh təşəbbüslərinin müəllifi məhz Azərbaycandır".**



Bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" platformasında bildirib.

"Fransanın regionda qərəzli və militarizasiya siyasətinə, Cənubi Qafqazda regional sülh və sabitliyə zərər gətirən və Avropa İttifaqının Cənubi Qafqaz siyasətini risk altına qoyan addımlarına və rəsmi Bakının israrına baxmayaraq, region ölkəsi olaraq qardaş Türkiyənin beşli formatda (Azərbaycan, Ermənistan, Avropa İttifaqı, Fransa və Almaniya) olan görüşdə iştirakına imkan verilməməsinə görə Azərbaycan Qranadada iştirak etməməyə qərar vermişdir. Biz, həmçinin, ev sahibi olaraq İspaniyanın da bu formatda olan görüşdə iştirakının tərəfdarı idik.

Bəzi beynəlxalq media resurslarında bunun Azərbaycanın Ermənistanla təmaslardan və ya danışıqlardan imtina etməsi kimi təqdim edilməsi düzgün deyildir. Azərbaycan Brüsseldə Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında Brüsseldə tezliklə üçtərəfli görüşlərə hazırdır. Azərbaycan tərəfi eyni zamanda Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi və sülh müqaviləsi üzrə birbaşa və ikitərəfli dialoqu və danışıqları dəstəkləyir. Fürsətdən istifadə edərək İspaniyadan olan həmkarlarımızı və dostlarımızı Avropa Siyasi İcmasının Qranada görüşünü uğurla təşkil etmələri münasibətilə təbrik edirik və Ermənistan–Azərbaycan dialoquna töhfə vermək niyyətlərinə görə təşəkkür edirik", - o qeyd edib.

*XQ*

## Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 avqust tarixli 575 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən dövlət zəmanəti əsasında emissiya ediləcək istiqrazların buraxılması, həcmi, müddəti və ödənilmə şərtləri"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 avqust tarixli 575 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 905; 2016, № 9, maddə 1470; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2282 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən dövlət zəmanəti əsasında emissiya ediləcək istiqrazların buraxılması, həcmi, müddəti və ödənilmə şərtləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci hissəyə "Təşkilatı" sözündən sonra (bundan sonra – "Aqrarkredit" QSC) sözləri əlavə edilsin.

**2.** 3-cü hissədə "İstiqrazlar" sözü "Bu Şərtlərin 10-cu hissəsi nəzərə alınmaqla, istiqrazlar" sözləri ilə əvəz edilsin.

**3.** 4-cü hissənin ikinci cümləsinə "şərtilə" sözündən sonra "bu Şərtlərin 10-cu hissəsinə uyğun olaraq fərqli qayda nəzərdə tutulmadığı halda," sözləri əlavə edilsin.

**4.** 5-ci hissəyə "bu ödənişlər" sözlərindən əvvəl "bu Şərtlərin 10-cu hissəsinə uyğun olaraq fərqli qayda nəzərdə tutulmadığı halda," sözləri əlavə edilsin.

**5.** Aşağıdakı məzmunda 10-cu hissə əlavə edilsin:

"10. İstiqrazların bu Şərtlərin 3 – 5-ci hissələrində nəzərdə tutulan tədavül və ödənilmə müddətləri "Aqrarkredit" QSC tərəfindən istiqraz mülkiyyətçiləri və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla dəyişdirilə bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 oktyabr 2023-cü il**

# ATƏT PA-da ölkəmiz əleyhinə təşəbbüslərin qarşısı alınıb

**Oktyabrın 5-də bir sıra ölkələrin təşəbbüsü ilə ATƏT PA-nın növbədənkənar onlayn Büro iclası keçirilib.**

Qeyd edilib ki, iclasın əsas mövzusu Cənubi Qafqazda baş verən son hadisələrin, xüsusilə Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilən lokal antiterror tədbirləri və bundan irəli gələn vəziyyətin müzakirəsi olub.

Müzakirələr zamanı Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri, ATƏT PA-nın İqtisadiyyat, elm, texnologiya və ətraf mühit məsələləri Baş Komitəsinin sədri, büro üzvü Azay Quliyev sentyabrın 19-20-də həyata keçirilən lokal antiterror tədbirlərinin səbəbləri, məqsədi və nəticələri barədə ətraflı məlumat verib.

Diqqətə çatdırılıb ki, ermənilərin davamlı təxribatlarına cavab olaraq başladılan və çox dəqiqliklə aparılan antiterror tədbirləri zamanı yalnız legitim hərbi hədəflər zərərsizləşdirilib, mülki əhaliyə və mülki infrastruktura heç bir zərər dəyməyib. A. Quliyev nəticədə qanunsuz erməni silahlı qüvvələrinin təslim olduğunu və oyuncaq rejimin özünü buraxdığını vurğulayıb.

İclasda Ermənistan və digər nümayəndə heyətlərinin Azərbaycana qarşı müəyyən tədbirlərin görülməsi, Qarabağ erməniləri ilə əlaqədar işçi qrupunun yaradılması ilə bağlı cəhdlərinin qarşısı alınıb, bu cür pozucu təşəbbüslər Büro tərəfindən rədd edilib.

*XQ*

# Beynəlxalq Astronavtika Konqresinin gündəliyi




### İlon Maskın virtual Bakı açıqlamaları

"SpaceX"in təsisçisi, baş icraçı direktoru və texniki direktoru İlon Mask oktyabrın 5-də Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin (IAF) plenar iclasına canlı bağlantı ilə qoşulub.

"Gələcək üçün əvəzsiz imkanlar" mövzusunda keçirilən plenar iclas Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Klay Mourinin moderatorluğu ilə baş tutub.

Canlı bağlantı "SpaceX"in inqilabi "Starship" və "Super Heavy" daşıyıcısı haqqında bəhs edən İlon Mask və IAF prezidenti Klay Mouri arasında maraqlı müzakirə formatında keçirilib.

İlon Mask ona ünvanlanmış "SpaceX"in kosmik fəaliyyəti barədə sualları cavablandırıb.

İclasda Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, "Azərkosmos"un İdarə Heyətinin sədri Saməddin Əsədov və bir sıra dövlət rəsmiləri, konqres nümayəndələri iştirak edib.

***

### NASA Azərbaycanın "Ayda virtual səyahət"ini dəstəkləyir

"74-cü Beynəlxalq Astronavtika Sərgisində öz ideyamız – "Ayda virtual səyahət" ilə təmsil olunuruq. Biz bu layihəni Azərbaycanın ilk kosmik startapı adlandıra bilərik. Layihəmiz bir sıra ölkələrin bu tip avadanlıqlarını geridə qoyub. NASA-nın nümayəndələri bu startapı dəstəkləməyə hazır olduqlarını bildiriblər. Bizim üçün çox qürurvericidir ki, 31 azərbaycanlı tərəfindən hazırlanmış məhsul burada xarici qonaqlara təqdim olunur".

Bunu Azərbaycanın "BirAiny" şirkətinin təsisçisi və rəhbəri Fuad Tağıyev deyib.

O bildirib ki, startap layihəsinin xüsusi avadanlığına qalxaraq Ay üzərində uçuş həyata keçirmək mümkündür.

*XQ*

# "Azersky-2" peykini ölkəmiz özü hazırlayacaq

**Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentliyin ("Azərkosmos") və "Israel Aerospace Industries" şirkəti arasında Azərbaycanın yeni müşahidə peyklərinin hazırlanması üzrə əməkdaşlıq müqaviləsi imzalanıb.**



"Azərkosmos"un məlumatına görə, "Azersky-2" proqramı ölkədə Yer səthinin müşahidəsi sektorunda davamlılığı təmin etməklə yanaşı, biznes baxımından da yeni səhifə açacaq, o cümlədən ölkəmizdə kosmik ekosistemin daha da inkişafına xidmət edəcək.

Müqaviləyə əsasən, "Azersky-2" proqramı çərçivəsində iki peyk hazırlanacaq. Bunlar yüksək ayırdetməli elektro-optik sensora malik Yerin məsafədən müşahidə peykləri olacaq. "Israel Aerospace Industries" şirkəti peyk qruplaşmasının ilk peykinin layihələndirilməsi, yığılması, inteqrasiyası və sınağını azərbaycanlı mütəxəssislərin iştirakı ilə aparacaq.

İsrailli mütəxəssislər, həmçinin respublikamızda qurulacaq peyklərin inkişafı mərkəzinin layihələndirilməsində də "Azərkosmos"a dəstək göstərəcək. Azərbaycanlı mütəxəssislərin əldə etdiyi təcrübə isə ikinci peykin ölkəmizdə hazırlanmasına imkan verəcək.

"Israel Aerospace Industries"in proqramı çərçivəsində "Azersky-2" sisteminin idarə edilməsi və istismarı gerçəkləşdiriləcək. Şirkət tərəfindən, həmçinin peykə nəzarət və peyk təsvirlərinin emal olunmasına dair yerli mütəxəssislərə təlim keçiriləcək. Peyklər 2026 və 2028-ci illərdə orbitə buraxılacaq.

*XQ*

# Naxçıvan MR Ali Məclisinin payız sessiyasının növbəti iclası



**Dünən 6-cı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının növbəti iclası keçirilib.**

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavininin müraciətinə baxılması; "Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Qanunda dəyişiklik edilməsi məsələlərinə baxılıb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, Ali Məclis sədrinin birinci müavini Azər Zeynalov istefa ilə bağlı müraciət edib. Müzakirə olunan məsələ ilə əlaqədar qərar layihəsi oxunduqdan sonra səsə qoyularaq qəbul edilib.

İkinci məsələ ilə bağlı bildirilib ki, Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli Konstitusiya Qanunu ilə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilib. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikasının müvafiq qanununda dəyişiklik layihəsi hazırlanıb. Layihə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli məlumat verib.

Deputatlardan Elman Cəfərli, Yeganə Məmmədova və Aidə Allahverdiyeva qanun layihəsinə edilən dəyişikliklərin Naxçıvan Muxtar Respublikasında həyata keçirilən islahatlara cavab verdiyini, insan hüquqlarının daha da etibarlı təminatına şərait yaradacağını, eləcə də dayanıqlı inkişafa xidmət edəcəyini bildirib, dəstək ifadə ediblər.

*XQ*

# Avropa Parlamentinin xalqımıza qərəzi və ermənipərəstliyi səngimək bilmir

## Qətnamə, yoxsa illüziya üçün lakmus kağızı?



**(əvvəli 1-ci səhifədə)**

Bəli, Avropa Parlamentinin üzvləri Strasburqda keçirilən plenar iclasda Aİ ölkələrini Qarabağdakı hadisələrə görə Azərbaycana qarşı sanksiyaların tətbiqinə, habelə əməkdaşlığın inkişafını dayandırmağa çağıran qətnamə qəbul etmək niyyətindədirlər. Sənəddə, eyni zamanda Azərbaycan qazının idxalından asılılığın azaldılmasının vacibliyi vurğulanır.

Həmçinin AP-nin korrupsiyalaşmış deputatları Aİ-ni və üzv dövlətləri Qarabağda çoxsaylı atəşkəs rejiminin və insan hüquqlarının pozulmasına görə Azərbaycanın, guya, məsuliyyət daşıdığını da bildiriblər. Bundan başqa, onlar Aİ-nin Xarici Siyasət üzrə ali nümayəndəsini "Qarabağın erməni əhalisinin hüquqlarına və təhlükəsizliyinə hörmətlə yanaşmağa həqiqi iradə nümayiş etdirənə qədər, Azərbaycanla tərəfdaşlıq sazişinin yenilənməsi üzrə danışıqları dayandırmağa" çağırmağı planlaşdırırlar. Sən demə, ölkəmiz deyilənlərə məhəl qoymayacağı təqdirdə Aİ və üzv dövlətlər viza rejiminin sadələşdirilməsi haqqında sazişin tətbiqini dayandırmalı və digər sahələrdə əməkdaşlığın səviyyəsini azaltmalı imişlər.

**

Əlbəttə, AP-nin xarici siyasət məsələləri ilə bağlı qətnamələri hüquqi qüvvəyə malik deyil. Lakin digər Avropa təsisatları qurumun deputatlarının rəylərini dinləməlidir. Dinləyən olacaqmı, ya yox, mövzumuz bu deyil. Həm də ona görə ki, əksər hallarda aşkar ermənipərəst mövqe tutanlara əhəmiyyət verənlər, söylədiklərinə ciddi yanaşanlar olmur. Bir atalar misalında deyildiyi kimi, dəyirman öz bildiyini edir, çax-çax baş ağrıdır.

...Başlıca məqam T.Balayanın dedikləri ilə AP deputatlarının söylədiklərinin üst-üstə düşməsidir. Deməli, ermənipərəstlər iş başındadır və onların "direktivləri" haradan aldıqları aşkardır. Bu oyunun Fransanın başının altından çıxdığı da, həmçinin. Paris bütün resursları Azərbaycana qarşı səfərbər edib və AP də həmin oyuncaq qurumlardan biridir.

Ümumən, görünən budur ki, Fransanın ermənipərəst niyyəti, ümumən Cənubi Qafqaz avantürası üçün bütün Avropa institutlarını alətə çevirməkdədir. Bu baxımdan özünü, belə demək mümkünsə, daha əzmlə təklif edən isə AP-dir. Ona görə ki, qurum yuxarıda da dediyimiz kimi, korrupsiyalaşmış, rüşvətə bulaşmış deputatlardan ibarətdir və onlar hazırda Parisin təhriki, eləcə də "köhnə qitə"nin erməni lobbi və diaspor təşkilatlarının maliyyəsi ilə Ermənistana növbəti "illüziya xoşbəxtliyi" yaşatmaqdadırlar.

Diqqət yetirək, BMT başda olmaqla, müxtəlif təşkilatlar Ermənistanın qaldırdığı Qarabağda "etnik təmizləmə" şousuna dəstək vermədilər. Onlar, həmçinin Bakının antiterror tədbirlərinə görə işğalçı kimi qiymətləndirilməsinin yolverilməzliyini anladılar və ümumən məsələyə yaxın durmadılar. Belə çıxır ki, ümid yenə də AP-nin çürük xislətli deputatlarına qaldı. Görünür, necəsə erməni avantürizmini diri tutmaq, beynəlxalq ictimai rəyə anti-Azərbaycan mesajı vermək son dərəcə vacibdir. Deməli, mövcud "sahədə" ixtisaslaşmış qurumun "xidmətlərindən" istifadə də şərtdir.

"Xidmətlərdən" söz düşmüşkən, bildirək ki, AP-nin anti-Azərbaycan fəaliyyəti özünü hər zaman göstərib. Bu "fəaliyyətdə", necə deyərlər, "qətnamə məntiqi"ni çox görmüşük. Əvvəlki illərdə qurum ölkəmizdə, guya, insan hüquq və azadlıqlarının, o cümlədən söz və ifadə azadlığının pozulması ilə bağlı qətnamələr çıxarırdı. Beləliklə, ölkəmizə təzyiq göstərmək istəyən qüvvələrin "sifarişlərini" yerinə yetirirdi.

Ümumən, bu sənədlərin qəbulu nəinki qərəzlidir, eyni zamanda, AP-nin rəhbər tutduğu müddəalara saymazyana münasibətdir. Nəzərə alaq ki, qurumun üç əsas səlahiyyəti var. Bunlar Avropa İttifaqına dair qanunlar qəbul etmək, həmin qanunların yerinə yetirilməsinə nəzarəti həyata keçirmək və qurumun büdcəsinin icrasına nəzarət. Bu səlahiyyətlər ona üzv ölkələr tərəfindən müəyyənləşdirilib. Deməli, Azərbaycanla bağlı qətnamə qəbul etmək AP-nin səlahiyyətlərinə ziddir. Ən azı, ona görə ki, ölkəmiz Aİ-nin üzvü deyil.

Ancaq AP-dəkilər bunu nəzərə almırlar və qurumun 44 günlük müharibədən sonra tutduğu mövqe belə deməyə əsas verir. Qəbuluna cəhd göstərilən qətnamə AP-nin 2023-cü il başlayandan ölkəmizə qarşı sayca üçüncü qərəzidir. Yada salaq ki, qurum Azərbaycanla bağlı sonuncu qətnaməsini bu il martın 15-də qəbul etmişdi. İlk qətnamə isə yanvarın 19-da çıxarılmışdı. Hər iki halda bu addım Ermənistandakı revanşist qüvvələri hərəkətə gətirmişdi, indi də durum eynidir. Sanki, boğulanlar saman çöpündən yapışırlar. Obrazlı desək, bu çöpü onlara uzadan isə AP-dir.

*

Digər bir məqama da diqqət yetirək. Belə təəssürat formalaşır ki, AP özünün fəaliyyətdə olduğunu yalnız Azərbaycana qarşı qərəzli mövqe tutmaqla təsdiqləyir. Bununla habelə dünyada itirilmiş nüfuzunu bərpa etməyə çalışır. Nüfuz isə nəinki yoxdur, hətta yerlə birdir. AP-də korrupsiya yuvasının mövcudluğunu təsadüfən vurğulamamışdıq. Bunu söyləmək üçün kifayət qədər ciddi əsaslar var. Hesab edirik ki, qurumun Yunanıstandan olan vitse-prezidenti Yeva Kaylinin milyonlarla dollarlıq korrupsiya cinayətində ittiham edilməsini vurğulamaq kifayətdir. Bu olay Avroparlamentin tarixinə düşmüş qara ləkədir. Amma başqa rüsvayçılıqlar da var.

Təsəvvür edin ki, AP-nin deputatı ictimai yerdə narkotik vasitə olan kokaindən istifadə edərkən tutulub. Yəqin heç kəsin ağlına gəlməz ki, həmin ictimai yer haradır. Ona görə də deyək. Həmin yer AP-nin iclasıdır. Olay bu ilin aprelində baş verib və onunla bağlı konkret videomaterial var. Həmin "qəhrəman" isə deputat Yens Mayerdir. Keçmiş hakim olan alman siyasətçisi sırf sağçı populist partiya olan "Almaniya üçün alternativ"in üzvüdür.

Bu sayaq misalların sayını artırmaq, eləcə də ümumən AP-nin Azərbaycanla bağlı qərəzindəki ayrı-ayrı məqamları vurğulamaq mümkündür. Amma ehtiyac duymuruq. Başlıca cəhət dediyimiz kimi, belə bir mənfi reputasiyaya malik qurumun Azərbaycana çamur atmaq cəhdidir. Heç şübhəsiz, belə cəhdlər əvvəllər olduğu tək, indi də heç bir fayda verməyəcəkdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Su axar – çuxuru tapar

## Manyak prokurorun erməni "sevdası"

**Luis Moreno Okampo. Beynəlxalq Ədalət Məhkəməsinin sabiq prokuroru, 72 yaşlı argentinalı indi daha çox korrupsioner vəkil kimi "məşhurlaşıb". İndi Bakıda həbsxanada müstəntiqə ifadə verən separatçıbaşı Araik Arutyunyan 2023-cü il iyulun 29-da "ekspert rəyi" üçün keçmiş prokurora müraciət edib. Doqquz ildə BCM-in cəmi bir işini araşdıran Okampo 9 gündə Qarabağdakı vəziyyəti nizama salmağı "bacarıb". Amma o, etnik ermənilərin əllərində bayraq edəcəkləri bu saxta tarixi hesabatı belə qısa müddətdə, həm də təkbaşına ərsəyə gətirə bilməzdi. Bu işdə ona həmkarı, özü kimi rüşvətxor hakim, erməni əsilli Qassiya Apkaryan kömək edir. ABŞ-ın Kaliforniya ştatının Orinc dairəsinin Ali Məhkəməsinin hakimi vəzifəsində çalışan Apkaryan bu barədə özü erməni internet telekanalı CivilNet-ə hər şeyi yerli-yataqlı danışıb.**

* * *

Necə deyərlər, açıb sandığı, töküb pambığı. Femida təmsilçisinin saxta rəyin hazırlanması prosesində Okampo ilə dialoqundan danışdığı seçməyə diqqət yetirək: "Soyqırımı heç də küçələrdə milyonlarla insanın meyitinin səpələnməsi demək deyil. Bu, mütəmadi şəkildə davam etdirilən "soyqırımıdır" və bu barədə hüquqi rəy tərtib olundu. Cənab Moreno, həm də, Qarabağ ermənilərinin gələcəkdə təhlükəsizliyini təmin etmək barədə düşünürdü. Yadımdadır, söhbət əsnasında ona dedim: "Bilirsiniz, mənim üçün ən dəhşətli nədir? Mənim özümün də bu məsələyə aidiyyatım var. Mən yüz il əvvəl "soyqırımına" məruz qalmış adamların sələfiyəm. Bu sözü yenidən dilimizə gətirəcəyimizi heç vaxt düşünməzdim".



Erməni hakimin etirafının həqiqətə nə dərəcədə yaxın olduğunu deyə bilmərik, amma həmin "fundamental əsəri" Okamponun məhz onun birbaşa diktəsi ilə qələmə aldığı aşkar görünür. Cəmi on iki saata yazılan, Azərbaycanın Qarabağda "cinayətkar niyyətini isbatlayan", ermənilərə qarşı "soyqırım niyyətini ifşa edən" və keçmiş baş prokurorun altından imzasını qoyduğu hesabat dərhal ictimailəşdirilib. ABŞ-dakı erməni lobbisi beynəlxlaq hüquq üzrə "tanınmış ekspertin" rəy-hesabatının avqust ayında Nümayəndələr Palatasında, eləcə də Senatda müzakirə mövzusuna çevrilməsinə nail olurlar.

Üstündən az müddət keçəndən sonra beynəlxalq sahədə tanınmış ekspert, nüfuzlu hüquqşünas, "Temple Garden Chambers" firmasının müvəkkili Rodni Dikson Okamponun məlum rəy-hesabatının başdan-ayağa yalandan, saxta mülahizələrdən ibarət, sənəd-sübutdan məhrum bir kağız parçası olduğunu ortaya qoyur. Cənab Dikson yazır: "Hesabat sadəcə açıq-aşkar qərəzli mahiyyəti ilə seçilmir, həm də "soyqırımı" anlayışını şərh etməkdə tamamilə səriştəsizdir və "faktlara" münasibətdə "açıq selektiv" yanaşma nümayiş etdirir".

Fəqət ermənilər bundan sonra da həmin "soyqırımı hesabatı"nı əllərində dünyanı dolaşmaqda davam edirlər. Bakı məlum lokal antiterror tədbiri ilə Qarabağda "blokada", "humanitar fəlakət", "acından ölmə" hay-küyünə son qoyandan sonra da hayların təbliğat maşını dezinformasiya, manipulyasiya cəhdlərindən əl çəkmək istəmir.

* * *

İndi isə keçək məsələnin ən maraqlı tərəfinə. Aydın məsələdir ki, Luis Moreno Okampo göstərdiyi "xidmətə" görə ermənilər tərəfindən səxavətlə mükafatlandırılıb. Bu, onun BCM-in keçmiş baş prokuroru kimi birinci və axırıncı "hüquqşünas-ekspert" fəaliyyəti deyil. Bu barədə CNN telekanalına müsahibəsində danışan Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Okamponun bu raportunun erməni lobbiçilərin pulu ilə hazırlamasını sübut edən faktların olduğunu söyləyib: "Luis Moreno Okamponun hesabatını ciddi qəbul etmək çətindir. O, barəsində mühüm ittihamlar irəli sürülən korrupsioner vəkildir".

H.Hacıyev keçmiş prokurorun hüquqşünas olmasına baxmayaraq "soyqırımı" anlayışından sui-istifadəyə yol verdiyini, bəzi beynəlxalq media resurslarının isə bu anlayışdan düzgün istifadə etmədiyinə də diqqəti yönəldib. Azərbaycan əleyhinə qərəzli hesabatın müəllifi, Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru, hüquqşünas Okamponun dəfələrlə qalmaqalların mərkəzində olduğunu və onun manipulyasiya və hüquq normalarını pozmaqda şübhəli bilindiyini də yada salıb. Onun sözlərinə görə, bu hesabat qərəzlidir, real vəziyyəti təhrif edir və özündə ciddi faktiki, hüquqi səhvləri əks etdirir.

"Forbes", "Washington Post", "CNN" və "ABC News" kimi nüfuzlu media orqanları Luis Moreno Okamponu dəfələrlə tənqid edib. 2008-ci ilin sentyabrında Böyük Britaniyanın "The Telegraph" qəzetində dərc olunan məqalədə Okamponun Cənubi Afrikaya səfəri zamanı yerli jurnalisti cinsi əlaqəyə məcbur etdiyi barədə danışılır: "Prokuror həmin jurnalistin avtomobilinin açarlarını götürür və yalnız cinsi əlaqəyə girməyə razılıq aldıqdan sonra açarı qaytarır", – məlumatda bildirilir. Okampoya qarşı ifşaedici ifadəni onun həmkarı, BCM Prokurorluğunun mətbuat katibi Cristan Palme verib. Məhz bu qalmaqaldan sonra Okampo onu işdən çıxarıb. "The Telegraph" bu barədə yazırdı: "Bu qanunsuzluq beynəlxalq məhkəmənin nüfuzuna və mövqeyinə ciddi zərbə vurdu".

Əslində, bu biabırçı əməlinə görə manyak prokuror Okampo cinayət məsuliyyətinə cəlb edilməli idi. Bizim üçün bu olayın özəlliyi ondan ibarətdir ki, Qərbin zəngin erməniləri böhtan və yalandan yoğrulmuş təbliğat kampaniyalarını məhz Okampo kimi pulgir, məsləksiz və əxlaqsız "ekspertlərlə" aparmağa üstünlük verirlər. Bu isə hayların öz xislətləri ilə tam üst-üstə düşdüyündən qətiyyən təəccüb doğurmamalıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Roma Statutu – Ermənistanın anti-Rusiya dirənişi

**Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna bir neçə gün əvvəl Ermənistanda səfərdə olarkən, Roma Statutunu ratifikasiya etdiyi üçün təbriklərini çatdırmağı da yaddan çıxarmayıb. Heç şübhəsiz, bu sənəd də İrəvanın anti-Rusiya fəaliyyətinin vacib elementlərindən biridir. Eyni zamanda, Ermənistan iqtidarının belə demək mümkünsə, başlıca illüziya mənbəyidir. Kolonna başda olmaqla Prezident Emmanuel Makron Fransası isə İrəvanın bütün illüziyalarını körüklədiyi kimi, Roma Statu ilə, necə deyərlər, boyundan yuxarı hoppanmasını da alqışlamalıdır və alqışlayır da. Çox güman, avantüristlərin xislətlərinə bələddir. Onları ruhlandırmağın və dağın başına qaldırmağın vacibliyini yaxşı anlayır. Əlbəttə, Ermənistanın dağdan aşağı yuvarlanmasına nə Kolonna mane olacaq, nə də Makron.**

***

Başlayaq ondan ki, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsi (Rome Statute of the International Criminal Court) 15 iyun–17 iyul 1998-ci il tarixləri arasında İtaliyanın paytaxtında keçirilmiş BMT Konfransının qəbul etdiyi Beynəlxalq Cinayət Məhkəməsinin qurulması haqqında statutdur. 2016-cı ilin mart ayından etibarən 139 dövlət sənədi imzalamışdı ki, onlardan 124-ü onu təsdiqləmişdi. Yəni Ermənistan sözügedən əsasnaməni imzaladıqdan sonra sənədi təsdiqləyən ölkələr sırasında sayca 125-cidir.




Rusiyaya gəldikdə isə, ölkə Roma Statutunu 2000-ci ilin sentyabrında imzalasa da, 2016-cıilədək təsdiqlənməmiş saxlamışdı. 2016-cı ildə Prezident Vladimir Putin sənədin qəbuledilməzliyinə dair sərəncam imzalamışdı. Bu qərar ölkənin milli maraqları baxımından izah edilmişdi. Bir çox siyasi müşahidəçilər isə məsələni Rusiyanın Ukraynanın Krım Muxtar Vilayətini ələ keçirməsi ilə əsaslandırmış və bildirmişdilər ki, Moskvanın sənədin ratifikasiyasından daşınması onun müddəalarının Kremlə qarşı tətbiqi ehtimalına görədir.

***

Yeri gəlmişkən, Ermənistan baş naziri Nikol Paşinyan da bir müddət əvvəl "Politoco Europe" nəşrinə müsahibəsində Roma Əsasnaməsinin ölkəsinin təhlükəsizlik maraqları baxımından uyğunluğunu vurğulamışdı. Nikol fikrini belə əsaslandırmışdı ki, İrəvanın hazırkı təhlükəsizlik alətləri tələbatlara cavab vermir və onların yeniləri ilə əvəzlənməsi şərtdir.

Əlbəttə, erməni baş nazirin bu fikirləri söyləyərkən, Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyün Ermənistana heç bir fayda gətirmədiyini söyləməsi diqqətçəkəndir. Digər tərəfdən, Paşinyan Roma Əsasnaməsinin vacibliyinə dair izahına Qarabağ məsələsini də əlavə etməyi yaddan çıxarmamış və bildirmişdi ki, bölgədəki Rusiya sülhməramlıları üzərlərinə düşən öhdəlikləri yerinə yetirməyi bacarmırlar. Əlbəttə, Nikol layihənin öz aləmindəki ən böyük hədəfini də açıqlayıb. Hədəf Azərbaycandır. Paşinyan sənədin köməyi ilə ölkəmizi məsuliyyətə cəlb edəcəyi düşüncəsindədir. Əlbəttə, onun belə fikir bildirməsi diqqəti əsas məsələdən yayındıra bilməz. Çünki indiki halda başlıca hədəfin Rusiya olduğu aşkardır. Çünki ortada Putin amili var. Buna aydınlıq gətirəcəyik.

***

Hələlik isə bildirək ki, Roma Statutunun təsir dairəsi dörd əsas beynəlxalq cinayətlə formalaşır. Bunlar soyqırımı, insanlığa qarşı cinayətlər, müharibə və təcavüz cinayətləridir. Bunlara heç bir məhdudiyyət tətbiq olunmur. Roma Statutuna əsasən BCM, dövlətlərin özlərinin həll etməkdə çətinlik çəkdikləri və müdaxilə etmək istəmədikləri vəziyyətlərdə, yalnız dörd əsas beynəlxalq cinayətin araşdırmasını apara bilər.

Nəhayət, onu da bildirək ki, BCM Rusiya Prezidenti V.Putinin həbsinə order verib. Qərar Ukraynadakı müharibə kontekstində çıxarılıb və Kreml lideri, faktiki olaraq, müharibə cinayəti törətməkdə ittiham olunub. Konkret desək, V.Putinin 2022-ci il fevralın 24-dən etibarən Ukraynanın ərazilərindən əhalinin (uşaqların) qanunsuz deportasiyasını və Rusiyaya köçürülməsi kimi hərbi cinayətə görə məsuliyyət daşıdığı bildirilir. İndi Ermənistan BCM-nin Roma Statutu üzrə bütün öhdəliklərini tanıyırsa, deməli, Putin bu ölkəyə ayaq basdığı anda həbs edilməlidir.

***

Qeyd edək ki, Ermənistanın Konstitusiya Məhkəməsi Roma Statutunda nəzərdə tutulmuş öhdəliklərin konstitusiya uyğunluğunu hələ 2022-ci ildə təsdiqləmişdi. Təsdiqləmiş və ratifikasiya üçün təqdim etmişdi. Lakin o vaxtdan hökumət bu məsələni ləngidirdi. Paşinyan, sanki əlverişli məqam gözləyirdi. İrəvan anti-Moskva ritorikasını gücləndirdikcə, proseslərin Roma Statutunun ratifikasiyasına doğru getdiyi aşkar görünürdü. Nəhayət, həmin an yetişdi.

Rusiyadan söz düşmüşkən isə Ermənistanın Rusiya meyilli sabiq prezidentləri Robert Koçaryanın "Ermənistan" və Serj Sarkisyanın "Şərəfim var" parlament fraksiyasının deputatları Putinin həbsi üçün meydan tanıyan sənədin əleyhinə çıxıblar. "Ermənistan" fraksiyasının katibi Artsvik Minasyan parlamentin iclası başlamamışdan əvvəl deyib ki, məsələnin gündəliyə salınması Ermənistan Konstitusiyasına ziddir. "Mənim şərəfim var" fraksiyasının rəhbəri Hayk Mamicanyan da eyni fikri ifadə edib. Müxaliflər onu da vurğulayıblar ki, BCM Ermənistana heç bir fayda verə bilməz. Çünki BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçü – Rusiya, Çin və ABŞ bu məhkəməyə qoşulmayıb.

Əlbəttə, Roma Əsasnaməsinin ratifikasiyasının Ermənistan – Rusiya münasibətlərinə heç bir mənfi təsir göstərməyəcəyini bildirənlər də var. Hərçənd, bu kateqoriyaya aid şəxslərin əsasən iqtidar təmsilçilərindən ibarət olduğunu söyləməliyik. Onlardan biri kimi, baş nazir N.Paşinyanın fikirlərini diqqətə çatdırdıq. Əlavə olaraq onu da bildirək ki, Ermənistanın hakim partiya təmsilçiləri qərarın qəbulunun vacibliyi ilə əlaqədar Rusiya tərəfini məlumatlandırdıqlarını, izahat işləri apardıqlarını vurğulayıblar. Ancaq məlumdur ki, söhbət Putinin Ermənistan ərazisinə ayaq basmasının yolverilməzliyindən gedirsə, heç bir izahat işi Moskvanı qane edə bilməz. Yəni Paşinyanın komandasının nəyi hansı formada əsaslandırmasından asılı olmayaraq, məsələyə prinsipial baxış var.

Həm də ona görə prinsipial baxış var ki, Rusiyanın Xarici İşlər Nazirliyi Ermənistanın BCM-nin Roma Statutunu ratifikasiyasını qəbuledilməz adlandırıb və bəyan edib ki, belə bir addım ikitərəfli münasibətlər üçün mənfi nəticələr doğuracaq. Addım isə atıldı. Yəni İrəvan növbəti dəfə nəinki Moskvanın mövqeyinə qarşı çıxdı, eyni zamanda, bilavasitə Rusiyaya qarşı, ölkənin ziyanına olan məsələyə, özü də başından böyük məsələyə qol qoydu. Bundan sonra nələr yaşanacaq, onu əlahəzrət zaman göstərəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Paris zamanı və məkanı səhv salıb

## Fransanın Cənubi Qafqazda "Afrika ssenarisi" baş tutmayacaq



(əvvəli 1-ci səhifədə)

Gözlənildiyi kimi, K.Kolonna İrəvanda ermənilərin maraqlarına cavab verən bir sıra bəyanatlar verdi. Bu bəyanatlar arasında Fransanın Ermənistanın ərazi bütövlüyü ilə bağlı məsələlərdə çox diqqətli olacağını, İrəvanla hərbi texnika və fransız silahlarının tədarükünə imkan verən müqavilə imzalanacağını deməsi diqqəti cəlb edir.

Fransa 30 ilə yaxın Ermənistan–Azərbaycan münaqişəsinin həlli məqsədilə yaradılmış və artıq tarixin arxivinə gömülmüş ATƏT-in Minsk qrupunun üzvü olub. Paris həmin dövrdə də məsələlərə ermənilərin maraqlarından yanaşırdı. Bunun belə olduğu da həmsədrlərindən birinin, prezidentlər formal da olsa, öz bitərəfliklərini qorumağa çalışırdılar. 2017-ci ildə Emmanuel Makron prezident seçildikdən sonra Fransanın simasındakı maska tamamilə düşdü. 2020-ci ilin Vətən müharibəsi günlərində Paris mövqeyini açıq şəkildə ortaya qoydu. Əməlləri ilə dünyaya bəyan etdi ki, Ermənistan–Azərbaycan qarşıdurmasında öz tərəfini seçib. Amma müdrik atalarımız da "hər işdə bir xeyir var", – deyiblər. Bu mənada Parisin öz mövqeyini açıq şəkildə bəyan etməsi dost-düşmənimizi tanımağımız baxımından yaxşı oldu.

Müharibədən sonrakı dövrdə Paris yenə də nala-mıxa vurmağa başladı, Minsk qrupunu "diriltməyə" cəhdlər etdi. Amma daha iş işdən keçmişdi. Hamıya, o cümlədən Yelisey sarayına da aydın idi ki, Paris etimadını itirib. Bu mənada Prezident İlham Əliyevin 2020-ci il dekabrın 12-də Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edərkən dediyi sözlər diqqəti cəlb edir: "Minsk qrupunun həmsədri olan ölkələrin prezidentlərinin bəyanatları olub. Məncə, bu, təxminən on il əvvəl baş verib. Biz həmin bəyanata dəstək verdik, çünki o, müəyyən ümidlər yaratdı. Onlar birgə bəyannamə ilə çıxış etdilər və bildirdilər ki, status-kvo qəbuledilməzdir. Biz dedik: "Bəli. Yaxşı bəyanatdır. Gəlin onun üzərində işləyək". İndi isə bunu Ermənistana deyin. Mən sizə və sələflərinizə nə qədər deyirdim ki, gedin, deyin ermənilərə çıxsınlar. Onlara təzyiq göstərin. Mən ölkələrinizin yüksək rütbəli rəsmilərinə bunu dəfələrlə deyirdim: "Gedin, deyin onlara, təzyiq göstərin, hələ ki, gec deyil!" Lakin nə baş verdi? Müəyyən vaxt keçdi, ölkələrinizin liderləri bu sözləri dəyişməyə başladılar. Onlar artıq status-kvonun qəbuledilməzliyi barədə danışmadılar. Onlar dedilər ki, status-kvo dayanıqlı deyil. Bu, o deməkdir ki, status-kvo onlar üçün qəbul ediləndir. Bunu hansı başqa formada izah edə bilərik. Onlar Akvildə, Muskokada söylədilər ki, status-kvo qəbuledilməzdir. Sonra da onlar dedilər ki, status-kvo dayanıqlı deyil. Bu, o deməkdir ki, status-kvo artıq qəbul edilir. Bir çox siyasətçilər hesab edirdilər ki, sülhün qorunması üçün yeganə yol status-kvonun qalmasından keçir. Biz isə bunu dəyişdik. Biz göstərdik ki, status-kvo güc yolu ilə, şücaət, müdriklik, siyasət, səylərin səfərbər olunması, Azərbaycan xalqının həmrəyliyi, Azərbaycan hökumətinin iradəsi, Azərbaycan xalqının əzmkarlığı, Azərbaycan əsgərinin müzəffərliyi sayəsində dəyişdirilə bilər. Haqlı olduğumuzu göstərdik".

Dövlət başçımızın görüşün sonunda söylədiyi fikirlər isə yəqin ki, heç vaxt yaddaşlardan silinməyəcək. Həmin fikirlər Fransanın da təmsil olunduğu bu səmərəsiz quruma Azərbaycanın daha ehtiyacının olmadığının isbatı idi: "Bununla, mən sözlərimi yekunlaşdırıram ki, sizi dinləyim, çünki buraya gəlmək sizin ideyanız idi. Bunu bir daha kameralar qarşısında deyə bilərəm. Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var. Əgər siz bunu kamera qarşısında söyləmək istəyirsinizsə, buyurun. Əgər istəmirsinizsə, mən onlara deyim getsinlər. Necə istəsəniz. Buyurun, sizi dinləyirəm".

Beləliklə, Fransanın yürütdüyü siyasət üzündən Azərbaycanla münasibətlər indiki həddə gəlib çıxdı. Vəziyyətin bu şəkil almasında təkcə Vətən müharibəsi dövründə məsələyə yox, ondan sonra da Parisin Ermənistan–Azərbaycan münasibətlərində oynadığı destruktiv yanaşmanın böyük rolu oldu. Ümumiyyətlə, Fransa təkcə Cənubi Qafqazda deyil, dünyanın bir sıra digər bölgələrində də analoji siyasət yürütməsi ilə tanınır. Bu siyasət isə uğursuzluğa düçar olub. Elə dünən – oktyabrın 5-də "Frans-Press" agentliyi Fransa Silahlı Qüvvələrinin Baş Qərargahına istinadən Nigerdə yerləşdirilən 1500 nəfərə yaxın fransız hərbçisinin bir həftə ərzində ölkəni tərk edəcəyi barədə məlumat yayıb. Qeyd edək ki, fransız qoşununun çıxarılmasını hərbi çevriliş nəticəsində hakimiyyətə gələn Nigerin yeni hökuməti tələb edirdi. Yeni hökumətin tələbi ilə Fransa səfiri Silvena İtte də ölkədən çıxarılıb.

Fransanın müstəmləkəçilik siyasəti tarixən sülh və əmin-amanlığın təmin olunması yox, müharibə və münaqişələr üzərində qurulub. Bu gün Afrika qitəsində də Parisin təhriki və birbaşa iştirakı ilə davam edən münaqişələr, hərbi çevrilişlər və digər xoşagəlməz hallar bunun göstəricisidir. "Beşinci Respublika" bu gün bölgəmizdə də, necə deyərlər, Afrikadakı siyasətini yürütməyə çalışır, burada sülhün bərqərar olması Parisin maraqlarına cavab vermir. Görünən odur ki, Fransa neoimperialist təfəkkürdən çıxış edərək "parçala, hökm sür!" prinsipi ilə fəaliyyət göstərməyə üstünlük verir. Parisdən ucalan "Ermənistanın sərhədləri bizim üçün müqəddəsdir" fikri isə Fransanın siyasətindəki xristian təəssübkeşliyinin daha bir mənzərəsidir.

***

Heç kimə sirr deyil ki, Ermənistan dövlət müstəqilliyini bərpa etdiyi gündən müstəqil siyasət yürütməyib və xarici himayədarlar üçün dayaq, istinad məntəqəsi (forpost) olmağa üstünlük verib. Ermənistanı 20 il idarə edən Qarabağ klanı bütün strateji obyektləri, nəqliyyat-kommunikasiya qovşaqlarını forpostu olduğu dövlətin ixtiyarına vermişdi. İndi isə İrəvan, deyəsən, Fransanı özünə əsas himayədar seçib və onun forpostuna çevrilib. Bu gün Fransanın Ermənistanda yeni hərbi missiya yaratması, İrəvandakı səfirlikdə silah satışını kurasiya etmək üçün məxsusi hərbi attaşenin təyin olunması Parisin açıq şəkildə Ermənistanı yeni mübarizəyə hazırlamaq istəyindən xəbər verir. Ancaq Ermənistan uğradığı hərbi-siyasi məğlubiyyətdən nəticə çıxarmalıdır. Yeni himayədar tapmaq və bu dəfə Fransanın forpostu olaraq Azərbaycana, necə deyərlər, diş qıcamaq Ermənistana baha başa gələ bilər. İrəvan unutmamalıdır ki, yenidən odla oynayarsa, onu Azərbaycanın əlindən heç bir qüvvə ala bilməz.

***Səxavət HƏMİD***
***XQ***

### EKSPERT RƏYİ



**İlyas HÜSEYNOV, politoloq**

– Fransa Cənubi Qafqazda proseslərə ciddi şəkildə müdaxilə edir və burada möhkəmlənmək istəyir. Möhkəmlənmək prosesini də Ermənistanın maraqları hesabına həyata keçirmək niyyətindədir. Ermənistan da çox rahatlıqla Fransanın geosiyasi oyunlarına alət olur. İrəvanı silahlandırmağa dair səslənən fikirlər, atılan addımlar Hayastanı xeyli ruhlandırıb.

Bu gün Ermənistanın siyasi rəhbərliyi revanşizm fikirlərindən də əl çəkmir. Lakin heç bir dövlət Ermənistana hərbi və hərbi-texniki yardım edərək geosiyasi konfiqurasiyanı dəyişməyə cəhd etməməlidir. Fransa bununla Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması prosesinə də destruktiv təsir göstərir. Paris separatizm dalğasının gücləndirilməsi üçün çalışır və revanşist ideologiyaya təkan verir. Bütün bunlar aradan qaldırılmalı və nəhayət, Ermənistan da müstəqil dövlət olmalıdır. Çünki son vaxtlar güclənən fikir bundan ibarətdir ki, Ermənistan regionda nəqliyyat-kommunikasiya xətlərinin açılması prosesində yer almaya bilər. Bu, çox ciddi və tutarlı tezisdir. Belə görünür ki, Ermənistan geosiyasi dalanda qalmaqda davam edəcək. İrəvan əlverişli şərtlər imkanını itirmək üzrədir. Əlverişli təkliflərdən boyun qaçırır, nəticə isə çox acınacaqlı olur.

Bu gün Rusiyadan üz döndərməklə Fransa hesabına güclənmək məqsədi güdən rəsmi İrəvan həm də öz dövlətçiliyini sual altında qoyur. Fransa isə Ermənistanın şirin vədlərə inanmasından sui-istifadə edir. Belə görünür ki, Ermənistan da forpost, əlalti dövlət olmaqdan məmnundur. Halbuki, onun müstəqil dövlət olaraq, qonşularla yaxşı münasibət yaratmaq, ərazi iddialarından geri çəkilmək, sülh müqaviləsi imzalamaq şansı var. Hələ ki, bu limit bitməyib. Lakin mənə elə gəlir ki, bu, Ermənistan üçün son şansdır.

# Azərbaycan–İran: əlaqələrin hazırkı durumu və atılacaq addımlar

**Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfov oktyabrın 4-də İran İslam Respublikasına səfəri çərçivəsində İran Prezidenti Seyid İbrahim Rəisi, Milli Təhlükəsizlik üzrə Ali Şuranın katibi Əli Əkbər Əhmədian və xarici işlər naziri Hüseyn Əmir-Abdullahian ilə görüşlər keçirib.**

Görüşlərdə Azərbaycan-İran münasibətlərinin hazırkı durumu, həyata keçirilən təmaslar və ikitərəfli əlaqələrin danışıqlar nəticəsində irəli aparılması və yeni mərhələyə keçməsi üçün zəruri olan birgə qarşılıqlı addımların atılması, müvafiq tədbirlərin keçirilməsi müzakirə olunub.

Həmçinin cari il yanvarın 27-də Azərbaycanın Tehrandakı səfirliyinə hücum edən terrorçunun məhkəmə tərəfindən ən ağır cəzaya məhkum olunması kontekstində ölkəmizin səfirliyinin fəaliyyətinin bərpası məsələsi müzakirə edilib.

Görüşlərdə, eyni zamanda, ikitərəfli münasibətlərin inkişaf perspektivlərinə xidmət edən vacib nəqliyyat-kommunikasiya, iqtisadi, eləcə də enerji layihələri ətrafında fikir mübadiləsi aparılıb. Bu layihələrin həyata keçirilməsi ilə bağlı hər iki ölkənin müvafiq qurumlarının sıx əməkdaşlığı təqdir olunub. Bu baxımdan ölkələrimizi birləşdirən Şimal-Cənub Nəqliyyat Dəhlizi, Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan arasında İran ərazisi vasitəsilə yeni kommunikasiya bağlantılarının yaradılması üçün layihələrin həyata keçirilməsi, energetika layihələri, xüsusilə "Xudafərin" və "Qız Qalası" su bəndlərinin istifadəyə verilməsini təmin edən tədbirlərin icrası, habelə Araz çayı üzərində digər enerji layihələri hər iki tərəfdən dəstəklənib.

Müzakirələrdə regional məsələlərə xüsusi diqqət yetirilib. Azərbaycan rəsmisi Ermənistanın və Qarabağ bölgəsindəki separatçı qüvvələrin siyasi və hərbi təxribatlarına son qoymaq, Azərbaycanın suveren ərazisi olan Qarabağ bölgəsini qanunsuz silahlı birləşmələrdən təmizləmək məqsədi daşıyan lokal xarakterli antiterror tədbirləri barədə ətraflı məlumat verib. Bununla yanaşı, İran tərəfi erməni sakinlərin Qarabağ ərazisində sülh və əmin-amanlıq içində yaşamasını təmin edən Azərbaycan Konstitusiyası və qanunları əsasında reinteqrasiya prosesi barədə mərkəzi icra hakimiyyəti orqanlarının həyata keçirdiyi genişmiqyaslı tədbirlər barədə məlumatlandırılıb.

Çoxşaxəli Azərbaycan-İran münasibətləri, o cümlədən hərbi və hərbi-texniki əməkdaşlığın öz növbəsində regionda əmin-amanlıq, etimad və inkişaf məqsədlərinə xidmət etdiyi qeyd olunub.

Görüşlərdə, İran tərəfindən bu ölkənin Azərbaycan Respublikası ilə bütün sahələrdə əlaqələri genişləndirmək və inkişaf etdirmək iradəsində olduğu bildirilib.

***XQ***

# Senator Kardin separatizmi himayə edir

**ABŞ Senatının Xarici əlaqələr komitəsinin sədri, senator Ben Kardin çərşənbə günü "Reuters" agentliyinin müxbirinə müsahibəsində xalqımızın və ölkəmizin ünvanına qərəzli və qalmaqallı fikirlər səsləndirib. Yenicə komitə sədri seçilən senator Qarabağdakı son proseslərdən danışarkən deyib ki, Birləşmiş Ştatlar Azərbaycana təhlükəsizlik yardımını dayandırmalıdır.**

Demokratlar partiyasını təmsil edən siyasətçi bu məsələ ilə bağlı bəyanatında da sonra bildirib ki, guya dünya Azərbaycanın əli ilə koordinasiya edilmiş, məqsədyönlü etnik təmizləmə ilə üzləşməkdə davam edərkən, Birləşmiş Ştatlar həm məcburi köçkün ermənilər dəstəkləməyə, həm də Azərbaycanı "məsuliyyətə cəlb etməyə" üstünlük verməlidir.



ABŞ senatorunun bəyanatı heç bir beynəlxalq hüquq normalarına sığmır. Ona görə ki, Azərbaycan dövləti bu il sentyabrın 19-da Qarabağda öz suveren hüquqlarını bərpa etmək üçün lokal xarakterli antiterror tədbirləri keçirib. Bu zaman dinc əhaliyə heç bir fiziki təzyiq göstərilməyib, onlara maddi və mənəvi zərər vurulmayıb.

Üstəlik, sərhədlərimizi tərk edən hər bir erməni ailəsinə Azərbaycanda qalacaqları halda normal yaşamaları üçün hər cür şəraitin yaradılacağı vəd edilib. Bütün bunlar ölkəmizin Dövlət Sərhəd Xidməti əməkdaşları tərəfindən lentə alınıb və internetdə "Youtube" kanalı vasitəsilə fasiləsiz olaraq yayımlanıb.

Bütün dünya Azərbaycan dövlətinin Qarabağda ermənilərlə olduqca sivil və mədəni şəkildə davrandığının fərqindədir. Lakin amerikalı senatorun bütün bunlardan guya xəbəri yoxdur. Siyasətçi onu da bilməmiş deyil ki, 1988-ci ilin qarlı-şazaqlı qış günlərində 200 mindən çox soydaşımız Ermənistandakı ata-baba yurdlarından zorla qovulublar. Onların çoxu bu zaman ağır zorakılıq və məhrumiyyətlərə məruz qalıb.

Senator Ben Kardin, nədənsə əsl həqiqəti görmək istəmir. "ABŞ Azərbaycanın əlavə ərazi iddialarının olmaması üçün təxribatçı ritorikanı pisləmək də daxil olmaqla, addımlar atmalıdır", –deyən Ben Kardinin Azərbaycana qarşı yanlış mövqeyi sadəcə başadüşülən deyil.

Senatorun sözündən belə çıxır ki, guya Azərbaycan dövləti yeni ərazi iddiasındadır. Bu, tamamilə əsassız fikirdir. Şübhəsiz ki, bu saxta və əsassız fikirləri dövriyyəyə erməni lobbisi buraxıb və amerikalı senator faktiki olaraq onların dili ilə danışır.

Yuxarıda qeyd etdiyimiz kimi, yenicə ABŞ Senatında Xarici əlaqələr komitəsinin sədri seçilən Ben Kardin bu vəzifədə ermənipərəst senator Robert Menendezi əvəz edib. Xatırladaq ki, bu, həmin Menendezdir ki, qızıl külçələr şəklində rüşvət aldığı iddia edilir. Bu günlərdə onun erməni əsilli həyat yoldaşının piyadanı vurduğu və polisin bu işi ört-basdır etdiyi də bəlli olub.

Hazırda ABŞ Federal Təhqiqatlar Bürosunun istintaqı altında olan senator Menendez son günlərə qədər Azərbaycana qarşı iftiralarından əl çəkmirdi. O, ABŞ Senatında bu il sentyabrın 13-də təşkil etdiyi dinləmələrdə növbəti dəfə kəskin anti-Azərbaycan bəyanat vermiş, ölkəmizin ünvanına əsassız ittihamlar səsləndirmişdi. Lakin ilahi ədalət hər şeyi yerbəyer etdi, kimin kim olduğu bir daha bəlli oldu.

Arzu edərdik ki, senator Ben Kardin rəhbərlik etdiyi komitədə öz sələfindən fərqli olaraq Qarabağda gedən proseslərə daha ədalətli və qərəzsiz yanaşsın, erməni lobbisinin təsiri altına düşməsin. Çünki ABŞ kimi böyük bir dövlətin Cənubi Qafqazda gedən proseslərə mövqe sərgiləyərkən, ayrı-seçkiliyə yol verməyə haqqı yoxdur.

Azərbaycanın heç bir xalqın və dövlətin torpağında gözü yoxdur. Ölkəmiz heç vaxt etnik təmizləmə aparmayıb və niyyəti də yoxdur. Etnik təmizləməni hər zaman Ermənistan hökuməti aparıb. Bu monoetnik dövlətin ərazisində bir nəfər də olsun azərbaycanlı yoxdur.

Ben Kardin müsahibədə sonda onu da bildirib ki, Türkiyə və Azərbaycan Zəngəzur dəhlizinin açılmasına çalışır. Məgər bu, pisdir?! Senator Zəngəzur dəhlizinin fəaliyyətə başlamasını alqışlamaq əvəzinə, niyə ona qarşı çıxır? Axı, regionda yeni kommmunikasiyaların açılması bölgəyə sülh və sabitlik gətirə bilər. Bunu hər kəs başa düşür. Deməli, okeanın o tayında Cənubi Qafqazda sabitlik və rifaha etiraz edən qüvvələr mövcuddur. Təəssüf ki, belədir!

Ermənistandan fərqli olaraq Azərbaycan dövləti ölkə Konstitusiyasına və qanunlarımıza hörmət edən millətindən və dinindən asılı olmayaraq hər bir vətəndaşın, eləcə də ermənilərin təməl hüquqlarını qorumağa hazırdır. Bakı bölgədə sülhün və əmin-amanlığın bərqərar olması üçün çalışır. Bunu görməmək, üstəlik, ölkəmizə böhtanlar yağdırmaq heç bir siyasi etikaya və mənəviyyata sığmır.

***M.HACIXANLI***
***XQ***

# Bakı Təşəbbüs Qrupunun üzvü Fransanı vicdanlı dialoqa çağırdı



**"Fransa 1966–1974-cü illərdə 200-ə yaxın nüvə sınağının vurduğu zərərin maddi, ekoloji və sosial baxımdan kompensasiyası prosesinə hələ də başlamayıb". Bunu Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nəzdində fəaliyyət göstərən Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupu İdarə Heyətinin üzvü Ella Tokoraqi BMT-də çıxışında deyib.**

O qeyd edib ki, Fransanın bu mövqeyi onun müstəmləkəçilik siyasətini davam etdirməsini göstərir: "Üstəlik, bu, dekolonizasiyaya dair qərar qəbul edilməsinə baxmayaraq, Fransa hakimiyyətinin buna hörmət etməməsinin sübutudur".

"Fransa ədaləti bərqərar edəcəyi və təzminat prosesinə başlayacağı təqdirdə bu ölkəni bağışlayacağıq", - E.Tokoraqi əlavə edib.

"Biz Fransanı ədalətli mövqe tutmaq və ölkəmizin gələcəyi ilə bağlı vicdanlı dialoqda məsuliyyəti öz üzərinə götürməklə bağlı çağırışımızı bir daha bildirmək istəyirik", - Bakı Təşəbbüs Qrupu İdarə Heyətinin üzvü vurğulayıb.

O xatırladıb ki, Fransa prezidenti Emmanuel Makron seçki kampaniyası zamanı müstəmləkəçilik siyasətini insanlığa qarşı cinayət adlandırıb: "Əlbəttə ki, bu, belədir".

***XQ***



# “Belə çıxır ki, Azərbaycana mərkəzi hökumət lazım deyil?”

**“Heydər Əliyev xatirələr işığında” layihəmizdə ilk qonağımız olmuş tanınmış ictimai-siyasi xadim Həsən Həsənovla geniş maraq doğuran söhbətimizin vəd etdiyimiz davamı və daha maraqlı hadisələrin yer aldığı 9-cu hissəni təqdim edirik.**

**IX SÖHBƏT**

**– Müstəqillik illərində hamıya bəlli oldu ki, Novruz bayramı ulu öndərin sevdiyi ən əziz bayramlardan biridir. Heydər Əliyev sovet Azərbaycanında Novruzun qeyd edilməsi üçün cəhdlər göstərirdimi?**

– Novruz bayramı xalqımızın əziz bayramı olduğu üçün tarix boyu elimizdə təntənə ilə qeyd edilib. Amma Sovetlər birliyi dövründə xalqımızı ənənələrindən təcrid etmək istəyənlər bu bayrama müxtəlif dini don geydirməyə başlamışdılar. Ona görə Novruzun dövlət bayramı elan edilməsinə, onun respublika səviyyəsində geniş qeyd olunmasına qısqanclıqla yanaşılır, onu müəyyən qədər arxa plana keçirir və xalqımızın yaddaşından silməyə çalışırdılar. Buna baxmayaraq, 60-cı illərdə Azərbaycanda ilk dəfə Novruz bayramı rəsmilər tərəfindən qeyd edildi. Amma tezliklə bunun qarşısı kəskin şəkildə alındı.

Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayanda milli-mənəvi dəyərlərimizi cəsarətlə qorumağa çalışdığı kimi, Novruz bayramını da əziz el bayramı kimi yaşatmağa səy göstərirdi.

Mən Gəncə Şəhər Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışırdım. Bir gün işdən evə qayıdanda hiss etdim ki, şəhərdən tüstü iyi gəlir. Sürücüm, işçilərimiz yanımda idilər, dedim bəlkə nəsə yanır? Dedilər: “Həsən müəllim, heç nə yanmır”. Dedim: “Bəs bu tüstü iyi hardan gəlir? ” Gülümsəyərək, dedilər: “Bəs sizin xəbəriniz yoxdur? Bu gün Novruz bayramıdır. Ona görə camaat həyət-bacada tonqal yandırıb”. Bütün Gəncə tonqal yandırmışdı. Mən o zaman Gəncədə tək yaşayırdım, ailəm Bakıda idi. Yəqin bu səbəbdən bayramın gəlişini unutmuşdum. Səhəri gün işə gələndə, gördüm iş otağım Gəncə paxlavası ilə doludur. Sual verdim, bu nədi? Katibə dedi ki, bu gəncəlilərin ənənəsidir, işçilərimiz gətiriblər və bununla sizi Novruz bayramı münasibətilə təbrik edirlər. Bir-iki saat sonra cari məsələlərlə bağlı iclas keçirərkən, iş yoldaşlarımı Novruz bayramı münasibəti ilə təbrik etdim. O zaman cəmi iki ay idi ki, Gəncədə işləyirdim. Bu təbrikim və Novruz bayramına göstərdiyim hörmət və diqqət, Gəncədə mənə qarşı formalaşan münasibətin təməl daşlarından biri oldu.

Artıq Bakıda işləməyə başlayanda Heydər Əliyevlə əlaqələrim gündəlik xarakter daşıyırdı. Bir gün mənə dedi: “Həsən, Novruz bayramı ətrafında çoxlu söz-söhbətlər var. Necə edə bilərik ki, hər hansı formadasa bizim bu bayrama münasibətimiz əhaliyə aydın olsun?” Dedim: “Çox yaxşı olardı Heydər Əliyeviç”. Sonra soruşdu: “Sən bu bayram haqqında nə bilirsən, bu həqiqətən İslam bayramıdır?” Dedim: “Heydər Əliyeviç, bu İslam bayramı deyil”. Dedi: “Hardan bilirsən İslam bayramı deyil?” Dedim: “Alimləri deyə bilmərəm, amma öz fikrimi deyirəm: Baxın, Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi, Torpaq çərşənbəsi. İslamda belə bayramlar yoxdur. Bu İslamaqədərki bir adətdir. Amma onu bilirəm ki, İslam özünə qədər xalqlara məxsus olan dəyərli tədbirləri özününküləşdirir”. O zaman bu mövzuda heç bir elmi məlumatım yox idi. Yalnız öz məntiqimə əsaslanıb bunları deyirdim. Hətta onu da soruşdu: “Bəs Gəncədə Novruz bayramını necə qeyd edirlər?” Dedim: “Xalq el bayramı kimi Novruzu hərə öz evində, həyətində, məhəllədə qeyd edir”. Həqiqətən də vəziyyət belə idi. Təkcə Gəncədə deyil, o zaman bütün Azərbaycanda xalq bunu əziz bayram kimi qeyd edirdi.

Dedi: “Sən bununla maraqlan, gör neyləmək olar”. O zaman bir çoxları ilə bu barədə danışdım. Mənə dedilər ki, xalq “rəsmiyə çatanda” Novruz deyil, çox vaxt “Bahar bayramı” deyir. Beləcə yeganə təklif bu oldu ki, xalq həmişəki kimi, yenə də “Novruz bayramı” deyirsə desin, rəsmiyyətə gələndə buna “Bahar bayramı” desinlər. Bütün bunları Heydər Əliyevə söyləyəndən sonra dedi: “Onda sən özün rayonlara zəng vur, de ki, fikrimiz belədir”. Soruşdum: “Bütün rayonlara deyim?” “Hə, – dedi, – hamısına çatdır”. O vaxt deyəsən 55 rayon vardı. Çalışdım hamısına zəng edəm və mövqeyimizi rayon rəhbərləri vasitəsi ilə əhaliyə çatdıram. Beləcə, demək olar ki, sovet Azərbaycanında Novruz bayramı xüsusi qərarla dövlət bayramı kimi deyil, sadəcə xalq, ailə bayramı kimi leqallaşdı və respublika rəhbərliyinin bununla bağlı mövqeyi xalqa çatdırıldı. Təbii ki, əsas təşəbbüskar Heydər Əliyev idi. Heydər Əliyevin sözlərindən sonra biz daha cəsarətlə Novruz bayramını yerlərdə böyük təntənə ilə qeyd etməyə imkan yaradırdıq.

**– Həsən müəllim, Azərbaycan sovet dönəmində müttəfiq respublikalarla müəyyən münasibətlər yaratmağa çalışırdı. Heydər Əliyev belə ikitərəfli əlaqələrin qurulmasında əsasən hansı respublikalara üstünlük verirdi və bunun səbəbləri nə idi?**

– Əlbəttə, Azərbaycanı müttəfiq respublikalara daha geniş miqyasda tanıtmaq Heydər Əliyev siyasətinin böyük hissəsi idi. Mən hələ Gəncədə işləyəndə Heydər Əliyevin rəsmi qərarı ilə çox möhtəşəm tədbir keçirildi. Bunlardan biri “Azərbaycanda Ukrayna günləri”, o birisi isə “Azərbaycanda Özbəkistan günləri” idi. Bu tədbirlərin hər ikisinin bir hissəsi Gəncədə keçirildi. Bunlar çox geniş miqyaslı tədbirlər idi və demək olar ki, o günlər Azərbaycan bu respublikalarla vahid bir orqanizm olduğumuzu hiss edirdi. Bu tədbirlər bütün Azərbaycanı əhatə etdi və həmin günlərdə hamı bu tədbirlərlə yaşayırdı. Bir müddət sonra həmin respublikalarda eyni təntənə ilə “Azərbaycan günləri” keçirildi. Bunlardan əvvəl isə Bakıda “Rusiya mədəniyyət günləri” keçirilmişdi. Həmin tədbirdən xatirə isə Tofiq Quliyevin Rusiyanın çox məşhur bəstəkarı Solovyev-Sedoyla birgə Bakı haqqında yazdıqları mahnı oldu.

Heydər Əliyev məni Bakıya Mərkəzi Komitəyə gətirəndə bu problem ətrafında geniş söhbətimiz oldu. Mənə dedi: “Həsən, Özbəkistanın birinci katibi Rəşidov mənə zəng etmişdi, Daşkəndin yaxınlığında bir şəhər var, ora Nəriman Nərimanovun adını verib”. Bir müddət sonra Həştərxan vilayətinin başçısı da Nəriman Nərimanovun adının əbədiləşdirilməsi haqda Heydər Əliyeva məlumat verdi. Azərbaycan mədəniyyətini və ədəbiyyatını Gürcüstanda yayan bir sıra alimlərə Azərbaycanın fəxri adları verildi.

Bir müddət sonra Heydər Əliyev dedi: “Bax, gör biz daha nə edə bilərik ki, başqa respublikalarla əlaqələrimiz güclənsin”. Mən də geniş tədbirlər planının əksini tapdığı Azərbaycan Respublikası Mərkəzi Komitəsinin qərarını hazırladım: “Azərbaycan Respublikasının müttəfiq respublikalarla mədəni və ictimai əlaqələri ilə bağlı tədbirlər haqqında”. Heydər Əliyev bunu çox bəyəndi və geniş müzakirəyə çıxartdı. Hətta Azərbaycan haqqında yazan, tədqiqat aparan başqa respublikaların alim və mədəniyyət adamlarını təltif etmək üçün medal da təsis etdik.

Heydər Əliyev mənə Moskvaya gedib bu qərarımız haqda mərkəzi xəbərdar etmək lazım olduğunu bildirdi. Moskvaya getdim. Dedilər ki, bunu oxuyub çox qəzəbləndilər ki, siz bunu özbaşına necə qəbul etmisiniz? İradlarını gizlətmədən mənə açıq şəkildə dedilər: “Belə çıxır ki, Azərbaycana mərkəzi hökumət lazım deyil? Bizsiz, birbaşa bütün respublikalarla əlaqələr qurub işləmək istəyirsiniz?” Demək olar ki, Azərbaycanın Moskvanın razılığı olmadan başqa respublikalarla özbaşına əlaqə qurmağa icazəsi yox idi. Mərkəzdə respublikaların öz aralarında birbaşa əlaqələrinə demək olar ki, qadağa var idi. Respublikaların bir-birləri ilə birbaşa əlaqələri olmamalı idi. Nə sözümüz, işimiz var Moskvaya deməliyik, onlar bizə deyə bilərlər ki, nəyi etmək olar, nəyi yox. Biz isə dediyim qərarı qəbul etməklə Moskvanın bir mərkəz olaraq rolundan imtina edirdik. Amma, Moskva artıq qəbul olunmuş qərarın icrasına qadağa qoysa da, qərar tarixdə qalır.

Heydər Əliyev Moskvaya gedəndən sonra mənim ideoloji katib vəzifəsindən uzaqlaşdırılmağımın səbəblərindən biri də, Azərbaycanın başqa müttəfiq respublikaları ilə birbaşa fəaliyyətini nəzərdə tutan bu sənəd oldu. Bu 1981-ci il idi, müstəqilliyimizə hələ 10 il qalmışdı.

Xarici ölkələrlə əlaqələrə gəldikdə isə bütün bunlar da Moskvanın idarəçiliyi ilə olurdu. Şəhərlərimiz başqa ölkələrin şəhərləri ilə qardaşlaşırdı. Xarici ölkələrdə SSRİ günləri keçirəndə hər tədbiri bir respublikaya tapşırırdılar. Məsələn, “SSRİ-nin Avstriyada mədəniyyət günləri Azərbaycan nümunəsində”, “SSRİ-nin Belçika və Lüksemburqda mədəniyyət günləri Azərbaycan nümunəsində” və sair bu kimi tədbirlərdə Azərbaycanın nümayəndə heyətinə mən başçılıq etmişəm. Yəni, burda ad SSRİ olsa da, bu sahəni Azərbaycan təmsil edirdi.

Bunlarla yanaşı Heydər Əliyev xariclə də müstəqil əlaqə yaratmağa cəhd edirdi. Deyəsən artıq sizə söyləmişəm, amma mövzuya uyğun gəlir deyə, bir də xatırladım ki, Heydər Əliyev Moskva ilə razılaşdırmadan Parisdə yaşayan Əlimərdan bəy Topçubaşovun ailəsi ilə əlaqə yaratmağa cəhd etdi. Azərbaycan Yazıçılar İttifaqında xüsusi “Cənubi Azərbaycan ədəbiyyatı bölməsi” yaradıldı və əslən cənubdan olan Balaş Azəroğlu Azərbaycan Yazıçılar İttifaqının Cənubi Azərbaycan üzrə katibi seçildi. Nəbi Xəzri telefonla Şəhriyarla əlaqə yaratdı və bu haqda mətbuatda geniş məlumat verildi.

**– Bəs müstəqillik illərində Heydər Əliyev hansı regionlarla beynəlxalq əlaqələrə daha çox üstünlük verirdi, Asiya, yoxsa Avropa?**

– Mən BMT-də çalışanda orada üzv ölkələr arasında qruplar var idi. İki Avropa qrupu vardı – Qərbi və Şərqi Avropa qrupları. Asiya, Afrika, Latın Amerikası və sair qruplar da fəaliyyət göstərirdilər. Türkiyə iki qrupun üzvüdür, həm Qərbi Avropa qrupunun, həm də Asiya qrupunun. Mən elə bilirdim bu asan məsələdir. Dedim biz də belə olaq. Dedilər, Türkiyə çox-çox əvvəl bu iki qrupa daxil olan ölkələrdəndir. İndi bu mümkün deyil, siz ancaq bir qrupa daxil ola bilərsiniz. Mən Bakıya yazdım, ancaq həmişə olduğu kimi cavab almadım və özüm qərar verməli oldum ki, Şərqi Avropa qrupuna daxil olaq. Sonra Macarıstanın səfiri bildirdi ki, Rusiya sizin bu qrupa daxil olmağınıza etiraz edir. Dedim səbəbi nədir. Dedi, “deyirlər müsəlman ölkəsidir, Asiya qrupuna daxil olsunlar. Amma mən onlara əhəmiyyət vermədim və sizin Şərqi Avropa qrupuna daxil olmağınızı təkid etdim”. Həqiqətən, sonra şahidi oldum ki, Macarıstan səfiri bizə çox məsələlərdə dəstək olur.

Maraqlıdır ki, Ermənistan daimi nümayəndəliyi bizdən 5-6 ay əvvəl yaransa da, qruplara daxil olmaq üçün müraciət etməmişdi. Səbəb bəlli idi. Onlar gözləyirdilər ki, biz Asiya qrupuna daxil olaq, sonra onlar Şərqi Avropa qrupuna daxil olsunlar. Şərqi Avropa qrupuna keçmiş SSRİ-dən Ukrayna, Belarus, Moldova, Baltikyanı ölkələr və Rusiyanın özü daxil idi. Biz müraciət edəndən dərhal sonra Ermənistan da müraciət etdi və bu qrupa daxil oldu.

Qayıdaq sualınıza. Bizim Türkiyə və İranla geniş əlaqə yaratmağımız çox çətin idi. Moskva buna son dərəcə qısqanclıqla yanaşırdı və onlar belə təkliflər eşidəndə qıcıqlanırdılar. Qorbaçovun hakimiyyəti zamanı Moskvadan xəbər gəldi ki, Türkiyə Bakıda mehmanxana tikmək istəyir. Biz, sözsüz ki, razılıq verdik. Lakin məsələ elə təklif olaraq qaldı, real addım atılmadı.

Alimlərimiz və musiqi xadimlərimiz müxtəlif ölkələrlə yaradıcı əlaqələr qurmuşdular. Yaddaşıma əsaslanaraq deyə bilərəm ki, Rəşid Behbutov dünyanın bir çox ölkələrinə dəvət olunurdu. Niyazi bir müddət Türkiyədə işlədi, Rüstəm Əliyev tədqiqat üçün İranda oldu. Lətif Kərimovu bir çox Avropa xalça kolleksionerləri dəvət edirdilər. Fikrət Əmirovun əsərləri ABŞ-da, Xəyyam Mirzəzadənin əsərləri İtaliyada ifa olunanda onları fərdi dəvət etmişdilər. Mən kiçik bir hissəni söylədim, amma belə fərdi əlaqələr çox geniş idi.

Bizim tərəfimizdən xüsusi seçim yox idi. Azərbaycan sadəcə hər hansı xarici ölkə ilə əlaqə yaratmağa maraqlı idi. Azərbaycanda ən möhtəşəm tədbir İordaniya dövləti tərəfindən keçirildi. Nəticə olaraq İordaniyada Heydər Əliyevin Azərbaycan haqqında kitabı nəşr olundu.

***Söhbəti qələmə aldı:***
***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

# Ulu öndərin sosial siyasəti ekranda



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş sənədli film hazırlayıb. Ekran əsəri Ulu öndərin həyat və fəaliyyətində seçilən yer tutan, yüksək mənəvi xüsusiyyətlərdən biri sayılan həssas qruplara qayğıkeş münasibətini əks etdirir.**

Şəhid ailələrinə, qazilərə, tənha ahıllara, digər həssas qruplara daim diqqət və qayğı göstərən Ümummilli lider Heydər Əliyev bu sahədə mükəmməl dövlət siyasəti formalaşdırıb. Təqdim edilən filmdə də Ulu öndərin bu yöndə fəaliyyəti, humanitar görüşdüyü və onun qayğışı ilə əhatə olunmuş vətəndaşların ürək sözləri yer alıb.

1997-ci ildə ümummilli lider Heydər Əliyevin iştirakı ilə açılış mərasimi olmuş yaşayış binasında mənzillə təmin edilmiş qazi Rasim Ələkbərov, şəhid ailəsi üzvü Südabə Fətəliyeva, Ulu öndəri böyük məhəbbətlə xatırlayırlar. Prezident Heydər Əliyev 1995-ci ilin yanvar ayında Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində olarkən onunla görüşmüş, hər iki qolu taxma olduğu halda uzun illər protez istehsalı sahəsində çalışmış Nazim Əliyevin, 1998-ci ildə Əlilliyi olan şəxslərin I Ümumrespublika Bədii Yaradıcılıq Baxış Müsabiqəsində ümummilli liderlə görüşmüş Səfura və Rəsmiyyə Dadaşova bacılarının, Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin sakini Həbib Qənbərovun, II Dünya müharibəsi veteranı Ağababa İskəndərovun, Ulu öndərin 1996-cı ildə Atlant Yay Paralimpiya Oyunlarına yola salınan və 2000-ci ildə Sidneydəki Paralimpiya Oyunlarından qayıtmış paralimpiyaçılarla görüşündə iştirak etmiş Mehman Ramazanzadənin unudulmaz xatirələri də filmin təsirli epizodlarıdır.

***Z.HÜSEYNOVA***
***XQ***

# “Millətin atası” kitabının Kiyevdə təqdimatı



**Ukrayna Milli Aviasiya Universitetinin Beynəlxalq Əlaqələr İnstitutunun Beynəlxalq hüquq kafedrasının professoru, soydaşımız Arif Quliyevin Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı çapdan çıxan “Millətin atası” kitabının təqdimat mərasimi keçirilib.**

Kiyevdəki Mikoli Rudenko adına Kitabxanada təşkil olunan mərasimdə Azərbaycanın Ukraynadakı səfirliyinin əməkdaşları, Kiyev Şəhər Mədəniyyət İdarəsinin nümayəndələri, Ukraynanın ictimai-siyasi xadimləri, diaspor fəalları iştirak ediblər.

Tədqiqat əsərində ulu öndər Heydər Əliyevin zəngin irsindən bəhs olunduğunu vurğulayan professor Arif Quliyev Ümummilli liderin çoxşaxəli siyasi fəaliyyətinin daha dərindən öyrənilməsinin vacibliyindən, nəşri ərsəyə gətirmək üçün apardığı araşdırmalardan söz açıb.

Kiyevin Darnitsa rayon mədəniyyət şöbəsinin müdiri Natalya Melniçuk, texnika elmləri doktoru Şöhrəddin Əsgərov, paytaxtın Şevçenko rayon prokuroru Samir Sadıqov, Kiyev Şəhər Mədəniyyət İdarəsinin milli azlıqlar idarəsinin rəisi Kristina Kapitan və digərləri çıxışlarında kitabın ölkəmizin beynəlxalq əlaqələri, Azərbaycan-Ukrayna münasibətlərinin araşdırılması baxımından sanballı mənbə olduğunu vurğulayıblar.

***XQ***

# Qarabağda qanunsuz silahlı birləşmə yaradanlar zərərsizləşdiriliblər

## Arkadi Qukasyan, Bako Sahakyan və Davit İşxanyanın həbsi ilə bağlı DTX-dən açıqlama




**Azərbaycan Respublikasının Qarabağ bölgəsində fəaliyyət göstərmiş qanunsuz silahlı birləşmələrin ötən müddətdə törətdikləri terrorçuluq əməlləri ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində cinayət işi davam etdirilir.**




Araşdırmalar zamanı Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki və İşxanyan Davit Rubeni tərəfindən Azərbaycan Respublikası ərazisində müvafiq olaraq qondarma "Dağlıq Qarabağ Respublikasının prezidentləri" və "prezidenti vəzifəsinin müvəqqəti icraçısı" və digər adlar altında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin for-




malaşdırılması və fəaliyyətinin təşkilinə, habelə idarələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə insanların həlak olmasına və digər ağır nəticələrə səbəb olan basqınlar təşkil edən həmin qanunsuz silahlı birləşmələrin silah, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchiz edilməsinə, mütəşəkkil dəstə halında qanunsuz olaraq odlu silah, onun komplekt hissələrinin, döyüş sursatı, partlayıcı qurğular əldə edilməsinə, başqasına verilməsinə, saxlanılmasına, daşınmasına və gəzdirilməsinə, pul vəsaitlərini və digər əmlakı tamamilə və qismən, bilavasitə və dolayısı ilə qanunsuz silahlı birləşmələrin terror aktları törətməsi istiqamətində istifadə edəcəyini bilərək, həmin məqsədlə qəsdən toplamaq, ayırmaq və verməklə terrorçuluğun maliyyələşdirilməsinə dair əsaslı şübhələr müəyyənləşmişdir.

Eləcə də, qeyd olunan şəxslər tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan Respublikasının ərazisində həmin əməllərin törədilməsi üsulları, odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan, zəhərli maddələrdən, digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə hazırlığı üzrə təlimlərin təşkili, mütəşəkkil dəstə halında odlu silahdan və silah qismində digər predmetlərdən istifadə etməklə milli ədavət və düşmənçilik niyyəti ilə təkrarən terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərarlar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi ilə müşayiət olunan partlayış, habelə əraziləri davamlı şəkildə minalama və digər hərəkətlər törədərək, terror aktlarının təşkilinə əsaslı şübhələr müəyyən edilmişdir.

Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanın Xankəndi şəhərində anadan olmuş 1957-ci il təvəllüdlü Arkadi Qukasyan, həmin şəhərdə anadan olmuş 1960-cı il təvəllüdlü Bako Sahakyan və Azərbaycanın Xocavənd rayonunda anadan olmuş 1958-ci il təvəllüdlü Davit İşxanyan 3 oktyabr 2023-cü il tarixində saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1, 214.2.2, 214.2.3 (mütəşəkkil dəstə tərəfindən təkrar odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 214-3.2 (terrorçuluq məqsədi ilə təlimlər təşkil etmə), 228.3 (mütəşəkkil dəstə tərəfindən təkrar qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, saxlama, daşıma və gəzdirmə) və 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qruplar yaratma və onların fəaliyyətində iştirak etmə) maddələri ilə ittiham elan edilməklə cinayət məsuliyyətinə cəlb olunmuşlar.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri aparılır.

***XQ***

# Araik Arutyunyan cinayət məsuliyyətinə cəlb edilib

**Azərbaycan Respublikasının Qarabağ ərazisində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlərin araşdırılması ilə bağlı başlanmış cinayət işləri üzrə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğu tərəfindən kompleks tədbirlər həyata keçirilir.**




Araşdırmalar zamanı Azərbaycanın Xankəndi şəhərində anadan olmuş, 1973-cü il təvəllüdlü Araik Arutyunyan tərəfindən Azərbaycan Respublikasının ərazisində qondarma "Dağlıq Qarabağ Respublikasının prezidenti" və digər adlar altında təcavüzkar müharibənin aparılmasında iştirakı, muzdluların yığılması, təlim keçirilməsi və maliyyələşdirilməsinə, həmçinin onlardan hərbi münaqişədə və hərbi əməliyyatlarda istifadəsinin təşkil olunmasına, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulmasına, silahlı münaqişə dövründə cinayətkar əmr verilməsinə dair əsaslı şübhələr müəyyən edilmişdir.

Bundan başqa, Araik Arutyunyan tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılmasına və fəaliyyətinin təşkilinə, cinayətkar birlik halında həmin birləşmələrin silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchizinə, bunlardan istifadə hazırlığı üzrə təlimlərin təşkilinə, eləcə də qaçaqmalçılıq yolu ilə ölkəmizə gətirilməsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair əsaslı şübhələr müəyyən olunmuşdur.

İstintaq-əməliyyat tədbirləri nəticəsində, həmçinin, Araik Arutyunyan tərəfindən Azərbaycan Respublikasının ərazilərinin davamlı şəkildə minalanması, cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır nəticələrə səbəb olan ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Araik Arutyunyan 2020-ci il oktyabrın 28-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində onun barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilmişdir.

Cari il oktyabrın 3-də Araik Arutyunyan Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Xankəndi şəhərində saxlanılmış, ona Cinayət Məcəlləsinin 100, 116, 117, 120, 214, 214-1, 214-3, 218, 279-cu və digər maddələri ilə ittiham elan edilmişdir.

Hazırda Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***XQ***

# Hərbi cani cəzasını almalıdır

**"Araik Arutyunyanın həbs edilməsi Azərbaycanın haq işinin növbəti qələbəsidir və benəlxalq hüququn tələbidir". İsrail Təhlükəsizlik Akademiyasının Azərbaycan Regional Nümayəndəliyinin direktoru, beynəlxalq antiterror mütəxəssisi Mirsamir Məmmədov bu açıqlamasının davamında bildirib:**

– Xocalı soyqırımında fəal iştirak etmiş, 2020-ci ilin Vətən müharibəsində Gəncə, Bərdə şəhərlərini, digər bölgələri raket-artilleriya atəşinə tutdurmuş, davamlı hərbi təxribatlar, terrorlar, milli, irqi və dini zəmində ağır cinayətlər törətmiş Araik Arutyunyanın həbs edilməsi ədalətin təntənəsidir. Bununla da bütün mənfur düşmən qüvvələrin, ermənilərin bütün havadarlarının məkrli oyunları, ermənipərəst dövlətlərin və ermənipərəst mərkəzlərin məkrli planları alt-üst oldu və iflasa uğradı.

Artıq bütün dünya, xüsusən Azərbaycana qarşı məkrli planlar quran və anti-kampaniyalar həyata keçirən avantürist qüvvələr anlamalıdır ki, Azərbaycanda separatizmə yer yoxdur. Düşmən dairələr bu ölkədə forpost qüvvə yaratmaq siyasətindən birdəfəlik əl çəkməlidir. İnsanlıq əleyhinə cinayət törədən Xankəndi xuntasının keçmiş əliqanlı rəhbəri qanunu cəzasını almalıdır.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 353** **Bakı şəhəri, 4 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 976; 2014, № 4, maddə 446; 2015, № 3, maddə 325; 2017, № 4, maddə 620, № 7, maddə 1500; 2018, № 11, maddə 2452; 2019, № 2, maddə 343, № 7, maddə 1355; 2020, № 1, maddə 81; 2022, № 6, maddə 690; 2023, № 4, maddə 596) ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** "Magistratura səviyyəsi üzrə" bölməsində "XTM060010 Sərhəd təhlükəsizliyi və idarəetmə - Sərhəd təhlükəsizliyi və idarəetmə (sahələr üzrə)" sətri aşağıdakı redaksiyada verilsin:

"XTM060010*** Sərhəd təhlükəsizliyi və idarəetmə - Sərhəd təhlükəsizliyi və idarəetmə (sahələr üzrə)".

**2.** Təsnifatın sonunda göstərilmiş qeyd hissəsinə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"*** Bu ixtisasa aldıqları ixtisasdan asılı olmayaraq, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətində xidmət edən ali təhsilli zabitlər Dövlət Sərhəd Xidmətinin Akademiyasının qəbul şərtlərinə uyğun olaraq magistraturaya qəbul oluna bilərlər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 354** **Bakı şəhəri, 4 oktyabr 2023-cü il**

***"Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084, № 12, maddə 1566; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 275 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında və 1-ci hissədə "və dövlət adından yaradılan publik hüquqi şəxslər" sözləri ", dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı" üzrə:

2.1. adında "və dövlət adından yaradılan publik hüquqi şəxslər" sözləri ", dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar" sözləri ilə əvəz edilsin;

2.2. 3-cü hissəyə aşağıdakı məzmunda əlli dördüncü abzas əlavə edilsin:

"3-53/ Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi";

2.3. aşağıdakı məzmunda 19-cu hissə əlavə edilsin:

"19. Komissiyalar

19-1/ Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası

19-2/ Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiyası

19-3/ Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası

19-4/ İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası".

2.4. "Qeydlər"in 1-ci abzasında "dövlət orqanına (qurumuna)" sözləri "Azərbaycan Respublikasının dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə və dövlət adından yaradılan publik hüquqi şəxslərə və komissiyalara (bundan sonra – dövlət orqanı (qurumu)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 355** **Bakı şəhəri, 4 oktyabr 2023-cü il**

***"Elektron əmtəə-nəqliyyat qaiməsinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın və "Yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın təsdiq edilməsi barədə***

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 1533 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Elektron əmtəə-nəqliyyat qaiməsinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi elektron əmtəə-nəqliyyat qaiməsinin və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin tətbiqi ilə əlaqədar müvafiq texniki imkanların yaradılmasını təmin edən tədbirlər görsün.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Şuşa İƏT-nin 2026-cı il də turizm paytaxtı olacaq

**Oktyabrın 4-5-də Ərdəbil şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin yüksək səviyyəli turizm ekspertlərinin 7-ci görüşü və turizm nazirlərinin 5-ci iclası keçirilib.**

İclaslarda ölkəmizi Dövlət Turizm Agentliyinin nümayəndə heyəti təmsil edib.

Tədbir çərçivəsində üzv dövlətlər arasında turizm sahəsi üzrə mövcud əməkdaşlıq perspektivlərinə dair geniş müzakirə aparılıb, müvafiq sahə üzrə qarşılıqlı əlaqələrin daha da gücləndirilməsi istiqamətində görüləcək tədbirlər nəzərdən keçirilib.

İclasda səsvermə nəticəsində Şuşa şəhəri İqtisadi Əməkdaşlıq Təşkilatının 2026-cı il üçün turizm paytaxtı seçilib.

Sonda İƏT-in bu qərarı Ərdəbil Bəyannaməsində əks olunub.

*

Oktyabrın 10-da Şuşa şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının 27-ci iclası keçiriləcək.

Bildirilib ki, tədbirdə xarici işlər naziri Ceyhun Bayramov və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin xarici işlər nazirləri iştirak edəcəklər.

***XQ***

# Azərbaycan Asiya üçün də önəmli ölkədir

## Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlər ölkəmizə 12 milyard dollar kapital qoyub

**Energetika naziri Pərviz Şahbazov "Qazaxıstan Enerji Həftəsi–2023. XV Avrasiya Forumu KAZENERGY" tədbiri çərçivəsində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) 1-ci Enerji Forumundakı çıxışında bu quruma üzv ölkələrin zəngin neft–qaz yataqları, "yaşıl enerji" potensialı, mühüm qlobal enerji–nəqliyyat dəhlizləri və ixrac infrastrukturunun mövcudluğunu enerji sektorunda əməkdaşlıq üçün böyük imkanlar kimi dəyərləndirib. Bu potensialın reallaşdırılması baxımından ŞƏT-in enerji strategiyasının hazırlanması ilə bağlı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin təşəbbüsünün strateji əhəmiyyətindən bəhs edib.**



Forumda ölkəmizin qurumla əlaqələrin inkişafına böyük önəm verdiyi qeyd edilib. Azərbaycanın hazırkı geosiyasi mövqeyinin və regionda təhlükəsizlik, sabitlik və inkişaf mühitinin təmin olunması ilə bağlı uğurlu siyasətinin təşkilatla yeni statusda əməkdaşlığa müsbət təsir göstərdiyi diqqətə çatdırılıb. Eyni zamanda, ŞƏT-lə regionumuzun enerji, nəqliyyat və logistika potensialından istifadə üzrə geniş əlaqələr yarandığı da vurğulanıb.

Qeyd edək ki, sözügedən təşkilata üzv ölkələrlə Azərbaycanın ticarət dövriyyəsi ötən il 45,8 faiz artaraq 9 milyard dollardan çox olub. Bu ölkələrin respublikamızın xarici ticarətindəki payı isə ötən il 17 faiz təşkil edib. ŞƏT üzvləri tərəfindən Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox investisiya qoyulub. Azərbaycan isə üzv ölkələrin iqtisadiyyatına 3,2 milyard dollar sərmayə yatırıb.

Azərbaycan ŞƏT-in dialoq üzrə tərəfdaşı statusu daşıdığı vaxtdan qurumun tədbirlərində fəal iştirak edir və təşkilatla əməkdaşlığı genişləndirir. Respublikamızla ŞƏT-i ortaq məxrəcə gətirən çoxsaylı iqtisadi amillər sırasında "Bir kəmər, bir yol" təşəbbüsü isə xüsusi əhəmiyyət daşıyır.

Xatırladaq ki, bu layihə iqtisadi potensial baxımından ŞƏT-in ən güclü və nüfuzlu üzvlərindən olan Çinin siyasi rəhbərliyinin təşəbbüsü ilə gündəmə gəlib. Həmin vaxtdan etibarən Avropa ilə Asiya arasında böyük coğrafiyada yerləşən ölkələri birləşdirən bu meqa layihənin reallaşdırılması diqqət mərkəzində saxlanılıb. Layihənin ilk gündən Çinin, eləcə də "Bir kəmər, bir yol"a inteqrasiya imkanı olan dövlətlərin böyük bazarlara çıxışını asanlaşdırmaq məqsədi daşıdığı bildirilib. Yüklərin birgə səylə və iştirakçı ölkələrin koordinasiyalı fəaliyyəti ilə müəyyən ünvanlara tez, rahat və ucuz çatdırılacağı nəzərdə tutulub. Yeri gəlmişkən, indiyədək Çin tərəfindən "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasına böyük həcmdə investisiyalar yönəldilib.

Bu məqamda onu da deyək ki, dinamik iqtisadi inkişafına görə beynəlxalq sistemin strukturuna böyük təsir imkanına malik olan Çin müəlifi olduğu adıçəkilən təşəbbüsü ilə Avrasiya məkanında mövqeyini getdikcə gücləndirir. Bunun bir neçə səbəbi var. Əvvəla "Bir kəmər, bir yol" layihəsinin mühüm komponentlərindən biri olan Çin–Mərkəzi Asiya–Qərbi Asiya iqtisadi dəhlizi Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan, İran və Türkiyə vasitəsilə Aralıq dənizinə çıxış imkanları yaradır, digər tərəfdən Türkiyənin dəstəklədiyi Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) da region ölkələrinin iqtisadiyyatında mühüm rol oynayır.

Çindən Türkiyəyə və buradan da Avropaya gedən 7 min kilometrlik ən qısa yol olan Orta Dəhliz region dövlətlərinin mühüm təsir imkanına malikdir. Bununla yanaşı, Zəngəzur Dəhlizi də Çin–Türkiyə və Çin–Azərbaycan münasibətlərinin perspektivi baxımından mühüm önəm daşıyır. Qeyd edək ki, Zəngəzur Dəhlizi Orta Dəhlizin tərkib hissəsi olmaqla həm də Avropadan Asiyaya gedən beynəlxalq marşruta alternativ kimi çıxış edərək regionun inkişafına təkan verəcək bir nəqliyyat xəttidir.

Cari ilin yanvar–avqust aylarında Orta Dəhliz ilə Çindən Avropaya daşınan yüklərin həcmi ötən ilin eyni dövrünə nisbətən 84 faiz çox olub. Bu məlumatı Qazaxıstanın nəqliyyat naziri Marat Karabayev Astana şəhərində keçirilən "Yeni İpək Yolu" Beynəlxalq Nəqliyyat və Logistika Forumunda bildirib. Onun sözlərinə görə, bu marşrutun inkişafında Azərbaycan və Gürcüstanın müvafiq nazirlikləri ilə əlaqələndirilmiş iş mühüm rol oynayıb. Ötən il maneələrin aradan qaldırılmasına yönələn müvafiq Yol Xəritəsi imzalanıb. Ümumiyyətlə, Orta Dəhlizin inkişafı və Qazaxıstanda multimodal nəqliyyatın genişləndirilməsi üçün bir sıra infrastruktur layihələri həyata keçirilib.

Qazaxıstanın Dostıq-Moyintı dəmir yolu mənzilində 2-ci yolun tikintisinə başlanılıb ki, bu da yükdaşıma qabiliyyətini və daşıma sürətini 5 dəfə artıracaq. Darbaza-Maktaral dairəvi dəmir yolu xəttinin tikintisinə də başlanılır. Baxtı–Ayagöz istiqamətində də yeni layihə var. Yəni Çindən yüklərin qəbulu üçün 3-cü məntəqənin açılması çox vacibdir. Bu baxımdan ən aktual obyekt Baxtı-Taçen istiqamətində tikilən, 20 milyon ton yük dövriyyəsi olacaq yeni dəmir yolu stansiyasıdır.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, Vahid pəncərə prinsipinin tətbiqinə başlanıb.

Beləliklə, "Bir kəmər, bir yol" layihəsi ilə Avrasiya məkanını inkişaf etmiş yollar, yüksək sürətli dəmir yolu və elektrik xətləri, limanlar, boru kəmərləri və digər zəruri infrastruktur vasitələri ilə birləşdirir. Ümumiyyətlə, 60-dan çox ölkəyə xidmət göstərən "Bir kəmər, bir yol" 4,4 milyard insanı və dünya ümumi daxili məhsulunun 40 faizini əhatə edir, həmçinin 1 trilyon dollardan 8 trilyon dollara qədər dəyər daşıyır. Dünya Bankının məlumatına görə, dəhliz boyunca yerləşən 70 ölkədə (Çin istisna olmaqla) "Bir kəmər, bir yol" çərçivəsində investisiyalar 575 milyard dollar təşkil edir.

Bu gün Azərbaycan ŞƏT-ə üzv ölkələrlə ənənəvi və bərpaolunan enerji sahəsində yeni əməkdaşlıq əlaqələrinin inkişafını da diqqətdə saxlayır. Məsələn, respublikamızın Çinlə birgə 2 QVt gücündə "yaşıl enerji" layihəsi uğurla həyata keçirilir, eyni zamanda qarşılıqlı ticarət əməkdaşlığının güclənməsinə xüsusi diqqət yetirilir. Cari ilin 7 ayında respublikamızın Çinlə ikitərəfli ticarət dövriyyəsinin əvvəlki ilin eyni dövrü ilə müqayisədə 41,1 faiz artaraq 1,62 milyard dollar təşkil etməsi də dost ölkənin respublikamızın dördüncü ən böyük ticarət tərəfdaşı kimi qeydə alınmasını şərtləndirir.

Hazırda Çinin Azərbaycana əsas ixracı yüksək texnologiyalı məhsullar, o cümlədən mexaniki qurğular, elektron avadanlıqlar və avtomobillərdir. Onların ixrac payı 50 faizi ötür.

Bununla bərabər, Pakistana "SOCAR Trading" vasitəsilə LNG tədarükü, Özbəkistanla energetika sahəsində əməkdaşlığın dərinləşdirilməsi, həmçinin SOCAR-la "Uzbekneftqaz"ın hər iki ölkədə neft-qaz layihələrində iştirakı ilə bağlı müvafiq sənədlərin, eləcə də energetika nazirlikləri arasında 2023–2025-ci illər üzrə Yol Xəritəsinin imzalanması Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin genişlənməsinin bariz ifadəsidir.

Qazaxıstan neftinin BTC kəməri ilə nəql olunması da təşkilatla əlaqələrin inkişafında önəmli rol oynayıb. Belə ki, bu kəmərlə cari ilin aprel–sentyabr aylarında, təxminən 600 min tondan çox Qazaxıstan nefti daşınıb. Bunun 490 min tonu Ceyhan limanından dünya bazarına göndərilib. İlin sonunadək bu həcmin 1,1 milyon tona çatdırılacağı planlaşdırılıb. Qeyd edək ki, ŞƏT-in 1-ci Enerji Forumu qlobal çağırışlar nəzərə alınmaqla təşkilata üzv dövlətlər arasında enerji əməkdaşlığının inkişafı üzrə strateji yanaşmalara həsr olunub.

Sonda qeyd edək ki, ŞƏT 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Təşkilatın əsas məqsədləri üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi, siyasət, ticarət və iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə səmərəli əməkdaşlığın inkişaf etdirilməsi, regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi– iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılmasından ibarətdir.

Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə ölkəmizlə bu qurum arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. Respublikamızın təşkilatla əməkdaşlığında ənənəvi prioritet sahələr olan və Azərbaycan üçün xüsusi önəm daşıyan terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində saxlanılıb.

***Vaqif BAYRAMOV***
***XQ***




# Bütün enerji növlərinə qlobal tələbat artır

## *Neft isə üstün mövqeyini qoruyub saxlayacaq*

**(əvvəli 1-ci səhifədə)**

"Emirates" informasiya agentliyinin bununla bağlı yaydığı məlumatda qeyd olunur ki, OPEC rəhbəri jurnalistlərə müsahibəsində əsrimizin ortalarına qədər qlobal enerji tələbatının hazırkı səviyyədən 25 faiz daha çox olacağının proqnozlaşdırıldığını bildirib. Bu da dünya əhalisinin həmin dövrədək, təxminən, 1,6 milyard nəfər artacağı ilə bağlıdır. "Bu onu göstərir ki, dünyanın gələcəkdə daha çox enerjiyə ehtiyacı olacaq. Heç bir enerji mənbəyi iqtisadiyyatın genişlənməsi və əhalinin artması fonunda dünyanın getdikcə artan ehtiyaclarını ödəyə bilməz. Buna görə də OPEC həm neftə, həm də bərpa olunan enerjiyə investisiyaları dəstəkləyir", – deyə o əlavə edib.

Yeri gəlmişkən, OPEC-in baş katibi ötən ayın əvvəllərində verdiyi açıqlamada bugünkü neft tələbinin rekord həddə yaxınlaşdığını söyləmişdi. Yaxın vaxtlarda neft tələbinin gündəlik 110 milyon barelə qədər artacağını bildirən təşkilat rəhbərinin fikrincə, neft növbəti onilliklərdə qlobal enerji infrastrukturunun mühüm hissəsi olmaqda davam edəcək. Onun sözlərinə görə, bu amil son onilliklərdə neft dövrünün bitdiyinə dair bir çox iddialarla kəskin şəkildə ziddiyyət təşkil edir. "Həqiqətən də, müasir tələbat bütün zamanların ən yüksək səviyyəsinə yaxındır və 2023-cü və 2024-cü illərdə təxminən gündə 5 milyon barel artacaq",– deyə o qeyd etmişdi.

Haysam Əl-Qays növbəti açıqlamasında, həmçinin bildirib ki, OPEC qarşıdan gələn Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasında (COP28) ilk dəfə olaraq təmiz enerji sisteminə keçid və karbon emissiyalarının azaldılması ilə bağlı fəaliyyətini, planlarını və dəstəyini nümayiş etdirmək üçün xüsusi pavilyon açacaq. Onun sözlərinə görə, bəzi uğursuzluqlara baxmayaraq, qlobal artım davam edir və rəhbərlik etdiyi qurum gələcək neft tələbatı ilə bağlı nikbindir. Qlobal iqtisadiyyatın müxtəlif mərhələlərdən keçdiyini diqqətə çatdıran baş katib OPEC-in gələn həftə yenilənmiş tələb proqnozlarını açıqlayacağını bildirib. O deyib ki, təşkilat, həmçinin dünyanı enerji ilə təmin etmək, habelə neft və bərpaolunan enerjiyə sərmayə qoymaq öhdəliyi götürür.

Haysam Əl-Qays onu da bildirib ki, bir sıra aparıcı ölkələr, xüsusən Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Küveyt və bəzi Afrika dövlətləri neft sənayesində texnologiyadan uğurla istifadə ediblər. Həmin ölkələr karbontutma texnologiyalarına, yaşıl hidrogenə və dairəvi iqtisadiyyatlara sərmayə qoyub və istixana qazlarının emissiyalarını azaltmaq üçün səmərəli iş aparıblar.

Neft sənayesinin iqlim dəyişikliyi problemlərinin həllinə töhfə verməyə davam etməsinin vacibliyini vurğulayan baş katib Birləşmiş Ərəb Əmirliklərinin karbon emissiyalarının azaldılması və bərpaolunan enerjiyə sərmayə yatırmasında lider ölkə olduğunu qeyd edib.

Müsahibəsində OPEC-in üzvlük bazasının genişləndirilməsi ilə bağlı planlarından bəhs edən Haysam Əl-Qays son vaxtlar bir sıra ölkələrə, o cümlədən Azərbaycan, Meksika, Malayziya və Bruneyə səfər etdiyini, yaxın gələcəkd isə Rusiya və Braziliyaya səfər planının olduğunu bildirib. Onun dediyinə görə, həmin ölkələr əhəmiyyətli qlobal neft hasilatına və imkanlarına malikdirlər və OPEC onlarla dialoq və məsləhətləşmə siyasətinə inanır. "Ona görə də bizim qapılarımız qoşulmaq istəyən və OPEC-in nizamnaməsində göstərilən standartlara əməl edən hər bir ölkə üçün açıqdır", – deyə o qeyd edib.

Neft İxrac Edən Ölkələr Təşkilatının Böyük Britaniya və Norveçlə, eləcə də Amerika qitəsindəki neft istehsalçıları, o cümlədən ABŞ və Kanada ilə müntəzəm danışıqlar apardığını vurğulayan baş katib deyib ki, neft bazarı bir-birinə bağlı olduğundan enerji təhlükəsizliyi və qiymət sabitliyinin təmin edilməsi hər kəsin məsuliyyətidir. Onun sözlərinə görə, bütün tərəflərlə dialoq üçün açıq qapı siyasətinə uyğun olaraq Hindistan, Çin və Avropa İttifaqı kimi əsas istehlakçılar da danışıqlar prosesinə cəlb olunur.

Yeri gəlmişkən, neft ixracı ilə məşğul olan ölkələrin vahid bir qurumda birləşməsi təşəbbüsü ilə ilk dəfə 1949-cu ildə Venesuela çıxış edib. Bundan 11 il sonra–1960-cı il sentyabr ayının 10–14-də Bağdadda keçirilən konfransda Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) daim fəaliyyətdə olan qeyri-hökumət qurumu kimi yaradılıb. Təşkilatın yaradılmasında əsas məqsəd qlobal xam neft qiymətlərinin və neft hasilatı üzrə fəalliyyətlərin koordinasiyasının tənzimlənməsindən ibarət olub. OPEC-in ilk üzvləri isə İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı və Venesuela olublar. Sonradan qurumun sıraları Qətər, (1961), İndoneziya (1962), Liviya (1962), Birləşmiş Ərəb Əmirlikləri (1967), Əlcəzair (1969), Nigeriya (1971), Ekvador (1973–1992), Qabon (1975–1994) və Anqolanın (2007) hesabına bir qədər də genişlənib. OPEC-ə qoşulan sonuncu ölkə isə Ekvatorial Qvineya (2017) olub. Ekvador 1993-cü ildə ya OPEC-in üzvlük haqqını ödəyə bilmədiyindən, ya da təşkilatın qərara aldığı miqdardan daha çox neft istehsal etmək istədiyindən qurumu tərk edib. 2007-ci ildə isə İndoneziya təşkilatla vidalaşıb.

Bundan əlavə, Azərbaycan, Bəhreyn, Bruney, Qazaxıstan, Malayziya, Meksika, Oman, Rusiya, Sudan, və Cənubi Sudan təşkilatla "OPEC plus" formatında sıx əməkdaşlıq edirlər. "OPEC plus" əməkdaşlığının əsas məqsədi isə dünya neft bazarında tələb və təklifin uzlaşmasına nail olmaqdır.

Hazırda 13 üzvü olan OPEC-in qərargahı 1965-ci ildən Avstriyanın paytaxtı Vyana şəhərində yerləşir. Hazırda neft ticarəti üzrə dünya bazarının, demək olar ki, yarısı OPEC-in nəzarəti altındadır. Bu səbəbdən də qurum dünya bazarında neft qiymətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Son illər Azərbaycanın OPEC-lə əməkdaşlığı təşkilatın iclaslarında müşahidəçi statusunda iştirakı ilə xeyli genişlənib. Hazırda "Əməkdaşlıq Bəyannaməsi"nin iştirakçı ölkələrinin cari ilin avqust ayındakı kvotalarına nəzərən müəyyənləşdirilmiş öhdəlikləri sabit saxlanılır. Energetika Nazirliyinin məlumatına görə, 2023-cü ilin avqust ayında ölkəmizdə gündəlik neft (kondensatla birlikdə) hasilatı 620 min barel olub. Bunun da 498 min barelini xam neft, 122 min barelini isə kondensat təşkil edib. Qeyd edək ki, "OPEC plus" əməkdaşlığı çərçivəsində 2023-cü ilin sonuna kimi Azərbaycanın ixtisarlarla bağlı öhdəliyi gündəlik 33 min barel, gündəlik xam neft hasilatı üzrə kvotası isə 684 min bareldir.

Göründüyü kimi, Azərbaycan OPEC qarşısında neft hasilatı ilə bağlı götürdüyü öhdəliyə sadiqliyini davam etdirməkdədir...

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Sığorta yatırımı 1,4 milyard manatı ötüb

**2023-cü ilin birinci yarısında Azərbaycanda sığorta şikətlərinin investisiyaları ötən ilin sonu ilə müqayisədə 10,7 faiz artaraq 1 milyard 404 milyon manata çatıb. Artım, əsasən, dövlət qiymətli kağızları (19,8 faiz və ya 125 milyon manat) hesabına baş verib. Bu barədə Azərbaycan Mərkəzi Bankının "Maliyyə Sabitliyi Hesabatında" bildirilib.**




Xatırladaq ki, həyat sığorta şirkətlərinin vəsaitlərinin 90 faizini, qeyri-həyat sığorta şirkətlərinin vəsaitlərinin isə 65 faizini investisiya portfeli təşkil edir. Həyat və qeyri-həyat sığorta şirkətlərinin investisiyları, əsasən, dövlət qiymətli kağızlarından və bank vəsaitlərindən ibarətdir.

***XQ***



# Aqrar-sənayedə ixrac 594 milyon dollara çatıb

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına görə, Azərbaycanda bu ilin yanvar–avqust aylarında aqrar–sənaye məhsulları ixracının dəyəri 10,4 faiz artaraq 594 milyon dollara çatıb.**

Məlumata əsasən, qeyri-neft ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 32,8 faiz artaraq 133 milyon dollar təşkil edib.

***XQ***

# İnvestisiya şirkətlərinin yarımillik vəsaitləri 13 faiz artıb

**Mərkəzi Bankın "2023-cü ilin I yarısı üzrə maliyyə sabitliyi hesabatı"na əsasən, cari ilin I yarısında respublikada investisiya şirkətlərinin vəsaitləri ilin əvvəli ilə müqayisədə 13 faiz artaraq 122 milyon manat təşkil edib.**




Sənədə əsasən, yanvar–iyun aylarında investisiya şirkətlərinin öhdəlikləri 16 faiz artaraq 80 milyon manata, balans kapitalı isə 7,7 faiz artaraq 42 milyon manata çatıb.

***XQ***

Günün narahatlıqları

# Qoy duzumuz bol olsun!

## Amma düz olsun, yodlu olsun

(I yazı)

**Duz qida rasionumuzun son dərəcə vacib komponentlərindən biridir. Gündəlik qidalarımızı duzsuz təsəvvür etmək çətindir. Bu vacib qida məhsulunun adının əvəzsiz nemətimiz olan çörəklə yanaşı çəkilməsi də təsadüfi deyil. Duz ölçü, dəyər, ləzzət mənası da daşıyıb. "Duzlu söhbət, "duzlu yazı" ifadələri duzun qədir-qiymətindən ərsəyə gəlib.**

Bu, əsrlər boyu da belə olub. Hətta keçmişdə ayrı-ayrı dövlətlər arasında duz üstündə müharibələr baş verib, çox zaman insan əməyinin dəyəri duzla ödənilib. Beləcə, zaman-zaman dəyər qazanan duzdan dərman istehsalında, buzlu yolların açılmasında, suyun yumşaldılmasında və sabun istehsalında istifadə olunmağa başlayıb. Hazırda isə duzun 14 min növə qədər istifadə sahəsi var.

Təqribi hesablamalara görə, ölkəmizdə duzçıxarma sənayesinin 5 min il tarixi var. Bu da qədim İpək Yolunun üstündə yerləşən Azərbaycanın dünya dövlətləri ilə ticarət əlaqələrinin genişləndirilməsində mühüm rol oynayıb. Sovet dönəmində respublika əhalisinin qida duzuna olan tələbatı, əsasən, idxal hesabına ödənilib. SSRİ-nin dağılması ilə əlaqədar müttəfiq respublikalar arasında iqtisadi əlaqələrin zəifləməsi səbəbindən əhalinin bu vacib qida məhsulu ilə tələbatının ödənilməsində böyük çətinliklər yaranıb. Ölkədə qida duzunun çatışmazlığı isə bəzi işbazların işinə əməlli-başlı yarayıb.

Xüsusən də ötən əsrin 90-cı illərində bu sahə tam nəzarətsiz qaldığından əhali təmizlənməmiş duzdan istifadə etmək məcburiyyəti qarşısında qalıb. Belə ki, həmin dövrdə Bakı və Abşeronda, eləcə də ölkənin digər ərazilərində yerləşən göllərdən toplanmış duz heç bir sanitar-gigiyena normalarına riayət edilmədən, yəni təmizlənmədən respublikanın ticarət şəbəkələri vasitəsilə əhaliyə satılıb.

Həmin dövrdə bir çoxumuz paytaxtın Qaradağ rayonunun ərazisində yol boyu mədən suları ilə çirklənmiş göllərdə, eləcə də Xırdalan və Masazır göllərinin ətrafında qalaq-qalaq toplanmış duz təpələrinin şahidi olmuşduq. Bu acınacaqlı mənzərəyə təkcə şahidlik etməmişdik, həm də xəstəlik mənbəyi olan həmin duzdan bilərəkdən və ya bilməyərəkdən alıb xörəyimizə də qatmışdıq. Bu sahədə maarifləndirmə işinin aşağı səviyyədə olmasının nəticəsi idi ki, qidamıza duz əvəzinə zəhər qatdığımızın fərqində deyildik. Onu da nəzərə almamışdıq ki, ağzımızı dada-tama gətirən duz, həm də yodlaşdırılmış şəkildə qəbul olunmalıdır. Çünki təbii halda duzun tərkibində yod olmur. Yodlu duz yalnız istehsalat prosesində əldə olunur.



Beləcə, ölkədə yod çatışmazlığı getdikcə artırdı. Yodlaşdırılmamış duzun qəbulu isə vətəndaşlarımızın sağlamlığı, genefondumuz üçün ciddi təhlükə yaradırdı. Yeri gəlmişkən, mütəxəssislər bildirirlər ki, yodlaşdırılmamış duz zob, cinsi zəiflik, uşaqların əqli və fiziki inkişafdan qalmasına, hamilə qadınlar arasında erkən doğuş xəstəliyinin yaranmasına və s. səbəb ola bilər.

…Yaxşı ki, gec də olsa, bu sahədə dövlətin nəzarət mexanizmi işə düşdü. Məsələnin ciddiliyi nəzərə alınaraq bir sıra mühüm adımlar atıldı, vacib sənədlər qəbul olundu. Dövlət başçısının 2001-ci il martın 2-də imzaladığı sərəncamla "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edildi. Bu vacib dövlət sənədində ilk dəfə olaraq yodlaşdırılmamış duzdan istifadənin zob xəstəliyinin yayılmasına səbəb olduğu göstərildi. Bununla əlaqədar Səhiyyə Nazirliyinə yod çatışmazlığı ilə bağlı xəstəliklərin qarşısının alınmasına dair milli standartın işlənməsi, xörək duzunun yodlaşdırılması və yodlaşdırılmış duzun idxalı üzərində nəzarətin və digər tədbirlərin həyata keçirilməsi tapşırıldı.

Həmin il dekabrın 27-də isə Azərbaycanda "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədilə duzun yodlaşdırılması haqqında" Qanun qəbul olundu. Bununla yanaşı, sözügedən sahə ilə bağlı işlənib hazırlanmış normativ-texniki sənədlərdə duzda yodun miqdarı müəyyənləşdirildi. Həmin standarta əsasən, 1 qram duzda 30-50 mikroqram yodun olması norma kimi qəbul edildi. Eyni zamanda, duzun gündəlik istehlakının optimal miqdarı isə 6 qram müəyyənləşdirildi. Mütəxəssislərin fikrincə, insanlar tərəfindən istehlak olunan ümumi duzun 80 faizi hazır məhsullar vasitəsi ilə qəbul edilir.

Azərbaycanın duz idxalından asılılığını azaltmaq, mövcud potensialdan qanunvericiliyin tələblərinə və sanitar-gigiyena normalarına uyğun səmərəli şəkildə istifadə etmək, eləcə də vətəndaşların yodlaşdırılmış, keyfiyyətli duzla təminatını yaxşılaşdırmaq məqsədilə ölkənin ən böyük duz mənbələrindən olan Masazır gölünün yaxınlığında yodlaşdırılmış və rafinadlaşdırılmış qida duzu zavodu tikilib istismara verildi. "Azərbaycan İnvestisiya Şirkəti" ASC və "Azərsun Holdinq" MMC-nin birgə əməkdaşlığı ilə tikilən müəssisə il ərzində 60 min tona yaxın duz istehsal etmək imkanına malikdir. Bundan əlavə, hazırda Naxçıvanda yerləşən Duz dağından yığılan duzlar emal olunaraq istehlak bazarına çıxarılır.

Yeri gəlmişkən, hazırda Azərbaycanın yodlaşdırılmış duza illik tələbatı, təqribən, 45-50 min ton təşkil edir. Bu tələbat isə yerli istehsal və idxal hesabına ödənilir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ilin yanvar-avqust aylarında ölkəmizdə 47,1 min ton qida duzu istehsal olunub. Bu da ötən ilin müvafiq dövrünün göstəricisinə bərabərdir. Sentyabr ayının 1-nə anbarlarda qalıq məhsul ehtiyatı 2,3 min ton təşkil edib.

Bununla yanaşı, hazırda respublikamıza xaricdən qida üçün yararlı, yodlaşdırılmış və digərlər növ duz məhsulları da idxal olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin ilk yarısında Azərbaycan 13 ölkədən, təqribən, 560 min dollar məbləğində 4 min 700 ton duz idxal edib. İdxalın 3 min 124 tonu (250 min dollar) İranın, 1344 tonu isə (195 min dollar) Rusiyanın payına düşüb. Hesabat dövründə, həmçinin Türkiyədən 43,4 min dollarlıq 94 ton, Qazaxıstandan 16,3 min dollar dəyərində 58 ton, Pakistandan 20 min dollarlıq 26 ton, Özbəkistandan isə 8,2 min dollarlıq 44 ton duz idxal olunub. Duzun qalan hissəsi isə Belarus, Almaniya, İtaliya, Lüksemburq, Çin və İrlandiyanın Birləşmiş Krallığından gətirilib. Bununla yanaşı, ilin ilk 6 ayında, əsasən, Belarus və Rusiyadan, təqribən, 303 min dollarlıq 2 min 515 ton duz və digər duz məhlulları idxal olunub.

İxraca gəldikdə isə, bu ilin 6 ayında Azərbaycan 5 ölkəyə 749 min dollarlıq 6 min 413 ton duz ixrac edib. İxracın 3 min 883 tonu (358 min dollar) Rusiyanın, 2 min 328 min tonu (369 min dollar) Gürcüstanın, 100 tonu (12,2 min dollar) Ukraynanın payına düşüb. Bundan əlavə, hesabat dövründə ölkəmizdən Qazaxıstana 100 ton (9,7 min dollar), Kanadaya isə 1,7 ton (0,44 dollar) duz ixrac olunub.

Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə, duzla bağlı normaların müəyyən olunmasına, ölkədə Ümumdünya Səhiyyə Təşkilatının tələblərinə uyğun duz istehsalı müəssisəsinin istismara verilməsinə baxmayaraq, problemin həlli üçün uzun müddət lazım gəlib. Ötən zaman ərzində ölkədə saxta duz istehsalı ilə məşğul olan 40-dək gizli sex aşkarlanaraq ləğv olunub. Bununla belə, aparılan mübarizə tədbirlərinə baxmayaraq, bu sahədə bəzi neqativ hallar hələ də davam etməkdədir.

Keçək əsas mətləbə. Müşahidələr göstərir ki, hazırda ölkənin bəzi ticarət şəbəkələrində alıcılara yodlaşdırılmamış duzlar təklif olunur. Belə ki, bəzi işbazlar nəzarət tədbirlərinin yetərincə olmamasından istifadə edərək qida üçün yararsız, yodlaşdırılmamış duz məhsullarının istehlak bazarına çıxarılmasına nail olurlar. Bununla yanaşı, hazırda daxili bazarda istehlakçıların aldadılması hallarına da rast gəlmək mümkündür. Necə deyərlər, tamah dişi böyük olan bəzi işbazlar çörək qədər əhəmiyyətli sayılan bu vacib nemətə haram qatmaqdan belə, çəkinmirlər. Beləri heç bir sanitar tələblərə cavab verməyən bu cür məhsulları xarici brendlərin təqlidi yolu ilə qablaşdıraraq ticarət şəbəkələrinə ötürürlər. Hazırda paytaxtın bəzi iri marketlərində duz məhsullarının xarici brend adı ilə olduqca yüksək qiymətə əhaliyə təklif olunması da müəyyən şübhələrə yol açır.

Ölkənin duz bazarında mövcud vəziyyəti öyrənmək, duzun satışı zamanı qanunvericiliyin tələblərinə necə riayət olunmasını müşahidə etmək məqsədilə paytaxtın bir neçə iri supermarketlərinə baş çəkdik. Həmin dükanlarda alıcılara növbənöv, çeşid-çeşid, əksəriyyəti də tanınmış brendlərlə etiketlənmiş duz nümunələri təklif olunur. Qiymətləri bir-birindən baha olan (450 qramı 14 manat 30 qəpiyə olan duza da rast gəlmək mümkündür) bu duzların heç biri yodlaşdırılmayıb. Hər halda qutuların üstündə duzun yodlaşdırılması ilə bağlı heç bir qeydin olmaması belə bir qənaətə gəlməyə əsas verir. Həmin duz nümunələri isə bunlardır: 500 qramlıq "Himalayan Dark Pink Salt", 450 qramlıq "Morskaya Sol", 410 qramlıq "Morskaya sol", "Sol Adıqeyskaya" (çəkisi qeyd olunmayıb), 250 qramlıq "Sol Morskaya" və s.




Ölkədə ekspertiza işinin lazımi səviyyədə olmaması səbəbindən supermarketlərin birindən aldığımız duz nümunələrinin tərkibini yoxlatmaq isə əməlli-başlı müşkülə çevrildi. Nəhayət, çətinliklə də olsa, əldə etdiyimiz 5 duz nümunəsini, qismən də olsa, yoxlatdıra bildik. Nəticə isə gözlədiyimiz kimi oldu: həmin duzların heç birinin yodlaşdırılmaması bir daha təsdiqini tapdı.

Qeyd edək ki, "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədilə duzun yodlaşdırılması haqqında" Qanunun 8-ci maddəsində yodlaşdırılmış duzun istehsalı və idxalına dair tələblər öz əksini tapıb. Qanunun 8.3 maddəsinə əsasən, yodlaşdırılmamış duzun qida və yem məqsədilə istehsalı, satışı və Azərbaycan Respublikasına idxalı qadağandır. Bəs, mənşəyi şübhə doğuran, mövcud qanunvericiliyin və normativ-texniki sənədlərin tələbləri ilə tərs mütənasiblik təşkil edən belə məhsullar ölkənin sərhədlərini hansı formada keçir və ya ticarət şəbəkələrinə necə yol tapır? Şübhələr isə suallar qədər çoxdur…

Ölkənin ticarət şəbəkələrində istifadə üçün qismən və ya tamamilə yararsız olan duzların satışı hallarına qarşı aparılan mübarizə tədbirləri ilə bağlı mətbuatda müəyyən məlumatlara rast gəlmək mümkündür. Məsələn, bu ilin fevral ayında Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə istinadən yayılan bir məlumatda qeyd olunur ki, xaricdən ölkəmizə gətirilən 22 ton xörək duzunda nöqsanlar aşkarlanıb. Bildirilir ki, "Inovax General Trading" MMC-nin Pakistandan idxal etdiyi "SS Brothers" şirkətinin istehsalı olan, ümumi çəkisi 22,29 ton xörək duzu məhsuluna (10.10.2022-31.12.2024 istehsal və son istifadə tarixli) agentliyin müfəttişlərinin keçirdiyi baxış zamanı götürülən nümunələrin müayinələri nəticəsində məhsul partiyasında yodun miqdarının normadan aşağı olduğu müəyyənləşib. Aşkar edilmiş faktla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb.

Biz də ölkədə qida təhlükəsizliyinə birbaşa cavabdeh olan həmin qurumdan ilin ötən dövründə bu sahədə həyata keçirilmiş tədbirlər barədə müfəssəl məlumat əldə etmək istədik. Bu məqsədlə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Çağrı Mərkəzi ilə əlaqə saxlayıb qurumun İnformasiya təminatı və innovativ həllər şöbəsinin müdiri Mansur Piriyevlə danışmaq istədiyimizi bildirdik. Telefon zəngimizə cavab verən şəxs (Çağrı Mərkəzinin əməkdaşı) isə cidd-cəhdlə məqsədimizi, Mansur müəllimi nə üçün aradığımızı soruşdu (?). Nəhayət, məsələdən hali olandan sonra xətdə gözləməyimizi məsləhət bildi. Amma nədənsə, mətbuatla birbaşa işləməyə, təmsil etdiyi qurumun fəaliyyəti ilə bağlı medianın suallarını cavablandırmağa borclu olan məsul şəxslə danışmaq bizə müyəssər olmadı. Bu dəfə özünü Mansur Piriyevin müavini kimi təqdim edən İlkin adlı şəxsin sorğu-suallarını cavablandırmalı olduq. Ən təəccüblüsü isə bu oldu ki, İlkin müəllim marketlərdə yararsız duzların satışı ilə bağlı bizdə hər hansı faktın olub-olmaması ilə maraqlandı. Belə faktların olacağı təqdirdə onlara məlumat verməyimizi məsləhət bildi. Axı dükan-dükan gəzib bu kimi halları üzə çıxarmaq mətbuatın və ya hər hansı bir jurnalistin işi deyil. Bunu, güman ki, özləri də bilməmiş deyillər. Bilmirlərsə, xatırlatmağa hazırıq. Bir də ki, adından da göründüyü kimi, ölkədə qida təhlükəsizliyinə birbaşa cavabdehlik daşıyan qurum nəyə və hansı məqsədə xidmət edir? Bununla belə, mətbuat xidmətinin katibi məqsədimizi onlara elektron poçt vasitəsilə çatdırmağı tövsiyə etdi. İlkin müəllimin məsləhətinə əməl etsək də, 10-15 gün ərzində sorğumuza heç bir cavab ala bilmədik. Qida Təhlükəsizliyi Agentliyinin rəsmi dövlət qəzetinə etinasız münasibəti, xüsusən də əhalinin sağlamlığının qorunması baxımından son dərəcə vacib bir məsələyə soyuqqanlı yanaşması təəccüb və təəssüf doğurmaya bilməz.

Ən nəhayət, yerli istehlakçılar yodlaşdırılmamış, saxta duz məhsullarından nə vaxt can qurtara biləcəklər? Paytaxt ərazisində apardığımız araşdırmalarla bu sahədə müşahidə olunan neqativ halları, qanun pozuntularını aşkara çıxarmağa nail ola bilsək də, bu sualın izahını verməkdə, cavabını tapmaqda acizik. Sualın konkret cavabı ölkə əhalisinin ərzaq təhlükəsizliyinə birbaşa cavabdehlik daşıyan Qida Təhlükəsizliyi Agentliyindən asılıdır. O cavabı isə həm biz, həm də milyonlar gözləyir. Yeri gəlmişkən, qeyd etdiyimiz kimi, agentliyin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı ölkə ərazisində saxta, istifadəyə yararsız duzların satışı ilə bağlı bizdən faktlar istəmişdi. Bu da sizin üçün faktlar, cənablar! Əlahəzrət faktın araşdırılması isə vicdanınızdan və olmayan peşəkarlığınızdan asılıdır.

***Mirbağır YAQUBZADƏ,***
***Vaqif BAYRAMOV***
***XQ***

### EKSPERT RƏYİ



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Duz bütün dövlətlərdə iqtisadi indeks göstəricisi sayılır. Hansı ölkədə duz istehlakı artıqdırsa, yəni sənayedə, məişətdə çox istifadə olunursa, deməli, orada böyük inkişaf var. Qeyd edim ki, geridə qalmış ölkələrdə duzun fərdi ailələr səviyyəsində istehlakı 70 faiz təşkil edir. Azərbaycanda isə bu göstərici 35 faizə bərabərdir.

Ölkəmizdə duzun istehsalı və istehlakı ildən-ilə artır. Bu da o deməkdir ki, Azərbaycanda sənaye və biznes inkişaf edir. Ona görə də hazırda respublikamızda istehsal olunan və idxal edilən duzun çox böyük hissəsi sənaye sahəsində işlədilir. Bura isə ərzaq, neft, dəriaşınma və digər sahələr aiddir. Bildirmək istəyirəm ki, duzun məişət, ailə və sənaye səviyyəsində istifadəsi ölkənin inkişaf indeksi kimi qiymətləndilə bilər.

Azərbaycanda qurulmuş zavod dünya standartları səviyyəsindədir. Burada quraşdırılmış ən müasir texnologiyaların köməyi ilə duzu bütün qarışıqlardan təmizləmək mümkündür. Yəni bu gün zavodda Ekstra duz istehsal edilir. Bu növ duzlar hər ölkədə istehsal olunmur. Azərbaycan isə regionda Ekstra duz istehsal edən yeganə dövlətdir. Ekstra duzlar eyni bir mənbədən yığılmış digər duzlardan çox fərqlənir. Hər şeydən əvvəl, bu, tam təmizlənmiş duzlardır. Bu gün Azərbaycan Rusiya, Ukrayna, Kanada, bütövlükdə, 15-ə yaxın ölkəyə duz ixrac edir.

Azad İstehlakçılar Birliyi və dövlət orqanları 2001-ci ildən ölkədə yodsuz duzdan istifadənin qarşısının alınması üçün ciddi iş aparıblar. Bununla belə, tərəfimizdən illər boyu aparılan davamlı monitorinqlər göstərir ki, hələlik, qanunun müəyyən hədəflərinə çata bilməmişik. Baxmayaraq ki, ölkədə yod çatışmazlığı xəstəliyi, demək olar ki, aradan qaldırılıb. Amma təəssüf hissi ilə bildirmək istəyirəm ki, hazırda daxili bazarda, təqribən, 15 adda yodsuz duzun satılması hallarına təsadüf olunur. Həmin duzlar isə ticarət şəbəkələrində alıcılara "Sol Morskaya", "Morskaya sol", "Ekstra", "SEA SALT" və digər adlar altında təklif olunur.

Yeri gəlmişkən, bəzən həmin duzların yodlaşdırılması ilə bağlı heç bir qeydlə rastlaşılmır. Bu isə həmin duzların yodsuz olması anlamına gəlməyə əsas verir. Onu da deyim ki, bizdə olan xüsusi bir maddənin köməyi ilə həmin duzların yodlaşdırılmamasını asanlıqla müəyyənləşdirmək mümkündür. Şübhə doğuran məqamlardan biri də budur ki, artıq bir neçə ildir ki, davam edən pandemiya, eləcə də müharibə səbəbindən Azərbaycana Ukraynadan duz idxal olunmur. Lakin hazırda ölkəmizin qərb bölgələrində Ukrayna mal nişanı ilə bu dövlətin dilində markalanmış "Artyom sol" adlı duzun satılması müşahidə edilir. Bu, birmənalı olaraq istehlakçıların aldadılmasıdır.

Düzdür, yerli istehlakçılar sovet vaxtında Ukrayna istehsalı olan daş duza maraq göstəriblər. İndi isə əhaliyə daş duzu adı altında mənşəyi məlum olmayan, təmizlənməmiş duz satılır. Bu, qətiyyən yolverilməzdir. Bununla yanaşı, hazırda İran, Belarus və digər ölkələrdən də ölkəmizə külli miqdarda duz gətirilir. Prinsipcə, açıq bazar iqtisadiyyatı şəraitində buna heç bir məhdudiyyət yoxdur. Hərçənd yerli duz istehsalı zavodu ölkəni duzla tam təmin edə bilər. Bununla belə, azad, sərbəst ticarətin mövcud olduğu ölkəmizdə biznes qurumları üçün bərabər şərait yaradılıb. Onlar da bundan yararlanaraq ölkəyə kənardan duz gətirib daxili bazarda satırlar.

Azad İstehlakçılar Birliyini narahat edən məsələ isə əmtəə bazarında yodsuz duzların mövcudluğudur. Yəni qanuna zidd olduğu halda, ölkədə müxtəlif əmtəə nişanları altında duzlar satılır. Ən təəccüblüsü odur ki, son illər istehlakçılar tərəfindən bizə çoxsaylı zənglər edilir. Soruşurlar ki, əgər bu natrium xlordusa, nə üçün onun 1 kiloqramı 40 qəpiyə də satılır, 15-20 manata da. Əslində, onların dediklərində həqiqət var. Düşünürəm ki, yüksək qiymətə satılan duzlar əhalinin aldadılmasından başqa bir şey deyil. Səbəbini soruşduqda isə iddia edirlər ki, baha qiymətə satdıqları duzlar guya tərkibi zənginləşdirilmiş məhsuldur, Altay duzudur və s.

Həmin duzlar yodlaşdırılmadığı üçün qanun, birmənalı olaraq, onların satışını qadağan edir. Təəssüf hissi ilə bildirmək istəyirəm ki, Qida Təhlükəsizliyi Agentliyi nəyə görə bu cür duzların Azərbaycana idxalına icazə verir. Bu, bizi çox düşündürür. Fürsətdən istifadə edərək sizin qəzet vasitəsilə Qida Təhlükəsizliyi Agentliyinə müraciət edirəm ki, bu cür halların qarşısını almaq üçün təsirli tədbirlər görsün.



Dinləmək bacarığının olması, qarşısında olanın hiss-həyəcanını duya bilməsi, istəkləri anlaması vacib kriteriyalardandır.

Polis əməkdaşı ekstremal şəraitlərdə mürəkkəb qərarlar qəbul etməyi və müvazinətini qorumağı bacarır. Cəmiyyətdə təhlükəsizliyin təmin olunmasına həmişə ehtiyac duyulub. Bu baxımdan polis xidməti həmişə tələb və arzulunan peşədir. Tarixən cəmiyyətin inkişafı polissiz mümkün olmadığı üçün, sabitliyin dayanıqlığı və təhlükəsizliyin təmin olunması da polissiz mümkün deyil.

XXI əsrdə Azərbaycan polisi fəaliyyət istiqamətlərini köklü dəyişikliklərlə həyata keçirir. Müasir innovativ aspektlər bu peşənin inkişafına təsirsiz ötüşmür.

**Texniki inovasiyalar.** Texnologiyanın inkişafı ilə polis vəzifə funksiyalarını daha çevik və səmərəli həyata keçirə bilir.

**Kibertəhlükəsizlik.** Rəqəmsal mühitin inkişafı və kibercinayətlərin artması, polis əməkdaşlarını da öz bacarıq və peşəkarlıq məharətini artırmağa sövq edir.

**Beynəlxalq əməkdaşlıq.** Beynəlxalq cinayətkarlıq və terrorizmə qarşı mübarizə sahəsində birgə əməkdaşlıq səmərə verir.

**Preventiv iş.** Polis gələcəkdə preventiv tədbirlərin və proqramların həyata keçirilməsində fəaldır. Burada vətəndaş cəmiyyətinin və yerli icra orqanlarının birgə əməkdaşlığı da danılmazdır.

**Təhlükəsizliyin və ictimai qaydanın möhkəmləndirilməsində əhalinin iştirakı.** Yaşayış yerlərində cinayətkarlığa bağlı problemlərin həllində yerli əhalinin imkanlarından geniş istifadə edilir. Bu baxımdan, polislə cəmiyyət arasında əməkdaşlığın inkişafında vətəndaş etimadının və məmnunluğunun rolu yüksələn xətlə davam edir.

Polis xidməti həm də riskli amillərlə bağlıdır. Xidmət zamanı müxtəlif dərəcəli bədən xəsarətlərinin və zədələrin alınması ehtimalı böyükdür. Bəzən stress halında emosionallığı cilovlamaq mümkün olmur.

Polis konstitusion normalara uyğun olmayan cədvəllə işləyir. Sutkalıq növbəli iş, gecə növbətçiliyi, təcili çağırışlar əsasında ərazilərə qrup halında getmək– bütün bunlar polisin fəaliyyətinin mürəkkəbliyindən və ağırlığından xəbər verir. Lakin polisin aldığı aylıq məvacibi digər hüquq-mühafizə orqanları ilə müqayisədə azdır. 15 illik xidmət stajına malik olan polis əməkdaşı ayda – rütbə və qulluq stajına uyğun 950-1000 AZN məbləğində əməkhaqqı alır. İctimai nəqliyyatdan və taksilərdən istifadə güzəşti ləğv edilib. Onlar məzuniyyət hüququ ilə bağlı digər xidmətlərdə çalışanlardan az ödəniş alırlar.

Sosial şəbəkələrdə bəzən polisin vətəndaşlara qarşı guya həddinə aşma və onların qanunsuz saxlanılmasına dair əsassız rəylər də paylaşılır. Polis və Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunlarda polis əməkdaşlarının hansı hallarda həbs etmək, nə vaxt gücdən istifadə edə bilmək məsələlərinə aydınlıq gətirilir. Hətta qanun odlu silahın tətbiqini də mümkün sayır. Saxlanılanlara və tutulan şəxslərə qarşı polisin davranışları həddini aşmır, qeyd olunan normativ-hüquqi aktların tələbləri və təqsirsizlik prezumpsiyası ilə uzlaşır.

Bir sözlə, polis fəaliyyətində dözümlülük, içdiyi anda sədaqət, vəzifə borcuna sadiqlik nümayiş etdirir, bu müqəddəs hiss ilə yaşayır. Odur ki, cəmiyyətdə "Mənim polisim məni qoruyur" ifadəsi qürurla səslənir.

# Hüquqi dövlətdə polisin rolu və vəzifəsi

**Azərbaycan dövləti ölkədə insan və vətəndaş hüquqlarının və azadlıqlarının, öz vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini özünün ali məqsədi hesab edir. Cəmiyyətin təhlükəsizliyinin təmin edilməsi, ictimai asayişin və qaydaların qorunması, müəyyən olunmuş davranış qaydalarına nəzarət etmək isə polisin vəzifəsi kimi qəbul edilir.**

Polis əməkdaşları xidmət etdiyi ərazidə vəzifə funksiyalarının icrası zamanı çoxcəhətli fəaliyyət göstərir. O, küçədə patrul xidmətini həyata keçirir, şübhəli davranışlı şəxsləri nəzarətdə saxlayır, baş vermiş arzuolunmaz, faciəli hadisələrdən vətəndaşların həyatını və əmlakını müdafiə edir.

Statistik rəqəmlərdən aydın olur ki, 2022-ci ildə qeydə alınan 36 min 494 cinayətin 95,2 faizinin açılması təmin edilib. Bu cinayətlərin ağır və xüsusilə ağır növlərinin 85,3 faizinin, qeyri-aşkar şəraitdə baş verənlərin 85,7 faizinin, şəxsiyyət əleyhinə olan cinayətlərin isə 98,2 faizinin açılması polisin çətinvə səmərəli fəaliyyətinin göstəricisidir. Ötən il əvvəlki illərdən bağlı qalmış 368 cinayət üzrə təqsirli bilinən şəxslər məsuliyyətə cəlb olunmuş, 251 kriminal qrup zərəsizləşdirilmiş, axtarışda olan 557 nəfər tutulmuşdur.

2021-ci il ilə müqayisədə 2022-ci ildə 373 kiloqram çox – 3,4 ton narkotik vasitələr dövriyyədən çıxarılmış, 172 tondan çox belə bitki məhv edilmişdir. Ötən il qəsdən adamöldürməyə cəhd, qəsdən sağlamlığazərərvurma və s. şəxsiyyətəleyhinə cinayətlər 2,4 faiz azalmışdır.

2023-cü ilin I yarımilliyində məqsədyönlü şəkildə həyata keçirilmiş mübarizə nəticəsində 2022-ci ilin 6 ayı ilə müqayisədə qəsdən adamöldürmə faktları 15,4 faiz, oğurluq 1,7 faiz, soyğunçuluq 8,4 faiz, quldurluq 25 faiz, xuliqanlıq 16,6 faiz, ekoloji cinayətlər 26,1 faiz azalmışdır. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə Daxili İşlər Nazirliyi və Rrokurorluq üzrə qeydə alınmış 18 min 661 cinayətin 90 faizinin açılması təmin edilmişdir.

Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 90 faizi, qeyri-aşkar şəraitdə baş verənlərin 85,7 faizi, şəxsiyyət əleyhinə olanların 97,8 faizi, onlardan qəsdən adamöldürmələrin 97,5 faizi, adamöldürməyə cəhdlərin 97,1 faizi, qəsdən sağlamlığa ağır zərərvurmaların 96,6 faizi, mülkiyyət əleyhinə olanların 81,3 faizi, o cümlədən oğurluqların 72,4 faizi, dələduzluqların 92,1 faizi, soyğunçuluqların 95,8 faizi, quldurluqların 95,1 faizi, hədə-qorxu ilə tələb etmələrin 97,1 faizi, avtonəqliyyat vasitəsini qaçırma cinayətlərinin 87 faizi açılmışdır.

Bu ilin 6 ayı ərzində keçmiş illərdən bağlı qalmış 258, "isti izlərlə" isə 837 cinayət açılmışdır. Təqsirləndirilən şəxslərin axtarışı yaxşılaşaraq 77 faiz təşkil etmiş, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 65 (+19) şəxsin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 25 (+8) nəfərin yeri müəyyən olunmuşdur.

Bütövlükdə müxtəlif cinayətlərə görə 9 min 723, o cümlədən qanunsuz odlu silah saxlayan və daşıyan 129 şəxs tutularaq məhkəmə məsuliyyətə cəlb edilmişdir. Ağır və xüsusilə ağır növ cinayətlər törətmiş 115 kriminal qrup zərərsizləşdirilmişdir. Qeyri-leqal dövriyyədən 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 946 kiloqram çox – 2,9 ton narkotik vasitə çıxarılmışdır. Ümumi çəkisi 143 ton olan narkotik tərkibli bitki yaşıl kütlə halında məhv edilmişdir.

Göründüyü kimi, müxtəlif növ ağır və xüsusilə ağır cinayətlər baş versə də, onların açılması polisin yüksək peşəkarlığı ilə təmin edilir. Polis fəaliyyətini məharət və əzmlə həyata keçirir.

Vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanına mənsub olan, dövlət qulluğunun xüsusi növündə çalışan və müəyyən səlahiyyətləri həyata keçirən polis əməkdaşının geniş və mürəkkəb vəzifə funksiyaları var. Kriminogen durumu nəzarətdə saxlamaq əzmkarlıq, peşəkarlıq, prinsipiallıq, nəzakətli davranma tələb edir.

Öz növbəsində, Azərbaycan polisi avtomobil yollarında hərəkətin təhlükəsizliyini təmin edir, ekstremizmə qarşı durur, mütəşəkkil cinayətkarlığa, XXI əsrin köləliyinə – insan alverinə qarşı mübarizə aparır.

Bu qurum kibertəhlükəsizliklə bağlı əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, dünyada eskalasiyası böyüyən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı görk olacaq əməliyyat-axtarış tədbirlərini həyata keçirir.

Azərbaycan polisi cəmiyyətdəki rolunu, mövqeyini və səlahiyyətini, ərazidə təhlükəsizliyin və ictimai qaydanın mühafizəsi barədə məsuliyyət hissini dərk edir. Polis əməkdaşının yüksək münasibət qura bilmək bacarığı var, o, müxtəlif insanlarla təmasda ola, münaqişəli situasiyalarda problemin həlli yollarını tapa bilir.

*Şəmsəddin ƏLİYEV,*
*"Polisə Dəstək" İctimai Birliyinin sədri*

KÖŞƏ

## Dünya Zəngəzur dəhlizinin açılmasını intizarla gözləyir

### Bu körpü Şərqlə Qərbi daha da yaxınlaşdıracaq

**Bu gün Şərqdə olduğu kimi, Qərbdə də Zəngəzur dəhlizinin açılmasının dünya ticarətinin inkişafında ciddi bir dönüş yaradacağına böyük inam formalaşıb. Zəngəzur dəhlizindən keçib Şərqlə Qərbi birləşdirən Orta Dəhliz onun təşəbbüskarları və iştirakçıları üçün nə deməkdir? Nədən Amerika Birləşmiş Ştatları bu il sentyabr ayının 9-da Hindistanın paytaxtı Nyu Dehlidə "Böyük İyirmiliy"in (G20) "Bir dünya, bir ailə, bir gələcək" adlı sammitində Çinin təşəbbüsü ilə hələ 10 il bundan öncə irəli sürülən "Bir kəmər, bir yol" layihəsinin qarşısına Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizi adlanan nəqliyyat xətti layihəsini çıxartdı? Bütün bu suallara hər iki layihənin iqtisadi göstəricilərini təhlil etməklə cavab verməyi mümkündür.**



**Fikrət Yusifov,**
**yfikrat1957@gmail.com**

Əvvəlcə illik xarici ticarət dövriyyəsi 6,3 trilyon dollardan çox olan Çindən Avropaya bir trilyon dollara qədər dəyərində yüklərin ən qısa quru yolla daşınmasını təmin edə biləcək və əsas qolunun Zəngəzur dəhlizindən keçəcəyi "Bir kəmər, bir yol" layihəsi barədə.

Bu məqamda onu deyək ki, bu yolla daşımalar vaxtın 3 dəfəyə qədər qısaldılmasına, investorların qazancının 3 dəfəyə qədər artmasına imkan verəcəkdir. Bu, investorlar üçün yüz milyardlarla dollar həcmində ölçülən yeni qazanc mənbəyinin yaranması deməkdir. Belə olan halda dövlət büdcəsi 5 milyard dollar ətrafında müşahidə edilən Ermənistan bu gün Zəngəzur dəhlizinin açılması ilə bağlı nümayiş etdirdiyi siyasi oyunbazlıqla heç nəyə nail ola bilməz. Bu dəhliz mütləq açılacaq. Təbii ki, Ermənistan ağıllı davranarsa, bu dəhlizin fəaliyyətindən böyük iqtisadi və siyasi dividentlər əldə edə bilər. Yox, əgər Ermənistan öz məkrindən xilas olmasa, Türkiyə Prezidenti R.T.Ərdoğanın dediyi kimi, bu dəhliz İran ərazisindən keçəcək və bununla da problem həllini tapacaq. Baxın, Zəngəzur dəhlizinin Ermənistan üzərindən keçməsinə qarşı olan İran onun öz ərazisindən keçməsinə razılıq verdi. Çünki bu dövlət sözügedən layihənin həm iqtisadi, həm də siyasi əhəmiyyətini yaxşı dərk edir.

Bu gün Çin iqtisadiyyatı real olaraq dünya nəhəngi hesab edilən ABŞ iqtisadiyyatını üstələyir. Beynəlxalq statistikada Alıcılıq Qabiliyyəti Prioriteti adlı bir göstərici mövcuddur. Bu göstəriciyə əsasən, dünyanın müxtəlif ölkələrində istehsal olunan Ümumi Daxili Məhsulun həcmi həmin məhsulların ABŞ bazarındakı qiymətləri ilə ölçülərək, onların real dəyəri müəyyən olunur. Belə bir yanaşmanın səbəbi isə odur ki, bütün ölkələrin milli valyutalarının məzənnəsi dünya ölkələri tərəfindən rəsmi qəbul olunmuş ABŞ dollarına nəzərən müəyyən edilir.

Başqa sözlə, məsələn, əgər bu gün Çində istehsal olunan hər hansı bir məhsulun dəyəri Çin bazarında 1 dollardırsa, həmin məhsulun ABŞ bazarında qiyməti bundan iki dəfəyə qədər yüksək ola bilər. Bu yanaşma ilə hazırda Çin Amerika Birləşmiş Ştatlarından 10 trilyon dollardan çox Ümumi Daxili Məhsul istehsal edir. Təbii ki, Çinin son bir neçə on ildə belə sürətlə inkişafı ABŞ-ı ciddi əndişələndirir.

Buna görə də indiyədək Çin iqtisadiyyatının sürətli inkişafının qarşısını almaq məqsədilə bir neçə dəfə müxtəlif manevrlər yaradılıb. İllər öncə Çində peyda olmuş qorxulu "Quş qripi" əslində Çin iqtisadiyyatını ən azı 50 il geri salmağa hesablanmış bir addım idi. 2019-cu ilin sonlarından koronavirus pandemiyasının məhz Çindən başlaması da təsadüfi sayıla bilməz. D.Trampın hakimiyyəti dövründə Çinlə ABŞ arasındakı ticarətdə ortaya atılan "rüsum müharibəsi" yenə də Çin iqtisadiyyatının inkişafında müəyyən əngəllərin yaradılmasına hesablanmış addım idi. Lakin Çin hakimiyyəti hər dəfə qarşısına çıxan bu problemlərin həllinin uğurlu yollarını tapa bildi.

Çin iqtisadiyyatının inkişaf sürətini əngəlləməyə hesablanmış son addım rəsmi Pekinin beynəlxalq ticarət əlaqələrini zəifləmək məqsədilə cari ilin sentyabr ayında Hindistanda keçirilən G20 sammitində Birləşmiş Ştatlar tərəfindən Hindistan–Yaxın Şərq–Avropa İqtisadi Dəhlizi adlı layihəni ortaya çıxarmağla atılmış oldu.

ABŞ-ın Çinin 8 trilyon dollardan artıq vəsait xərclənəcək, 60-dan çox ölkənin iştirakı ilə reallaşdırılacaq "Bir kəmər, bir yol" layihəsinin qarşısına çıxardığı bu alternativ yol layihəsi iqtisadi cəhətdən nə qədər səmərəli ola bilər? Öncə onu deyək ki, Hindistanın bu gün xarici ticarət dövriyyəsi Çinin xarici ticarət dövriyyəsindən 5,3 dəfə, ixracı isə 8 dəfəyə qədər azdır. Daha sonra, ABŞ-ın təklif etdiyi yeni daşıma layihəsi ilə yüklər 3 nəqliyyat vasitəsi ilə iki dəfə su və iki dəfə quru yolla daşınaraq Avropaya çatdırıla bilər. Yəni Hindistandan Birləşmiş Ərəb Əmirliklərinə su yolu ilə çatdırılacaq konteynerlər, oradan dəmir yolu ilə Səudiyyə Ərəbistanı vasitəsilə İordaniyaya, buradan isə yenidən quru yolla İsrailə daşınacaq və sonda bu yüklər İsraildən Yunanıstana yenidən su yolu ilə daşınmalı olacaq.

Marşrutun çətinlikləri bununla bitmir. Hazırda Birləşmiş Ərəb Əmirlikləri ilə Səudiyyə Ərəbistanı arasında dəmir yolu xətti yoxdur və deməli, bu iki ölkə arasında yüklər ya avtomobil yolu ilə daşınmalı, ya da onların arasında yeni dəmir yolu xətti çəkilməlidir. Layihənin daha bir ciddi problemi isə yüklərin keçəcəyi 6 ölkə arasında gömrük anlaşmasının olmamasıdır. Bütün bunlar layihənin reallığını ciddi şübhə altına alır.

Şərqlə Qərbi birləşdirəcək ən yaxın və iqtisadi cəhətdən səmərəli quru yol Türkiyə üzərindən keçə bilər. Bu mənada Çinin 10 il öncə təklif etdiyi və əsas xətlərindən birinin Zəngəzur dəhlizindən keçəcəyi "Bir kəmər, bir yol" layihəsinin alternativi yoxdur. Xatırladaq ki, Çinin 10 il öncə irəli sürdüyü bu layihəni hamıdan öncə Azərbaycan dəstəkləmişdi.

SOSİAL XƏBƏRLƏR

### Xarici astronavtlar DOST-un qonağı olublar



**Bakının ev sahibliyi etdiyi 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində xüsusi qayğıya ehtiyacı olan uşaqlar və paralimpiyaçıların astronavtlarla görüşü keçirilib.**

"Kosmos və inklüzivlik" mövzusunda keçirilən görüşdə mərkəzin direktoru Nigar Məmmədova qurumun fəaliyyəti barədə məlumat verib. Burada şəhid ailəsi üzvləri, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələrdən olan və əlilliyi olan şəxslər sırasından istedadlı şəxslərin bacarıq və yaradıcılıq potensialının inkişaf etdirilməsi işlərinin aparıldığı vurğulanıb. "Azərkosmos"un təhsil üzrə meneceri İmran Muxtarov iştirakçılara qurumun fəaliyyət istiqamətləri, Beynəlxalq Astronavtika Konqresi və "Beynəlxalq astronavtlar proqramı" haqqında ətraflı məlumat verib.

ABŞ-dən olan astronavtlar Con-Devid Bartoe, Entoni Antonelli, Rasti Şvaykart, kanadalı xanım astronavt Juli Payet, Birləşmiş Ərəb Əmirliklərindən astronavt Həzza Əl-Mənsuri, ilk misirli xanım astronavt Sara Sabri və ilk braziliyalı kosmik turist Viktor Hespana ilə interaktiv formatda görüş keçirilib. Onlar kosmosa səyahət və kosmik missiyaları ilə bağlı təəssüratlarını bölüşüb, tədbir iştirakçılarının suallarını cavablandırıblar. Mərkəzin benefisiarları Orxan İmanov və Səbinə Əsgərova isə uğur hekayələrini bölüşüblər. Səbinə Əsgərova kanadalı musiqiçi Maykl Bublenin repertuarından mahnı ifa edib.

Görüşdə Azərbaycanın paralimpiyaçıları Səid Nəcəfzadə, Orxan Aslanov, Dürsədəf Kərimova, Vəli İsrafilov, Əbülfəz Abuzərli, Sona Ağayeva və Vüsal Kazımov da iştirak ediblər.

Xatırladaq ki, 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində çoxsaylı texniki sessiya və konfranslar keçirilir. Məktəblilər, tələbələr, şəhidlərin və müharibə iştirakçılarının övladları, xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənc alimlər daxil olmaqla 3000 nəfərlə görüşlərin keçirilməsi nəzərdə tutulur. Yeniyetmə və gənclər arasında kosmos sahəsinə, yüksək texnologiyalara marağın artırılması, milli kosmik ekosistemin təşviqi proqramın əsas məqsədlərindəndir. Tədbir dünya ölkələrinin kosmos sahəsi üzrə fəaliyyətlərinin müzakirəsinə, yeni əməkdaşlıq və biznes əlaqələrinin qurulmasına zəmin yaradır.

### Ukraynalı uşaqlar Qəbələdə

**Ukraynadakı müharibədən zərər çəkən və reabilitasiya xidmətləri ilə təmin edilmək üçün ölkəmizə gətirilən daha 30 uşaq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində reabilitasiya xidmətlərinə cəlb olunublar.**



İlk mərhələdə müayinədən keçirilən hər bir uşaq üçün fərdi reabilitasiya proqramı tərtib edilib. Bu proqram əsasında onlar müalicəvi masaj, müalicəvi hovuz və vanna, art-terapiya, əmək terapiyası, peşəkar psixoloq tərəfindən fərdi və qrup terapiyalarına cəlb ediliblər.

15 günlük sosial reabilitasiya proqramı çərçivəsində ukraynalı uşaqların asudə vaxtlarının səmərəli təşkil edilməsi üçün milli rəqslər, stolüstü oyunlar, futbol, badminton yarışları, Şəki, İsmayıllı və Şamaxı şəhərlərinə ekskursiyalar da təşkil olunacaq.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

“XalqTV”-nin qonaqları

# “Odlar yurdu”nu dünyada tanıdan opera rejissoru

**Hazırda Ankarada yaşayan soydaşımız, tanınmış opera rejissoru, Xalq artisti, jurnalist-tədqiqatçı, diaspor fəali Əflatun Nemətzadə Vətənə çox bağlı olan ziyalılarımızdandır. Söhbətimizin əvvəlində ondan özünün ömür yoluna nəzər salmasını xahiş etdik.**



– Biz ailədə 11 uşaq olmuşuq, – deyə cavab verdi. – Əlimizdən kitab düşməzdi. Astaranın Ərçivan kəndindəki dədə-baba evimizdə 2 minədək kitab var idi. Meşəyə odun qırmağa gedərdik, orda yarım saat, bir saat dincələndə atam: “Açın kitablarınızı” – deyərdi. Baxçada kartofların dibini belləyəndə də oxuyardıq. Bu bir alışqanlıq deyildi, zərurət idi. Ərçivanın kitabxanasındakı bütün kitabları oxumuşdum, keçmişdim rayon mərkəzindəki kitabxanaya. Atam Lənkəran bazarına meyvə aparanda onunla gedir və kitabxanaya qaçırdım. Babam – həkim Mirzə Mütəllim Ərdəbili İranda məşhur adam olub, Bakıda da tanınıb. Bizim ailədə hamı ali təhsil alıb.

**– Siz o vaxtkı Teatr İnstitutunu bitirmisiniz.**

– Bəli. Həm orada oxuyur, həm də mətbuata məqalələr yazırdım. “Ədəbiyyat qəzeti”ndə, “Azərbaycan gəncləri”ində yazılarım çap olunurdu. O zaman mən təqaüdlə yaşaya bilmədiyim, işləmək istədiyim üçün aspiranturadan çıxdım. Ailəmiz atamın adi müəllim maaşı ilə dolanırdı, mənə pul göndərə bilmirdilər.

Bir gün müəllimim Turan Cavid məni yanına çağırıb dedi ki, heç yerə getmə, burda muzeydə işlə, dissertasiyanı da yaz. Muzeydə işləyə-işləyə qəzetlərə yazır, qonorar da alırdım, Ordan da iki dəfə dövlət xətti ilə Moskvaya getdim. Mədəniyyət nazirinin yanına gedib dedim ki, Moskvaya getmək, opera rejissorluğu oxumaq istəyirəm. Bir aylıq ezamiyyə kağızı ilə məni göndərdilər Rusiyaya. Gedib Sankt-Peterburq konservatoriyasına qəbul olundum. Oranı bitirəndən sonra təyinatımı Sverdlovsk operasına verdilər. Bir müddət işləyib, qayıtdım vətənə. Burda opera qoydum, çox uğurlu alındı. Mədəniyyət naziri Zakir Bağırov çağırıb dedi ki, Heydər Əliyev sənin burda qalıb, işləməyini məsləhət görüb. Mənə ev də verdilər.

Bir müddət sonra müsabiqə üçün “Karmen” operasını işlədim. Sonra tale yolları məni Moskvaya apardı. Bir gün tamaşa zamanı dedilər Heydər Əliyev səni görmək istəyir, dərhal getdim yanına. Dedi ki, axı, mən səni Bakıya dəvət etmişdim, burda neynəyirsən? Dedim müsabiqə vardı, mən də müsabiqədən uğurla keçdiyim üçün bura dəvət etdilər. “Yaxşı” dedi. Orda işləyə-işləyə müxtəlif ölkə operalarına dəvət aldım, amma Yəməni seçdim. Sonra da Türkiyə, Ankara...

**– Siz Yəməndə ilk dövlət teatrının əsasını qoydunuz?**

– Elədir. O vaxta qədər Yəməndə teatr yox idi. İstedadlı uşaqları seçib onlara aktyorluqdan dərs keçməyə başladım. Eyni vaxtda “O olmasın, bu olsun” musiqili komediyasının tərcüməsinə başladıq. Onun parçaları ilə tələbələrimlə etüdlər keçdik. Parça-parça hazırladıq komediyanı, sonra da onları bağladıq pərdələrlə bir-birinə. 1981-ci martın 10-da – Ümumdünya Teatr günündə tamaşanın premyerası oldu. Orda SSRİ-dən gəlmiş bir azərbaycanlı, Mərkəzi televiziyada işləyən müxbir vardı. Tamaşadan hissələri çəkib Moskvaya, televiziyaya göndərdi. Bu, böyük rezonans doğurdu.

Mən Yəmən teatrında 20-yə qədər əsəri tamaşaya qoydum, sonuncusu Şeksprin “Otello”su oldu. Ardınca məni Misirə dəvət etdilər, amma səfir imkan vermədi. Dedi ki, heç yerə getməyəcəksən, səni bura biz dəvət etmişik, burda da işlə. 4 il işlədim Yəməndə. Sonra yoldaşım xəstələndi, oralar çox isti olur deyə, qayıtdıq Bakıya, mən daha geri dönmədim.

**– Əflatun müəllim, sizinlə “Xalq TV”də olan və “YouTube”də yayımlanan müsahibəyə baxmış dostum – Sumqayıt Dövlət Dram Teatrının rejissoru, Əməkdar artist Namis Şirməmmədov mənə zəng vurub dedi ki, siz həm də Azərbaycan operasına ilk video material daxil edən sənətkarsınız. Sənət fəaliyyətinizdə daha hansı ilklər olub?**



– Müəyyən yeniliklər olub. Vaxtınızı çox almaq istəməzdim, çünki bunlar barədə internetdə bəzi materiallar var... Bir vaxt gəldi ki, məni Türkiyəyə dəvət etdilər. Ankara teatrında Süleyman Ələsgərovun “Milyonçunun dilənçi oğlu” əsərini hazırladım. Türkiyənin o vaxtkı mədəniyyət naziri də tamaşaya gəlmişdi. Mənə dedi ki, qal burda, getmə. 1991-ci il idi, dedim mənim Bakıda ailəm var, dedi gətirərik. Beləcə, Bakının razılığı ilə Ankara Opera Teatrına getdim.

İlk dəfə azərbaycanlı gənclərin Türkiyədə təhsil almasına kömək edənlərdən biri də mənəm. Orada Azərbaycana cəmi15 yer verilmişdi. Sayın artırılmasına nail olduq. Hər il 250-300 tələbə hərbi və tibbi sahə üzrə ali məktəblərə qəbul edildi. Ulu öndərin qayğısı sayəsində tələbələrə təqaüd də ayırdılar. Həm Türkiyə, həm Azərbaycan dövləti tələbələrə təqaüd verdilər.

**– Türkiyədə də operalar səhnələşdirmisiniz...**

– 2-ci dəfə ora dəvət ediləndə Mersin Dövlət Opera və Balet teatrını qurmağı xahiş etdilər. Burdan mədəniyyət naziri Polad Bülbüloğlu icazə vermədi. Türkiyənin mədəniyyət naziri özü gəldi, məni apardı. Ev də verdilər mənə. Teatrın binası çox gözəl idi. Mersin Opera və Balet teatrını “Arşın mal alan”la açdıq. Orda çox tamaşalar hazırladım, ən böyük uğuru isə “Koroğlu” operası qazandı.

**– Ulu öndər haqqında “Üstün zəka” adlı maraqlı bir kitab yazmısınız...**

– Mən Ulu öndərlə Bakıda 1988-ci ildə tanış olmuşam. O vaxt Gürcüstanda doktorluq işimin müdafiəsinə gedib-gələndə bir tamaşada bizi Eduard Şevardnadze ilə tanış etdilər. Səmimiyyətindən istifadə edərək ona dedim ki, Qorbaçov Siyasi Büroda Heydər Əliyevin üstünə gedəndə siz onu müdafiə etməmisiniz. O da dedi ki, Qorbaçov qəliz adamdır... Bu söhbət də daxil olmaqla Heydər Əliyev haqqında bildiklərimi, onunla bağlı xatirələrimi qələmə alır, bəzən Türkiyə qəzetlərində dərc elətdirirdim.

Bir gün Heydər Əliyevin tapşırığı ilə Süleyman Dəmirəl haqqında məqalə yazdım. Naxçıvana gələndə ona bu barədə məlumat veriblər, o da qəzeti görmək istədiyini bildirib. Ulu öndər mənə zəng vurub dedi: “Süleyman Dəmirəl səni köşkdə gözləyəcək, apar o yazını, ona oxu”. “Türk dünyasını tacı baba Süleyman” adlı məqaləmi oxudum Süleyman Dəmirələ, alnımdan öpdü. Fürsətdən istifadə edib Süleyman Dəmirələ dedim ki, əsgəri okullar Azərbaycana cəmi 50 yer ayırır, azdır. Dəmirəl oradaca göstəriş verdi və 500 yer ayırdılar, yataqxana da tikdilər. Bu da 30 il sonra Qarabağda gerçəkləşən zəfərimizə hələ o vaxt verdiyimiz töhfə sayıla bilər.

**– Mətbuatda 100-dən çox məqaləniz çıxıb. Türkiyədə opera sənəti barədə kitabınız da çıxıb, deyəsən. Xatırlayırıq ki, siz 1970–1980-ci illərdə Azərbaycan Dövlət Televiziyasında "Opera haqqında söhbətlər" silsilə verlişlərinin aparıcısı olmusunuz. Kitabı yazanda bu təcrübə köməyinizə gəldimi?**

– Əlbəttə. O kitabı yazmağı mənə tanınmış həkim-pediatr, ictimai xadim İhsan Doğramaçı sifariş vermişdi. Demişdim ki, Ankarada opera qurduq, amma Türkiyədə opera rejissoru yoxdur. Ən azı 10-15 müəllim yetişdirmək lazımdır. Dedi, məktəb aç, kimi istəyirsən, dəvət et. Etdik, qurduq, sonra baxdıq ki, dərslik yoxdur. Dedilər, onu da özün yaz. Bir aya “Opera sənəti” kitabını yazdım.

O zaman Bilkənt universietində çalışırdım. Qazi universitetinin rektorunun dəvət ilə orda da teatr bölümünü qurduq. Təsəvvür edin ki, konservatoriyada teatr bölümü var, amma müəllim yoxdur. Orda da gündə 2 saat dərsimi keçirdim, təzədən məni qaytarırdılar Bilkənd universitetinə. Yoldaşım nevropatoloqdur, onu da işə götürmüşdülər...

**– Həm sənətdə, həm elm sahəsində məhsuldar fəaliyyətlə yanaşı, diaspor fəaliyyətiniz də olub...**

– Hə, bir Azərbaycan yardımlaşma və mədəniyyət dərnəyi qurmuşduq. Dərnək Türkiyə ilə Azərbaycan arasında işgüzar əlaqələr yaratdıq bu xətlə. Azərbaycandan bütün yazıçı, şair, sənət adamlarının yaradıcılıq gecələrini keçirdik.

**– Bu fəaliyyətinizə görə sizə verilmiş TÜRKSOY-un yubiley medalı halal haqqınızdır. Bu barədə nə deyə bilərsiniz?**

– Nə deyim? 2014-cü ildə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən Ankarada mənim yaradıcılığımın 50, ömrümün 70 illiyinə həsr olunmuş tədbir keçirilib və tədbir zamanı türk dünyası qarşısında səmərəli fəaliyyətimə görə həmin yubiley medalı təqdim olunub. Orada səhnəyə qoyulan “Koroğlu” operasında bütün türk dövlətlərindən sənətçilər oynayırdılar. Ardınca biz, demək olar ki, bütün türk dövlətlərində oynadıq o tamaşanı. TÜRSOY-un layihəsi idi.

**– Sizin “İllərdə izlər”adlı maraqlı kitabınız da var, bütün həyat hekayəniz orada əksini tapıb. Eyni zamanda cənab İlham Əliyev haqqında türkcə “Siyasət səmasında parlayan ulduz” kitabınız işıq üzü görüb. Bu kitabı necə yazdınız?**

– İlk vaxtlar İlham Əliyevin fəaliyyətini Türkiyədə çox bilmirdilər. Mətbuatda bu barədə səhifə-səhifə yazılar verdim. Bir türk dostum dedi ki, bunları topla və bir kitab elə. Beləcə, fikir formalaşdı, yazdıqlarımı bir yerə yığıb, kitab halına gətirdim. Ankaradakı dostlar da çapını təşkil etdilər. Çox nəfis şəkildə çap olunub.

**– Bəs, Azərbaycanın bugünkü qələbə ruhu ilə bağlı nəsə yaratmaq fikriniz varmı?**

– Azərbaycan həqiqətləri Türkiyədə, eləcə də dünyada daha geniş təbliğ edilməlidir. Bu baxımdan mən də əlimdən gələni etməyə hazıram. Bəzi fikirlərim var, amma indidən açıqlamaq istəməzdim.

**– Əflatun müəllim, maraqlı söhbətə görə təşəkkür edirəm!**

*Müsahibəni apardı:*
***Əli NƏCƏFXANLI***
***XQ***

Tələbə yaradıcılığı

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri Şirin Əhmədov və Yusif Qasımlı “İpək Yolunun incisi” Beynəlxalq Daşkənd Film Festivalından qayıdıblar. Onlar, xəbər verdiyimiz kimi, gənc rejissorlar üçün “5 gündə film” müsabiqəsində uğurla çıxış ediblər.**

**Filmin rejissoru Şirin Əhmədov “XQ”yə müsahibəsində festivalla bağlı təəssüratını bölüşdü. O qeyd etdi ki, Özbəkistanda nümayiş etdirilən “100 addım” onların ilk filmi deyil:**

– İlk filmimiz “Bakı küləyi” olub. Bu film Bakı Beynəlxalq Qısa Filmlər Festivalında xüsusi mükafata layiq görülüb. İlk filmimiz sənətimizdə birinci addımımız oldu. Növbəti – “Qütb ulduzu” filmi hazırda kinoteatrlarda nümayiş etdirilir. Onlardan başqa “Yuxusuz gecə” adlı bir qısa filmimiz də var. Ümumiyyətlə, müxtəlif mövzulara müraciət edir və işimizin yaxşı olması üçün ciddi səy göstəririk. Çox sevinirik ki, “5 gündə film” müsabiqəsinə təqdim etdiyimiz filmi münsiflər yüksək qiymətləndirdilər. Bu, bizim üçün daha bir sənət uğurumuz kimi yaradıcılıq əhvalımızı yüksəltdi.

**Tələbə rejissor bildirdi ki, “100 addım” 5 gün ərzində çəkilməli, mövzusu Özbəkistanı əhatə etməli idi:**

– Fikirləşdik ki, bu mövzuya bir qədər fərqli yanaşaq. Ssenaridə babanın karate ilə məşğul olan kor nəvəsini hər gün 100 addım gəzdirməsindən söhbət açılır. Uşağa həm valideyn, həm də müəllim olan bu qoca hər gün evindən məşq elədiyi yerə qədər addımlarını saymasını, hər addımında qarşılaşdıqları tarixi yerləri, yaxud maraqlı hadisələri yadda saxlamasını istəyir. Onu başa salmaq istəyir ki, bu addımların hər biri həyatda qoyduğumuz izdir və onun çox böyük mənası var”.

**Universitetin elm-yaradıcılıq işləri üzrə prorektoru Sədaqət Əliyeva müsabiqədə rəqabətin çox böyük olduğunu dedi:**

– 5 gün ərzində Özbəkistan, onun tarixi, ənənələri haqqında film çəkilməli idi. Gənclərimiz çox gözəl film ərsəyə gətirdilər. “Yüz addım” gənclərimizin bu sahədəki potensialını göstərir. Bu, həm də Azərbaycan kinosunun növbəti qələbəsidir. İnanırıq ki, gənclərimiz gələcəkdə daha yüksək zirvələr fəth edəcəklər.

**Filmin operatoru, Yusif Qasımov müsabiqədə qalib gəldiklərinə görə çox məmnun olduğunu söylədi:**

– 5 gün ərzində yaxşı film ərsəyə gətirmək çətin olsa da, biz bunu bacardıq. Filmimiz layiqli qiymətini aldı.

***L.QURBANOVA***
***XQ***

# “Bakı küləyi”ndən Daşkəndin “100 addım”ına



# XQ-nin kitab rəfi

## Qara Qarayevin əsərləri Yaponiyada

**Dünya şöhrətli bəstəkar Qara Qarayevin əsərlərindən ibarət not kitablarının Yaponiyada dərc olunması layihəsi davam etdirilir.**




Həmin silsilədən bəstəkarın daha iki əsərindən ibarət kitab çap olunub. Xatırladaq ki, layihə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə reallaşır. Yeni kitabda Qara Qarayevin “Yeddi gözəl” və “Don Kixot” baletlərinin partiturasının daxil edildiyi iki not yapon musiqisevərlərinə təqdim edilib. Layihə çərçivəsində ilk dəfə olaraq kitabın üz qabığında bəstəkarın və əsərlərinin adı yapon və ingilis dillləri ilə yanaşı, Azərbaycan dilində də yazılıb.

Kitaba ön sözü bəstəkarın oğlu Fərəc Qarayev yazıb. Yaponiyada Qara Qarayevin digər əsərlərinin də çap olunması planlaşdırılır.

## “İslamda rənglər fəlsəfəsi”

**Praktiki Ali Tədqiqatlar Məktəbinin doktoru, Fransa Milli Elmi Tədqiqatlar Mərkəzinin tədqiqatçısı, islamşünas alim Kərim İfrakın “İslamda rənglər fəlsəfəsi” kitabı işıq üzü görüb.**

Kitabda müsəlman aləmində rənglərin mənası və onların vasitəsilə ideyaların ötürülməsindən danışılır, Azərbaycanın bir çox rəmzi məkanlarından bəhs olunur. Müəllif qədim əlyazmalardakı rənglərdən də söz açıb.

Kitabda Azərbaycanda UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Şəki Xan Sarayında istifadə edilmiş rəngli şəbəkədən, eləcə də Nizami Gəncəvinin “Xəmsə”sindən ətraflı bəhs olunur. Yaşıl rəngin İslamda, xüsusilə də bayraqlarda daha çox işlənməsinə baxmayaraq, mistik göy rəngə, eləcə də qara və müqəddəs hesab edilən ağ rənglərə də üstünlük verildiyi şərh edilir. Müsəlman aləmində geometrik xalçaçılıqda da rənglərin böyük məna daşıdığı qeyd olunur.



## Zəfər nəğmələri

**Şair Gəray Göyyurdun “Şuşa Bəyannaməsi” adlı yeni şeir kitabında Azərbaycan Ordusuna və İkinci Qarabağ müharibəsi şəhidlərinə həsr edilmiş şeir və poemalar toplanıb.**



Kitabda Şuşa Bəyannaməsi bölgədə sülhə çağırışın salnaməsi kimi poetik dildə tərənnüm olunur. İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan dostluğu örnək gətirilir:

***Bu dostluğun bərabəri yoxdu, yox!***
***Paxılları, xəbisləri çoxdu, çox!***
***Yağıların gözlərinə oxdu, ox***
***İki qardaş, iki Cumhurbaşqanı!***

Ümumiyyətlə, kitabda 8 lirik poema və qələbəmizə həsr olunmuş şeirlər toplanıb. Bütün nümunələr dövlətə, millətə, orduya, qazilərə və şəhidlərimizin ruhuna minnətdarlıq hissi ilə qələmə alınıb.

Gəray Göyyurdun yeni kitabı “Nərgiz” nəşriyyatında çap edilib.

***XQ***

# Yeni Füzulinin ilk məktəbi onun sabahını nurlandırır

**Mübaliğəsiz deyə bilərik ki, Azərbaycanda müəllimə həmişə böyük hörmət olub və indi də var. Hər kəs onun şəxsiyyətinə ehtiramla yanaşır. Ümummilli Lider Heydər Əliyev bu barədə deyib: "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram".**



Ölkəmizdə, xüsusilə də işğaldan azad edilmiş rayonlarda məktəb tikintisinə ciddi diqqət yetitilir. Yeni təhsil ocaqlarından biri də Füzulidə qardaş Özbəkistan Respublikasının inşa etdiyi 960 şagird yerlik tam orta məktəbdir. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu təhsil ocağı Azərbaycan və Özbəkistan xalqlarının qardaşlığının rəmzidir. Şəhərə qayıdan ilk şagirdlər məhz bu məktəbdə təhsil alırlar. Hazırda onların sayı 160-dır, amma tezliklə 400-ə çatacaq. Şagirdlərin təlim-tərbiyəsi ilə 15 müəllim məşğul olur.



Böyük alim və hökmdar, riyyaziyyatçı, astronom Mirzə Uluqbəyin adını daşıyan 1 nömrəli tam orta məktəbin direktoru Həcər Mahmudova bildirib ki, 30 il öncə, 26 yaşında bu şəhəri tərk edən sakin kimi yenidən doğma ocağa qayıtmasını böyük xoşbəxtlik sayır:

– Bu unudulmaz anları bizə yaşatdığınıza görə Azərbaycan Prezidenti İlham Əliyevə, qalib Ordumuza minnətdaram. Bu gözəl məktəbi tikib bizə bəxş edən özbək qardaşlarımız da var olsunlar. Biz, pedaqoji kollektivin üzvləri burada təhsil alan şagirdlərin gələcəkdə yüksək bilik və bacarığa, eyni zamanda, milli-mənəvi dəyərlərə sahib vətəndaşlar kimi yetişməsi üçün var qüvvəmizlə çalışırıq. Bu da ölkəmizin gələcəyi, onun dünyada layiqli yer tutması baxımından çox vacibdir.

**Direktor daha sonra dedi:**

– 2023/2024-cü tədris ilində məktəbdə 11 sinif təşkil edilib. "Şagirdlərin və buna uyğun da siniflərin sayı getdikcə artacaq. Çünki Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Artıq Füzuli şəhərində 144 ailənin, yəni 514 nəfərin daimi məskunlaşması təmin edilib. Deməli, köç karvanları gəldikcə şagirdlərin sayı da artacaq.

Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin daha həyəcanlı olanları isə 1-ci sinif şagirdləridir. İlk dəfə müəllimlərinə deyirlər: "Müəllim, bayramınız mübarək! Uşaqlar hər şeyi öyrənməyə çalışırlar. Müəllimlərinə tez-tez suallar verir, biliklərini artırır və Füzulinin tarixi ilə də yaxından maraqlanırlar. Onlar məktəbdə öyrəndiklərini heç vaxt unutmayacaqlar. Müəllimlərimiz onlara parta arxasında oturmağı, düzgün yazıb, oxumağı, özünə inamlı olmağı öyrədirlər".

Bu məktəbin müəllimləri barədə də xoş sözlər söylənilir. Onların sevib-seçdikləri bu peşənin böyük məsuliyyət tələb etdiyi qeyd edilir. Bu barədə məktəb direktoru deib: "Xüsusilə gənc müəllimlər daha diqqətli olmalıdırlar. Çünki cəmiyyətimizin sabahı olan nəsillə işləyirlər, heç bir yanlışlığa, səhvə yol verməməlidirlər. Unutmayaq ki, cəmiyyət məhz müəllim əməyinin nəticəsində formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqlı insanlar yetişir. Müəllimlərimizin hamısı peşələrini sevirlər. Buna görə də tezliklə bizim məktəbin adı qabaqcıl təhsil ocaqları sırasında çəkiləcək".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Hamıdan ucadır müəllimin yeri

**Azərbaycan Dövlət Pedaqoji Universitetində 5 Oktyabr Beynəlxalq Müəllimlər Günü münasibəti ilə "Müəllim ömrü" adlı tədbir keçirilib.**

Tədbirdə Univeristet rəhbərliyi, professor-müəllim və tələbə heyəti ilə yanaşı elmi ictimaiyyətin nümayəndələri də iştirak edib.

Fakültənin dekanı dosent Reyhan Ağayeva müəllimlərin cəmiyyətin əsas hərəkətverici qüvvəsi olduğunu və respublikamızda müəllimə ən ali dəyərin verildiyini diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Elm və Təhsil Nazirliyinin Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov qeyd edib ki, müəllim təkcə bilik öyrətmir, bəzən qayğıkeş ana, yolgöstərən ata, sirlərimizi bölüşəcəyimiz yaxın dostumuz olur: "Müəllimlərimiz bizə cəhalətin qaranlığında mayak olan, həyatın enişli-yoxuşlu, bəzən fırtınalı yollarında əlimizdən tutandır. Onlar bizim parlaq sabahımızın təməlidir."

44 günlük Vətən müharibəsində canlarından keçən qəhrəman müəllimlərin əziz xatirələrinin anılmasından sonra tədbir "Müəllim andı" ilə sona çatdı.



*

**Gəncə Dövlət Universitetində Elmi Şuranın iclasında 5 Oktyabr Beynəlxalq Müəllimlər Günü qeyd edilib və professor-müəllim heyətinə ən xoş arzular çatdırılıb.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Respublika bədii yaradıcılıq müsabiqə–festifalında Gəncə Dövlət Universitetinin tələbələrinin fəal iştirakına görə Elm və Təhsil naziri Emin Əmrullayev tərəfindən imzalanmış "Diplom"lar təqdim edilib. Sonra rektor Yusif Yusibov baş müəllimi Göyçək Pirverdiyevaya, Azərbaycan dili kafedrasının müəllimi Samirə Quliyevayaya, Ümumi riyaziyyat kafedrasının baş müəllimi Kəmalə Qaybalıyevayaya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən verilmiş fəlsəfə doktoru diplomlarını təqdim edib, onlara elmi-pedaqoji fəaliyyətlərində uğurlar arzulayıb.

Ölkəmizdə təhsil sahəsinin inkişafına göstərilən dövlət qayğısından və təhsil işçilərinin qazandıqları uğurlardan bəhs edilib. Ali təhsil ocağının ictimai həyatında yüksək fəallıq göstərdiklərinə və təhsilin inkişafındakı xidmətlərinə görə bir qrup müəllimə universitet rektorunun imzaladığı fəxri fərman və təşəkkürnamə verilib. 60-dan çox qabaqcıl müəllim isə pul mükafatı ilə təltif olunub.



*

**Bakıdakı Rus evində Müəllimlər Günü "Çox sağ olun, müəllimlər!" adlı bayram konserti ilə qeyd edilib. Tədbirin solistləri Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gəncliyə dəstək" layihəsinin iştirakçıları olublar.**

Konsertdə Respublika və beynəlxalq müsabiqələrin laureatları Fərəh Əliyeva (fortepiano), İbrahim Abbasov (tar), Ayşən Umudova (fortepiano), Yasəmən Umudova (fortepiano), Nuray Cəbizadə (fortepiano), Nailə Növrəsli (vokal), Mələk Həsənli (piano), Adnan Kərimli (zərb alətləri), Cəlalə İsmayılzadə (violonçel), Mirşah Növrəsli (vokal) və digərləri çıxış ediblər. Proqramda Fikrət Əmirov, Tofiq Quliyev, Emin Sabitoğlu, Müslüm Maqomayev, Vaqif Mustafazadə, İohann Ştraus, Yan Sibeliusun və başqalarının əsərləri səsləndirilib.

*

**Naxçıvan Dövlət Universitetində Beynəlxalq Müəllimlər Günü təntənə ilə qeyd edilib.**

Ali təhsil ocağında keçirilən məclisdə universitetin rektoru Elbrus İsayev professor-müəllim heyətini peşə bayramı münasibətilə təbrik edib, şərəfli və məsuliyyətli fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Bildirilib ki, ölkəmizdə təhsilin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsinin nəticəsidir ki, son illərdə bu sahədə mühüm dövlət proqramları icra olunur və kompleks tədbirlər həyata keçirilir. Ölkəmiz bu gün dünyada özünün müasir təhsil infrastrukturu və təhsil ənənələri ilə seçilir.

*

**Sumqayıt Dövlət Universitetində Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar keçirilən tədbirdə ali təhsil ocağının rektoru Rüfət Əzizov açaraq professor-müəllim heyətinə ən xoş arzularını çatdırıb, onlara çətin və şərəfli işlərində uğurlar arzu edib.**

Müəllimlərin peşə bayramında ölkədə aparılan çoxşaxəli təhsil islahatlarından ətraflı danışılıb. Bildirilib ki, Sumqayıt Dövlət Universitetində də yüksək ixtisaslı müəllim hazırlığı həyata keçirir və peşəkar kadrların yetişdirilməsi yolunda tarixi missiyasını uğurla davam etdirir. Pedaqoji ixisas üzrə təhsil alan tələbələrin m sertifikasiyadan keçmələri üçün universitetdə tədrisin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin və idarəetmə heyətinin peşəkarlıq səviyyəsinin artırılması və digər vacib istiqamətlər əsas məqsədlərdəndir.

Sonra həmkarları Əməkdar müəllim, dosent Zəfər Hüseynovu uzunmüddətli səmərəli elmi-pedaqoji fəaliyyətinə, universitetin ictimai işlərində fəal iştirakına görə və anadan olmasının 70 illik yubileyi münasibətilə təbrik ediblər. Ona fəxri fərman və pul mükafatı verilib. Qeyd edilib ki, ömrünün böyük bir hissəsini dəqiq elmlərin tədrisinə, bu sahənin araşdırılması və ixtisaslı kadrların hazırlanmasına həsr edən alim onlarla dərslik, dərs vəsaiti və çoxsaylı elmi məqalələrin müəllifidir.

***XQ***


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

### Şəmkir şəhər Ə.Cavad adına 624 şagird yerlik tam orta məktəb binasının əsaslı təmiri və əlavə 22 sinif otağının tikintisi işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Açıq tender iştirakçılarına təklif olunur ki, öz təkliflərini imzalanıb möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi və təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək lazımdır.

Əlaqələndirici şəxs – Z.Quliyev.

Ünvan – Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi küçəsi 18.

Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 1500,0 (bir min beş yüz manat) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı

Kod - 805603
VÖEN - 9900001881
M/h - AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h - AZ88IBAZ38030019441856517211
VÖEN - 1500016711

İddiaçılar açıq tender prosedurunda iştirak üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış təqdim edilməlidir),( notarial təsdiq edilməsi mütləqdir.)
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;( notarial təsdiq edilməsi mütləqdir.)
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı, probasiya şöbəsi və ya müvafiq kommerisya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 2023-cü il oktyabrın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;
- iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;
- iddiaçının maddi - texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);
- sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilində tərcümə edilməlidir).
- iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 13 noyabr 2023-cü il saat 11.00-a, tender təklifi və tender təklifinin bank təminatını isə 21 noyabr 2023-cü il saat 11.00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 22 noyabr 2023-cü il saat 11.00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfat hesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## BİLDİRİŞ

**"Azəristiliktəchizat" ASC-nin** istilik təchizatı sistemlərinin təmiri və bərpası üçün lazım olan müxtəlif material və ehtiyat hissələrinin satın alınması məqsədilə 2023-cü il avqustun 30-da elektron portal vasitəsi ilə keçirilmiş açıq tenderinin nəticələrinə əsasən "Ak Piping Materials" MMC qalib elan edilmiş və həmin MMC ilə 2023-cü il oktyabrın 3-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***



## BİLDİRİŞ

**"Azəristiliktəchizat" ASC-nin** PVC boru və fitinqlərin satın alınması məqsədilə 2023-cü il avqustun 30-da elektron portal vasitəsi ilə keçirilmiş açıq tenderinin nəticələrinə əsasən "FUM" MMC qalib elan edilmiş və həmin MMC ilə 2023-cü il oktyabrın 3-də müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

Xalq qəzeti
XQ
veb-sayt: www.xalqqazeti.az
№ 217 (30333) 6 oktyabr 2023-cü il, cümə

Ovqat

# Çaplini təsirləndirən əhvalat

**Dahi aktyor Çarli Çaplin öz uşaqlıq xatirələri ilə bağlı kitabında ibrətamiz bir hadisədən bəhs etmişdir. Ç.Çaplin yazır:**



"Balaca vaxtımda atamla sirkə baxmağa getmişdik. Bilet satılan yerdə böyük növbə vardı. Qarşımızda ata-anaları ilə birlikdə 6 uşaq da növbəyə dayanmışdı. Geyimlərindən kasıb olduqları bilinirdi. Paltarları köhnə, amma təmiz idi.

Uşaqlar sirkdən danışarkən çox xoşbəxt görünürdülər. Növbələri çatdı, biletlərin qiymətlərini bildikdə ata kəkələməyə başladı. Dönüb arvadına pıçıltı ilə nə isə dedi. Valideynlər çaşqın vəziyyətə düşmüşdülər və pərt olduqları üzlərindən görünürdü.

Birdən atam cibindən 20 dollar çıxarıb yerə atdı və dedi:

– Cənab, sizin pulunuz düşüb, götürün...

Kişi yerdən pulu götürüb gözləri dolmuş halda dərin minnətdarlıq hissi ilə atama baxdı və təşəkkür etdi.

Onlar içəri keçdikdən sonra biz növbədən çıxıb evə getdik. Çünki atamın cibində həmin 20 dollardan başqa pul yox idi.

Mən buna heç təəssüflənmədim, əksinə, atamla fəxr edirdim. Bu, mənim həyatım boyu üzləşdiyim ən gözəl səhnə idi".

***Təqdim etdi: M.HACIXANLI***
***XQ***

Kosmos

# NASA Ayda bina tikəcək

**2040-cı ilədək Ayda bina tikmək niyyətində olan ABŞ-nin Milli Aeronavtika və Kosmik Fəzanın Tədqiqatı İdarəsi (NASA) bu məqsədlə Yerin təbii peykinə 3D printeri göndərməyi planlaşdırır.**



NASA mütəxəssisləri Ay səthindəki tozdan və daş qırıntılarından istifadə edərək, beton hazırlayacaq və həmin materialdan tarixdə ilk Ay binaları tikəcək.

NASA bu məqsədinə çatmaq üçün Texas ştatının Ostin şəhərində yerləşən ICON inşaat kompaniyası ilə əməkdaşlığa başlayıb. Onlar Ayda yaşayış binaları, raketlər üçün eniş meydançası inşa etməyə imkan verən tikinti sistemi hazırlayacaq. Layihədə, həmçinin, "Bjarke Ingels Group" və "SEArch+" kompaniyalarının memarları da iştirak edirlər.

Xatırladaq ki, insanların Aya enməsi 1969-cu ilin iyulundan 1972-ci ilin dekabrına qədər ABŞ-nin "Apollo" proqramı çərçivəsində həyata keçirilib. Həmin vaxtdan bəri Yerin təbii peykinə insan ayağı dəyməyib. NASA 2025-ci ildə start götürəcək "Artemis III" adlanan yeni missiyanın insanları Aya qaytaracağına ümid edir.

***XQ***

Teatr

# Özbək tamaşası Bakı səhnəsində

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı ilə Özbəkistanın müxtəlif teatrları arasında əməkdaşlıq genişlənməkdədir. Birgə layihələr çərçivəsində teatr kollektivlərinin qastrol səfərləri, rejissor, aktyor mübadiləsi həyata keçirilir.**

Özbəkistanın Kattakurqon Şəhər Dram Teatrı və Muqimi adına Özbəkistan Dövlət Akademik Teatrının yaradıcı heyətlərinin ötən mövsümdə Bakıya qastrol səfərlərindən sonra bu ənənə uğurla davam etdirilir.

Bu dəfə Akademik Musiqili Teatrın qonağı Özbəkistanın Namanqan Dövlət Musiqili Dram Teatrı olub. Qonaq kollektiv sənətsevərlər qarşısında "Ah, bu qocalar – qəribə qocalar!" komediyası ilə çıxış edib.

Süjet xəttində ailə-məişət məsələləri dayanan səhnə əsərinin müəllifi Özbəkistanın Xalq şairi Oxunjon Hakimov, səhnələşdireni və rejissoru Marufjon Niyazovdur.

***XQ***




İdman xəbərləri

## "Sabah" Avropa Kubokunun növbəti mərhələsində



**"Sabah" basketbol klubu FIBA Avropa Kubokunun A qrupunda sonuncu oyununu keçirib.**

Rumıniyanın "Rapid" komandası ilə qarşılaşan Azərbaycan çempionu 90:71 hesabı ilə qələbə qazanıb. Bununla da, Bakı təmsilçisi müntəzəm mövsümdə iştirak hüququna sahib olub.

Növbəti mərhələdə "Sabah" D qrupunda yarışacaq. Komandamız "Mornar" (Monteneqro), "Baxçaşehir" (Türkiyə) və "Nimbruk" (Çexiya) klublarına qarşı mübarizə aparacaq. Təmsilçimiz ilk oyununu oktyabrın 18-də səfərdə "Mornar" klubuna qarşı keçirəcək.

## Minifutbol yığmamızın qələbəsi



**Minifutbol üzrə Azərbaycan milli komandası Türkiyədə yoldaşlıq görüşündə qələbə qazanıb.**

Belek bölgəsində təlim-məşq toplanışında olan yığmamız Antalyanın "Tuncay İdman Yurdu" komandası üzərində 4:3 hesablı qələbə qazanıb.

Rəqib qapısından qolları yığmamızın üzvləri Təmkin Xəlilzadə, Seymur Məmmədov, Bəxtiyar Soltanov və Samir Həmzəyev keçiriblər.

## Mundial: 3 qitənin 6 ölkəsində



**Futbol üzrə dünya çempionatı ilk dəfə 3 qitədə və 6 ölkədə keçiriləcək.**

FİFA-nın rəsmi saytının məlumatına görə, 2030-cu ildə mundiala Mərakeş, İspaniya və Portuqaliya ev sahibliyi edəcək.

Çempionatın açılış matçları yarışın 100 illiyi ilə əlaqədar Uruqvay, Argentina və Paraqvayda olacaq.

***Leyla SABİRQIZI***
***XQ***

Cəmiyyət



## Hindistanda uşaq toyları çoxalır

**Hindistanın şimal-şərqindəki Assam əyalətində polis azyaşlılarla evlənmək və uşaq toyları təşkil etməkdə ittiham olunan 1039 nəfəri həbs edib.**

Həbslər bu ölkədə Uşaqların Nikahını Məhdudlaşdırma Aktının pozulmasına qarşı aparılan ikinci kampaniyanın bir hissəsidir.

"Uşaq nikahlarını törədənlərin tutulması əməliyyatı hazırda bütün ştatda aparılır. Bu ay Assamda yetkinlik yaşına çatmayanların evliliyi və uşaq toyları şübhəsi ilə həbs olunanların sayı 3 minə çata bilər", -əyalət hökumətinin baş naziri Himanta Bisva Sarma sosial mediada yazıb.

***AYTƏN***
***XQ***

Sağlamlıq

## Beyinə də pəhriz?

**İnsanlar müxtəlif xəstəliklərin müalicəsində, yaxud sağlam qidalanmaq, eləcə də arıqlamaq məqsədilə ayrı-ayrı vaxtlarda pəhrizdən istifadə edirlər. ABŞ alimləri daha irəli gedərək yeni pəhriz növü düşünüblər. Onlar beyni aktivləşdirən 14 qidanı özündə birləşdirən pəhriz hazırladıqları fikrini irəli sürüblər.**



Beyin pəhrizi adlandırılan qidalanma növündə menyuda toyuq və balıq, meyvələr, yaşıl yarpaqlı tərəvəzlər, qoz-fındıq, giləmeyvə, bütün taxıllar, zeytun yağı və şərab olması qəbul edilib.

Beyinə az da olsa təsirli olan digər qidalar pendir, marqarin, şirniyyat, qırmızı ət hesab edilir.

Alimlər apardıqları tədqiqat zamanı bu pəhrizə riayət edən insanların koqnitiv (hərəkət) testlərdə yaxşı nəticə göstərdiklərini müəyyənləşdiriblər.

Onların fikrincə, beyin pəhrizlərini aktuallaşdırmaq demensiya və Alzheymer xəstəliyinin profilaktikası üçün vacibdir.

## Alma, yoxsa heyva?

**Hamı almanı dəmir mənbəyi bilir. Amma heyvada almadan da çox dəmir var. Ona görə heyva anemiya ilə mübarizədə əvəzsiz meyvə hesab edilir. Maraqlıdır ki, getdikcə heyva süfrələrdən yığışır və layiq olduğu dəyəri görmür. Terapevt Polina Şubina heyvanın bilmədiyiniz 5 faydasını açıqlayıb.**



1. Mədənin dərmanıdır – büzücü xassəsinə görə, mədə xəstəliyi, yaraları və ishalda qəbul etmək olar. Qəbizliyi olanlar isə heyva qəbulunda ehtiyatlı olmalıdır.
2. Ürək damarlarını möhkəmlədir.

Çünki tərkibində B9 və C vitamini var. Eləcə 100 qram meyvədə 3 milliqram dəmir var.

3. Libidonu artırır, afrodiziak təsiri var.
4. Qan laxtalanmasını tənzimləyir, qankəsici xüsusiyyətə malikdir.
5. Ürəkbulanma və iştahsızlığı aradan qaldırır.
6. Hamilələrdə mədə yanmasının (qıcqırmasının) dərmanıdır.

Həkim onu da qeyd edib ki, heyvanı 3 yaşa qədər uşaqlara vermək məsləhət deyil.

***Z.HÜSEYNLİ***
***XQ***

## Gənc cüdoçumuz dünya çempionu olub



**Azərbaycan cüdoçusu Vüsal Qələndərzadə (73 kq) Portuqaliyanın Odivelas şəhərində keçirilən gənclərin dünya çempionatında qızıl medal qazanıb.**

İdmançımız həlledici qarşılaşmada ABŞ təmsilçisi Cek Yonezukanı məğlubiyyətə uğradıb.

Qeyd edək ki, bundan əvvəl digər cüdoçumuz Nizami İmranov (60 kq) yalnız finalda uduzaraq gümüş medala sahib çıxıb.

***L.AZAD***
***XQ***




***Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, oktyabrın 6-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək.***

Havanın temperaturu gecə 13-17° isti, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 764 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70–80 faiz, gündüz 50–60 faiz olacaq.

Azərbaycanın rayonlarında hava, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi bəzi şərq rayonlarında arabir güclənəcək.

Havanın temperaturu gecə 11-16° isti, gündüz 20-25° isti, dağlarda gecə 2-7° isti, yüksək dağlıq ərzilərdə 5°-dək şaxta, gündüz 8-13° isti olacaq.

***Q.QƏZƏNFƏR***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti rəisinin birinci müavini Ceyhun Şadlinskiyə əzizi

ADİLƏ XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) birinci vitse-prezidenti, akademik

XOŞBƏXT YUSİFZADƏNİN

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4820
SİFARİŞ 2562
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00